Biznes hüququ imtahan sualları

1.Hüququn mahiyyətini izah edin. Obyektiv mənada və subyektiv mənada hüququ müqayisə edin. (5 bal)

Hüququn mahiyyəti-cəmiyyətin həyat fəaliyyətinin maddi və sosial mədəni şərtləri, siniflərin, əhalinin sosial qruplarının, ayrı-ayrı fərdlərinin xarakteri ilə şərtlənən və qanunda ifadə olunan və ya dövlət tərəfindən tanınan və bunun nəticəsində insanların davranışının və fəaliyyətinin ümumi miqyası və ölçüsü kimi çıxış edən ümumi iradəsidir.
Hüququn aşağıdakı müddəaları var:

- *O sosial hadisədir, onsuz sivilizasiyalı cəmiyyətin mövcudluğu qeyrimümkündür.*
- *Hüquq normativ mənada ümumbəşəri ədalətin tələblərini əks etdirməlidir, şəxsiyyətin fərdi mənafe və tələbatını nəzərə almalıdır. Hüquq sözü çox müxtəlif mənalarda işlədilir. Birincisi, hüquq davranış qaydalarının məcmusu və sistemi başa düşürük. Bu qaydalar ictimai həyatın təşkilində insanların davranışının tənzimlənməsində mühüm rol oynayır. İkincisi, dövlətin qəbul etdiyi qanunların şəxslərə verdiyi imkan həmin qanunların müəyyənləşdirdiyi mümkün davranış ölçüsü başa düşülür. Hüququn mahiyyəti ilə bağlı aşağıdakı nəzəriyyələr mövcuddur.*

1)Pozitiv nəzəriyyə- Hüququn əsas əlaməti onun normalarının məcburi xarakter daşımasıdır. Pozitiv hüquq məktəbinə görə hüquq ilə yazılı qanunvericilik eyni mənaya gəlir. Hüququn mənbəyini dövlət iradəsi ilə qoyulan qanunlar təşkil edir.

2)Fəlsəfi hüquq məktəbi- Təbii hüquq nəzəriyyəsinə görə insanın təbii hüquqlarına zidd olan normalar hüquq normaları kimi qəbul edilmiş. Bu nəzəriyyə görə isə hüquq obyektiv xarakter daşıyır.

3)Təbii hüquq məktəbi- Hüquq öz mənbəyini ya Tanrıda ya da təbiətdə tapır. John Stuart Millin dediyi kimi, necə ki Allah insanı yaradanda ona burun, qulaq veribsə eyni zamanda ona hüquqlar da bəxş edib. Bura azadlıq, yaşamaq, mülkiyyət, bərabərlik və s. hüquqlar aiddir.

4)Psixoloji nəzəriyyə - Hüquq insanların pisxologiyasına uyğun yaranır. Hər bir dövlətin qanunları orada yaşayan insanların psixologiyasından aslıdır.

5)Tarixi hüquq məktəbi – Gradius tərəfindən irəli sürülən və Van Sovigny tərəfindən dəstəklənən bu məktəbə görə, bir cəmiyyətdə hüquq, o cəmiyyətdə adət-ənənənin inkişafı ilə bir yerdə inkişaf edir və ona uyğunlaşır.

6)Normativ nəzəriyyə - Hüququ dövlət müəyyən edir və hüquq normalarının dəyişməsi dövlətdən aslıdır.
7)Marksist nəzəriyyə - Hüquq dövlətlə bağlıdır və sosial-iqtisadi faktorlara uyğun olaraq müəyyən edilir.

Hüquq xüsusiyyətlərinə görə 2 mənada işlədilir: Obyektiv və Subyektiv mənada hüquq .
Obyektiv mənada hüquq dedikdə, bütün ölkə əhalisi üçün ümumi məcburi olan elə davranış qaydaları başa düşülür ki, bu qaydalar dövlət tərəfindən müəyyən edilir və sankiyalaşdırılır. Obyektiv mənada hüquqa "obyektiv hüquq" və yaxud "pozitiv hüquq" da deyilir.
Subyektiv mənada hüquq dedikdə, şəxsin mümkün olan elə bir davranış ölçüsü başa düşülür ki, bu ölçü qanunla müəyyən edilir. Subyektiv mənada hüquq "subyektiv hüquq" da adlanır. Subyektiv hüquq konkret hər bir şəxsə məxsus olan hüquqdur, konkret hər bir şəxsin malik olduğu imkandır. Məsələn, vətəndaşın yaşayış evinnə olan mülkiyyət hüququ və yaxud seçki hüququ və s. Subyektiv hüquq ona görə "Subyektiv" adlanır ki, bu hüquq birincisi konkret olub, konkret subyektlərə (şəxslərə) məxsusdur ikincisi, bu hüquq subyektin (şəxsin) iradəsindən aslı olub, subyektiv xarakter daşıyır.

2.Hüquq pozuntusunun və hüquqi məsuliyyətin növləri haqqında bəhs edin.(5 bal)

Hüquq pozuntusu ictimai təhlükəli olan, yəni cəmiyyətə ziyan vuran və qonunla cəzalandırılan əməl kimi səciyyələndirilə bilər. Hüquq pozuntusunun aşağıdakı əlamətləri vardır:
Birincisi, hüquq pozuntusu hüquq normasındakı göstərişlərin yerinə yetirilməsi ilə və ya lazımı qaydada yerinə yetirilməməsi ilə əlaqədar olan əməllər hesab edilir. İkincisi, hüquq pozuntusunun subyekti qanunla müəyyən edilmiş yaş həddinə çatmış (bir qayda olaraq 14-16 yaş) hüquq qabiliyyətli anlaqlı şəxslərdir. Azyaşlıların və psixi cəhətdən anlaqsız olan şəxslərin törətdiyi ictimai təhlükəli əməllər hüquq pozuntusu hesab olunmur. Azyaşlıların törətdiyi qanunvericilikdə nəzərdə tutulmuş ictimai təhlükəli əmələ görə müvafiq tərbiyəni və nəzarəti həyata keçirməməklə təqsirkar olan şəxs cavab verməlidir. l
Üçüncüsü, müəyyən yaş həddinə çatmış, anlaqlı şəxsin yalnız o ictimai-təhlükəli, hüquqazidd əməli hüquq pozuntusu hesab oluna bilər ki, bu əməl şəxsin təqsiri ucbatından baş vermiş olsun.

Yuxarıda ifadə olunanları nəzərə alaraq hüquq pozuntusuna belə bir tərif vermək lar: Hüquq pozuntusu dedikdə şəxsin ictimai-təhlükəli xarakter daşıyan, təqsirli, hüquqazidd, qeyri-əxlaqi əməli başa düşülür. Hüquq pozuntusunun təribinə daxildir:
1)Hüquq pozuntusunun obyektini hüquqla tənzimlənən və mühafizə olunan ictimai münasibətər təşkil edir.

2)Hüquq pozuntusunun obyektiv cəhətini hüquqla tənzimlənən və mühafizə olunan ictimai münasibətlərə ziyan vuran hüquqazidd əməl təşkil edir.
3)Hüquq pozuntusunun subyekti qanunla müəyyən olunmuş yaş həddinə çatan, öz əməlinə görə cavabdehlik daşıya bilən, anlaqlı fiziki şəxslər və qanun vericilikdə nəzərdə tutulan hallarda hüquqi şəxslər ola bilər.

4)Hüquq pozuntusunun subyektiv cəhətini şəxsin törətdiyi hüquqazidd əmələ psixoloji münasibətini ifadə etməklə xarakterizə olunan təqsiri təşkil edir.

Bütün hüquq pozuntuları cinayətlərə və xətalara bölünür:
Cinayət – cinayət qanunvericiliyi ilə qadağan edilmiş ictimai təlükəli hüquq pozuntusudur.
Xətalar – hüquqi sanksiyaların xüsusiyyətlərindən aslı olaraq 3 yerə bölünür:
İnzibati xətalar - ən başlıcası dövlət idarəçiliyinə qəsd edə hüquqpozmalardır. İntizam xətaları - əmək, xidməti yaxud təhsil intizamına qəsd edən hüquq pozuntusudur.
Mülki hüquq xətaları – öhdəliklərin icra olunmaması yaxud lazımı qaydada icra olunmaması, hüquqazidd əqdlərin bağlanmasından və s. ibarətdir.
Hüquq məsuliyyətinin fərqli əlaməti – hüququ pozan şəxsin hüququn tələblərini icra etməsinə dövlət məcburiyyətidir. Hüquq məsuliyyətinin 4 əsas növü var: 1)Cinayət məsuliyyəti – cinayət məsuliyyətinə o şəxs cəlb olunur ki, o konkret cinayət törətmiş olsun və ya cinayətin törədilməsində iştirakçı olsun.

2)İnzibati məsuliyyət – səlahiyyətli dövlət orqanlarının qoyduğu inzibati tənbehin tətbiqində isdifadə olunur.

3)İntizam məsuliyyəti – intizam xətaları məzəmmət, töhmət, şiddətli töhmət, işdən azadetmə və s. kimi sanksiyaların verilməsinə gətirir.

4)Mülki - hüquq məsuliyyəti – mülkiyyət münasibətlərini tənzimləyir. O əvəz etmə xarakteri daşıyır, ona görə ki, məqsədi – pozulmuş mülkiyyət hüququnun bərpasıdır.

3.Hüquq normalarını sxematik təsvir etməklə əlamətlərinə görə təsnifatlandırın.(10bal)

Hüququn əsas anlayışları odur ki onlarsız hüquq mövcud ola və fəaliyyət göstərə bilməz. Həmin anlayışlara hüququn mənbəyi, hüququn prinsipləri, hüquq normaları, hüquq münasibətləri, hüquq sistemi, hüquq pozuntusu və hüquqi məsuliyyət aiddir.

Səlahiyyətli dövlət orqanlarının hüquq yaratma fəalliyyəti nəticəsində hüquq normaları yaradılır. Bu normalar rəsmi dövlət sənədlərində ifadə olunur. Hüquq müxtəlif hüquq normalarından ibarətdir. Hüquq dedik də hüquq normalarını sistemi başa düşülür. Hüquq normaları normaların digər növlərindən spesyik, xarakterik keyfiyyətlri ilə fərqlənir. sosial

Birincisi dövlət tərəfindən müəyyən edilir və xalqın dövlət iradəsinin ifadə edir.

İkincisi, rəsmi dövlət sənədlərində ifadə olunur.

Üçüncüsü, pozuntulardan dövlətin məcburetmə qüvvəsi ilə təmin edilir.

Dördüncüsü, ümumi məcburi xarakterdşıyır. Bu normalar hamı üçün məcburidir.

Hüquq norması dedikdə dövlət tərəfindən müəyyən edilən və ya sanksiyalaşdırılan elə davranıç qaydaları başa düşülür ki bu qaydalar rəsmi sənədlərdə ifadə olunur.

Hüquq normaları daxili quruluşa malikdir. Hüquq pozmasının daxili quruluşu dedikdə, onun elementləri nəzərdə tutulur.



Dispazisiya Hipoteza
Sanksiya

Hipoteza dedikdə elə fktiki həyati hallar başa düşülürki bu hal hüquq normasının qüvvədə olmasını şərtləndirir. Hipoteza hüquq normasının qüvvədə olması şərtlərini müəyyən edir.

Dispozisiya hüquq normasının başlıca və əsas elementidir. O davranış qaydasının özünü şxsin hüquq və vəzifələrinin

məzmununu açır. Dispazisya dedikdə hüquq normasnı elə bir elementi başa düşülürki bu element subyektlərin hüquq və vəzifələrini onların mümkün və lazimi davranış variantları müəyyənedi.

Sanksiya dedikdə hüquq normasının elə bir elementi başadüşülürki o dispozisyanı pozmağa görə məsuliyyət nəzərdə tutur. O müəyyən hüquq normasının pozulmasına görə məsuliyyət tədbiri müəyyənləşdirir.

4.Normativ hüquq aktların holliziyasının həlli qaydalarının tətbiqi hqqında bəhs edin.(10bal)

Yeni hüquq normalarının qəbulu zamanı nə qədər diqqət yetirilsə belə, bəzən müxtəlif hüquqi aktlar arasında ziddiyyətlər olur. Bu zaman belə bir sual yaranır:

-Normativ hüquqi aktlar arasında ziddiyyət yarandığı zaman hansı normativ hüquqi akt tətbiq olunmalıdır?

Bu suala cavab vermək üçün ümumqəbulolunmuş 3 əsas prinsipə müraciət etmək gərəkdir.

1.Eyni hüquqi münasibətləri tənzimləyən, iyerarxik cəhətdən bərabər qüvvəli olmayan normativ hüquqi aktlar arasında ziddiyyət yarandığı zaman iyerarxik cəhətdən yuxarı pillədə qərar tutmuş normativ hüquqi aktın tətbiqi nəzərdə tutulur.

2. İki qanunun eyni faktiki vəziyyəti idarə edəcəyi təqdirdə, müəyyən bir mövzunu tənzimləyən bir qanunun yalnız ümumi məsələləri tənzimləyən bir qanunu ləğv etdiyi bildirilir.

3. Eyni hüquq münasibətini tənzimləyən, müxtəlif vaxtlarda qəbul olunmuş normativ hüquqi aktlar arasında ziddiyyət olduğu zaman daha sonra qəbul olunmuş normativ hüquqi aktın tətbiq olunması nəzərdə tutulur.

Beynəlxalq hüququn və AR qanunvericiliyinin prinsiplərin tətbiqi ardıcıllığına münasibəti eynidir. Belə ki, bu prinsiplər yuxarıda qeyd edilmiş ardıcıllıqla tətbiq edilir. Yəni ki, hüquqi aktlar arasında ziddiyyət olduğu zaman daha yüksək qüvvəli tətbiq olunur, yox əgər bərabər qüvvəli aktlardırsa, onda daha xüsusi olan tətbiq olunur. Əgər hansının daha xüsusi akt olduğunu müəyyən etmək olmursa, o zaman isə daha sonra qəbul olunmuş akt tətbiq olunur.

Bu, AR qanunvericiliyində 21 dekabr 2010-ci ildə qəbul olunmuş “Normativ hüquqi aktlar haqqında” konstitusiya qanununda öz əksini tapmışdır. Belə ki, həmin qanunun 2-ci fəsli “NORMATİV HÜQUQİ AKTLARIN KOLLİZİYASI” adlanmış və bu məsələnin həllinə yönəlmişdir.

Normativ hüquqi aktı qəbul edən dövlət orqanına ictimai münasibətlərin müəyyən sahəsinin tənzimlənməsində xüsusi səlahiyyət verilirsə, həmin dövlət orqanının qəbul etdiyi normativ hüquqi akt eyni kateqoriyalı dövlət orqanının həmin sahə üzrə qəbul etdiyi normativ hüquqi aktına münasibətdə daha yüksək hüquqi qüvvəyə malikdir.

Ziddiyyət təşkil edən normativ hüquqi aktlar bərabər hüquqi qüvvəyə malikdirsə, konkret münasibətlərə sahə normativ hüquqi aktı tətbiq edilir, bu şərtlə ki, həmin münasibətlər eyni hüquqi tənzimləmə sahəsinə aiddir.

Eyni normativ hüquqi aktda ümumi və xüsusi normalar arasında ziddiyyət mövcud olduqda xüsusi norma tətbiq edilir.

Yeni normativ hüquqi akt eyni məsələ üzrə həmin dövlət orqanı tərəfindən əvvəllər qəbul edilmiş normativ hüquqi akta münasibətdə daha yüksək hüquqi qüvvəyə malikdir.

Normativ-hüquqi aktların məkana görə qüvvəsi dedikdə, adətən həmin aktların dövlətin yurisdiksiyası altında olan adətən həmin aktların dövlətin yurisdiksiyası altında olan ərazidə qüvvədə olması nəzərdə tutulur. Ərazi dövlət suverenliyinin maddi əsasıdır. Dövlətin suverenliyi onun öz ərazisində ali hakimiyyətə malik olması ilə mümkündür ki, bu da onun daxili suverenliyini ifadə edir. Dövlətin daxili suverenliyi onun öz ərazisində qüvvədə olan və həmin ərazidə yaranan ictimai münasibətləri nizama salan normativ-hüquqi aktlar qəbul etməsi və onları tətbiq etməsi ilə reallaşır.

Dövlətin ərazisinə onun sərhədləri daxilində olan quru, daxili sular və ərazi suları, quru ərazinin, daxili suların və ərazi sularının təki, quru ərazinin, daxili suların və ərazi sularının üzərindəki hava məkanı, su və hava gəmiləri, xüsusi hüquqi rejimə malik olan səfirliklərin və konsulluqların ərazisi və s. aiddir.

Normativ-hüquqi aktların şəxslərə görə qüvvəsi. Normativ-hüquqi aktların şəxsilərə gör qüvvəsi dedikdə, onların ölkə ərazisində bütün şəxslərə yaxud müəyyən kateqoriyaya aid edilən şəxslərə şamil edilməsi başa düşülür. Ümumi qaydaya görə normativ-hüquqi aktlar dövlətin ərazisində olan və ya fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslərin iştirak etdiyi münasibətləri tənzimləyir.

Normativ hüquqi aktın məzmununda qeyri-müəyyənliklər və fərqlər,habelə tətbiqi təcübəsində ziddiyyət aşkar edildikdə, həmin aktı qəbul etmiş normayaratma orqanı və ya Konstitusiya Məhkəməsi şərh edir.

5)NORMATIV HÜQUQİ AKTLARIN MAHİYYƏTİ HAQQINDA BƏHS EDİN.NORMATİV HÜQUQİ AKTLARIN QURULUŞUNU SXEM TƏRTİB ETMƏKLƏ İZAH EDİN.(20bal)

Normativ hüquqi aktlar hüququn əsas və mühüm mənbə növü hesab edilir. Səlahiyyətli dövlət orqanı tərəfindən qəbul edilən, göstərişləri ümumi məcburi xarakter daşıyan hüquq normaları müəyyən edən, dəyişdirən və ya ləğv edən, dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulan rəsmi yazılı sənədlərə normativ hüquqi aktlar deyilir

Qanunlar ölkənin ali hakimiyyət orqanı (Milli Məclis) tərəfindən qəbul edilir. Onlar xalq tərəfindən biləvasitə refrendum yolu ilə də qəbul oluna bilər. Qanunlar yüksək hüquqi qüvvəyə malikdir. Qanunlar hər hansı dövlət orqanı tərəfindən ləğv edilə bilməz. Qanunlar yalnız onları qəbul edən – Milli Məclis tərəfindən ləğv edilə bilər. Özüdə qanunlar ictimai həyatın ən başlıca məsələləri haqqında qəbul olunur.

Qanun dedikdə, xüsusi qaydada qəbul edilən, yüksək hüquqi qüvvəyə malik olan ictimai və dövlət həyatının ən mühüm məsələrini tənzimliyən normtiv akt başa düşülür. Qanunlar 2 yerə bölünür .

Kostitusiya qanunları - ictimai və dövlət quruluşunun əsaslarını müəyyən edən mövcud cari qanun veriliciyinin normativ bazası olan qanunlara deyilir. Onun özüdə 2 yerə bölünür.

Konstutisiya - dövlətin əsas qanunudur. O, qanunlar içərisində ali hüquqi qüvvəy malikdir.

Konustutisiya qanunları - Azərbaycan Respublikası Konstutisiyasına əlavələr edilməsi məqsədilə qəbul olunur.

Adi və ya cari qanunlar - Konustutisiya qanunları əsasında və onların icrası məqsədi ilə qəbul edilən, mövcud cari qanunvericiliyi təşkil edən, iqtisadi, sosial, siyasi, və mədəni xarakterli ictimai münasibətləri tənzimləyən normativ aktlar başa düşülür.

Qanunqüvvəli aktlar qanunlara uyqun olaraq, qanunlar əsasında, qanunların icrası məqsədilə və onlarda ifadə olunası göstərişləri kankretləşdirməli üçün qəbul edilir. Bunlar sxemdə gösdərildiyi kimi 2 yerə bölünür

Mərkəzi qanunqüvvəli aktlar - buraya prezdent fərmanları, Nazirlər kabnetinin qərarları mərkəzi icra hakimiyyəti orqanlarının əmr və təlimatları aid edilir.

Yerli qanunqüvvəli aktlar - yerli icra hakimiyyəti orqanlarının normativ xarkterli aktları aiddir.

6)Normativ hüquqi aktların məkana,zamana və şəxslərə görə qüvvəsi nəyi ifadə edir?(5bal)

Yeni normativ hüquqi akt eyni məsələ üzrə həmin dövlət orqanı tərəfindən əvvəllər qəbul edilmiş normativ hüquqi akta münasibətdə daha yüksək hüquqi qüvvəyə malikdir.

Normativ hüquqi aktların məkana görə qüvvəsi dedikdə adətən həmin aktların dövlətin yurisdiksiya altında olan ərazidə qüvvədə olması nəzərdə tutulur.Ərazi dövlət suverenliyinin maddi əsasıdır.Dövlətin daxili suvrenliyi onun öz ərazisində qüvvədə olan və həmin ərazidə yaranan ictimai münasibətləri nizama salan normativ-hüquqi aktlar qəbul etməsi və onları tətbiq etməsi ilə reallaşır.

Dövlətin ərazisinə onun sərhədləri daxilində olan quru,daxili sular və ərazi suları,quru ərazisi,daxilisuların və ərazi sularının təki,quru ərazinin,daxili sular və ərazi sularının üzərindəki hava məkanı və hava gəmiləri,xüsusi hüquqi rejimə malik olan səfirliklərin və konsulların ərazisi və.s aiddir.

Normativ hüquqiaktların şəxslərə görə qüvvəsi dedikdə,onların ölkə ərazisində bütün şəxslərə yaxud müəyyən kateqoriyaya aid edilən şəxslərə şamil edilməsi başa düşülür.Ümumi qaydaya görə normativ-hüquqi aktlar dövlətin ərazisində olan və ya fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslərin iştirak etdiyi münasibətləri tənzimləyir.

7)Biznes hüququ milli hüququn sahəsi kimi nəyi səciyyələndirir?(5bal)

İstənilən hüquq sahəsini öyrənərkən ilk növbədə həmin hüquq sahəsinin tənzimləmə predmetinə və metoduna diqqət yetirmək lazımdır.

Biznes hüququ-özündə sahibkarlıq fəaliyyəti subyektlərinin təsis olunmasını və fəaliyyəti ilə bağlı münasibətlərin hüquqi nizamlanmasının xüsusi və ümumi metodlarını,davranış normavə qaydalarının vəhdəti təşkil edir.Biznes qanunları biznes sahiblərinin qanun çərçivəsində fəaliyyət göstərmələrini və bizneslərini qorumalarını təmin etmək üçün müəyyən edilmiş qaydalardır. Biznes qanunları iş dünyası kimi qarışıq və çox vaxt təhlükəli olan bir mühitdə sabitliyi təmin edən,biznes əməliyyatlarının ədalətli həyata keçirilməsini təmin edən təlimatlar toplusudur.Bu qanunlar müvəffəqiyyətli bir iş idarə etməyin vacib hissəsidir.

Hüquq sahəsində hüquqi tənzimləmənin metodu-həmin hüquq sahəsi ilə tənzimlənən münasibətlərə təsir göstərən üsul və vasitələrin məcmusudur.Biznes hüququnun da daxil olduğu mürəkkəb hüquq sahələrində adətən hüquqi tənzimləmənin bir deyil,bir neçə metodların birləşməsindən istifadə olunur.

Biznes hüquq münasibətlərinin subyektləri bərabər və tabeçilik münasibətlərində ola bilərlər.Sahibkarlar arasında olan üfüqi münasibətlər və sahibkarla dövlət arasında olan şaquli münasibətlər bir-birindən fərqlənir.Biznes hüququnun predmentinə həm üfüqü münasibətlər həm də şaquli münasibətlər aiddir.

Biznes hüququnda eynilə sahibkarlıq və kommersiya hüququnda istifadə olunan əsas hüquqi nizamasalma metodu-razılaşdırma metodudur.Dövlət tənzimlənməsi prosesində isə məcburi göstərişlər metodu da tətbiq edilir.Biznes hüquq münasibətlərinin tənzimlənməsi üçün tövsiyyə metodundan istifadə edilə bilər.

Biznes hüququ sahibkarlıq münasibətlərini və onlarla çox bağlı olan qeyrikommersiya münasibətlərini tənzim edir.

8. Sxematik təsvir etməklə, qanunvericilik sisteminin AR Konstitusiyasının 148-ci maddəsinə əsasən ierarxik məzmununu izah edin.(5bal)

AR Konstitusyasının 148-ci maddəsinə görə qanunvericilik sistemi aşağıdakı aktlardan ibarətdir.

1.Konstitusiya 2.Referendumla qəbul edilmiş aktlar 3.Qanunlar 4.Fərmanlar 5.AR Nazirlər Kabnetinin qərarları 6.Mərkəzi icra hakimiyyəti orqanlarnın normativ aktları

9. Biznes hüquq münasibətlərinin subyekti kimi fiziki şəxslərin hüquq subyektliyi nədə ifadə olunur?(10bal)

Mülki hüquqla tənzimlənən ictimai münasibətlərin əsas iştirakçılarından biri, yəni biznes hüquq münasibətlərinin subyektlərindən biri fiziki şəxslərdir. **Fiziki şəxs psixoloji-bioloji (fizioloji) varlıq, yəni insan kateqoriyasından olan subyekti ifadə etmək üçün işlədilən termindir. «Fiziki şəxs» kateqoriyası özündə «vətəndaş», «xarici dövlət vətəndaşı» və «vətəndaşlığı olmayan şəxs» kimi üç cür anlayışı birləşdirir və əhatə edir.** MM-in 24-cü maddəsinin 1-ci bəndi fiziki şəxsin leqal anlayışını formulə edir. **Fiziki şəxs hüquq münasibətlərində öz adından iştirak edən insan fərdidir**.

Hüquq subyektliyi - şəxsin hüquq münasibətlərinin iştirakçısı olması üçün onun sosial-hüquqi imkanında ifadə olunur. Hüquq subyektliyi, hüquq qabiliyyəti və fəaliyyət qabiliyyətinin məcmusundan ibatərdir. **Hüquq qabiliyyəti dedikdə, fiziki şəxsin mülki hüquqlara malik olmaq və mülki-hüquqi vəzifələr daşımaq qabiliyyəti başa düşülür.** Hüquq qabiliyyəti fiziki şəxsin anadangəlmə təbii keyfiyyəti deyildir. O, fiziki şəxsə təbiət tərəfindən anadangəlmə verilmir . Bu imkan ona dövlət tərəfindən hüquq əsasında, mülki hüquq normaları vasitəsi ilə verilir və o, ayrılmaz və özgəninkiləşdirilməz xarakterə malikdir. Hüquq qabiliyyəti fiziki şəxs doguldugu an əmələ gəlir, öldüyü an xitam olunur. Mülki hüquq qabiliyyəti bərabərlik prinsipinə əsaslanır. Bu prinsipə görə, bütün fiziki şəxslərin hüquqlara malik olmaq və vəzifələr daşımaq imkanı eynidir və hüquq qabiliyyətinin dərəcəsinə görə müxtəlif qruplara bölünmürlər.

Mülki qanunvericilikdə hüquq qabiliyyətinin məzmununa daxil olan mülki hüquq və vəzifələrin təxmini siyahısını verilir.Bu, onunla izah edilir ki, bazar münasibətləri əsasında iqtisadi dövriyyənin və əmtəə-pul əlaqələrinin inkişafı şəraitidə mülki hüquqla tənzimlənən ictimai münasibətlərin əhatə dairəsi durmadan dinamik surətdə genişlənir və artır; bu münasibətlər, sözsöz, inkişaf edir.

Fiziki şəxslərin mülki hüquq qabiliyyətinə daxil olan əmlak və şəxsi qeyriəmlak hüquqları Konstitusiyada nəzərdə tutulmuşdur. Konstitusiya əsasən beynəlxalqhüquqi sənədlərdə göstərilən mülki hüquqları təsbit edir. Yəni, «Insan hüquqlarının ümumi Bəyannaməsi», «Mülki və siyasi hüquqlar barədə Beynəlxalq pakt", «Uşaq hüquqları barədə Konvensiya» və s.

10. Hüquqi şəxslərin qanunvericiliklə müəyyən edilmiş, lazımi və zəruri əlamətləri haqqında bəhs edin.(10bal)

1. **Təşkilati vahidlik**

Təşkilati vahidlik qurumun qarşıya qoyulan məqsədə çatması üçün idarə orqanlarına, lazım gəldikdə isə müvafiq bölmələrə malik olmasında ifadə edilən daxili strukturu (quruluşu) deməkdir. Təşkilati vahidlik qurumun bütün üzvlərinin (iştirakçılarının) fəaliyyətini eyni bir məqsəd ətrafında birləşməyə imkan verir. Onun vasitəsi ilə qurumun çoxsaylı iştirakçılarının işi tək bircə subyektin — qurumun özünün fəaliyyətinə çevrilir.

2. **Ayrıca əmlakıolma**

Təşkilati vahidlik çoxlu şəxslərin vahid bir kollektiv halında birləşməsi üçün vacibdirsə, onda əmlak ayrılığı da bu birliyin fəaliyyətinin maddi bazasını əmələ gətirir. Hər hansı bir təşkilat özünün maddi bazasına - torpaq sahələrinə, texniki predmetlərə, daşınar obyektlərə, pul vəsaitlərinə və s. malik olmadan fəaliyyət göstərə bilməz. Bütün bunlar kompleks halında hüquqi şəxsin xüsusi əmlakını təşkil edir və onu digər şəxslərdən fərqləndirir.

3. **Müstəqil surətdə mülki (əmlak) dövriyyədə öz adından çıxış etməsi** Müstəqil surətdə mülki (əmlak) dövriyyədə öz adından çıxış etmək əlaməti dedikdə, qurumun sərbəst olaraq, heç kəsdən asılı olmadan qanunun yol verdiyi bütün mülki hüquq münasibətlərində iştirak etmək imkanı və qabiliyyəti başa düşülür. Qurum öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq hüququna, habelə əmlakı ilə öz öhdəlikləri üçün cavabdeh olmaq imkanına malik olduqda hüquqi şəxs kimi tanınır

4. **Məhkəmda iddiaçı və ya cavabdeh olmaq imkanı**

Hüquqi şəxs statusu olmayan qurumlar məhkəmədə iddiaçı və ya cavabdeh qismində iştirak edə bilməzlər.

5. **Müstəqil əmlak məsuliyyəti**

Hüquqi şəxsin əmlakının mülkiyyətçiləri və yaxud iştirakçıları onun öhdəliklərinə görə cavab vermirlər, eyni zamanda hüquqi şəxslər də onların öhdəliklərinə görə məsuliyyət daşımırlar. Hər hansı bir hüquqi şəxs öz öhdəliklərinə görə müstəqil surətdə mülki-hüquqi məsuliyyət daşıyır. Hüquqi şəxsin kreditorları öhdəlikdən yaranan tələblə yalnız həmin hüquqi şəxsə müraciət edə bilərlər. Bu tələbə görə çərimə, qanun-vericiliklə müəyyən edilmiş qaydada yalnız hüquqi şəxsin əmlakından alına bilər.

Hüquqi şəxslər fiziki şəxslər kimi hüquq və fəaliyyət qabiliyyətinə malikdir. Hüquqi şəxslərin hüquq qabiliyyəti onların mülki hüquqlara malik olmaq və huquqi vəzifələr daşımaq qabiliyyətidir. Hüquqi şəxsin fəaliyyət qabiliyyəti onun öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək və ya həyata keçirmək, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək qabiliyyətidir. Fəaliyyət qabiliyyəti qanunla hüquqi şəxsə verilmiş elə bir hüquqi imkandır ki, o, bu imkandan istifadə etməklə öz hərəkətləri ilə hüquq qabiliyyətini realizə edir.

Bildiyimiz kimi, fiziki şəxsin mülki hüquq və tam fəaliyyət qabiliyyəti eyni vaxtda əmələ gəlmir. Hüquqi şəxsin mülki hüquq və fəaliyyət qabiliyyəti isə bundan fərqli olaraq, hüquqi şəxsin özünün yaranması ilə eyni vaxtda və zamanda əmələ gəlir. Hüquqi şəxsin həm hüquq qabiliyyətinə, həm də fəaliyyət qabiliyyətinə onun ləğvinin başa çatdığı an eyni vaxtda xitam verilir.

11. Hüquqi şəxslərin dövlət qeydiyyatının məqsədləri.(5bal)

Dövlət qeydiyyatı vacib və mühüm hüquqi əhəmiyyəti olan mərhələdir. Hüquqi şəxsin yaradılması prosesinin başa çatması məhz bu mərhələ ilə bağlıdır. Belə ki, dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs yaradılmış hesab edilir, mülki hüquq və fəaliyyət qabiliyyətinə malik olur.

Məqsəd ölkədə sahibkarlığın inkişafını sürətləndirmək, əlverişli biznes mühitini daha da artırmaq və biznesə başlama qaydalarını sadələşdirməkdən ibarətdir.

12.Hüquqi şəxslərin növləri.(5bal)

1. Mülkiyyətin formasına görə hüquqi şəxslərin hüquqi şəxslərin dörd növü fərqləndirilir:

- dövlət hüquqi şəxsləri
- bələdiyyə hüquqi şəxsləri;
- qeyri-dövlət (xüsusi) hüquqi şəxsləri;

- qarışıq hüquqi şəxslər.

2. Yaradılma qaydası kimi əsasa (meyara) görə hüquqi şəxslər iki növə bölünür:

- qabaqcadan icazə alınmaqla yaradılan hüquqi şəxslbölünü
- qabaqcadan icazə alınmadan normativ qaydada yaradılan hüquqi şəxslər

3. Təsisçilərin tərkibi kimi əlamətə (meyara) görə hüquqi şəxslər bölünür:

- təsisçiləri yalnız hüquqi şəxslər ola bilən hüquqi şəxslərə (məsələn, hüquqi şəxsin ittifaqları);
- təsisçisi yalnız dövlət ola bilən hüquqi şəxslərə (məsələn, dövlət müəssisələri);
- təsisçiləri, bəzi istisnalarla, hüququn istənilən subyekti ola bilən hüquqi şəxslərə (məsələn, kooperativ, səhmdar cəmiyyəti, fond, ümumiyyətlə, yerdə qalan bütün hüquqi şəxslər).

4. İştirakçıların (təsisçilərin) malik olduqları hüququn xarakterinə görə hüquqi şəxslərin üç növü fərqləndirilir:

- təsisçilərinin (iştirakçılarının) öhdəlik hüququna malik olduqlan hüquqi şəxslər:

« təsisçilərin (iştirakçıların) əmlak barəsində əşya hüququna (mülkiyyət hüququna və məhdud əşya hüququna) malik olduqları hüquqi şəxslər;

- təsisçilərin (iştirakçıların) əmlak hüququna malik olmadığı hüquqi şəxslər.

5. Təsisçilərin (iştirakçıların) şəxsi əmək və kapitallarının iştirak və ya üstün iştirak dərəcəsinə görə hüquqi şəxslər iki növə bölünür:

- təsərrüfat ortaqlıqlarına;
- təsərrüfat cəmiyyətlərinə.

6.Təşkilati-hüquqi formasına görə hüquqi şəxslər dörd növə bölünür:

- təsərrüfat ortaqlıqları və cəmiyyətləri formasında hüquqi şəxslər;
- kooperativ formasında hüquqi şəxslər;
- dövlət və bələdiyyə müəssisələri formasında hüquqi şəxslər;
- qeyri-kommersiya təşkilatları — mülkiyyətçi formasında yaradılan hüquqi şəxslər (ictimai və dini təşkilatlar, fondlar, hüquqi şəxsin ittifaqları və s.).

7. Hüquqi şəxslər fəaliyyət məqsədi və xarakteri kimi əsasa

(meyara) görə təsnif edilir. Bu əsasa görə bütün hüquqi şəxslər iki növə bölünür:

- kommersiya təşkilatlarına;
- qeyri-kommersiya təşkilatlarına.

13.Hüquqi şəxslərin yaradılma qaydalarının neçə üsulu fərqləndirilir? Hər üsula uygun xarakterik olan mərhələləri sxematik olaraq izah edin.(10bal)

Hüquqi şəxslər iki üsulla yarıdılır: sərəncamvermə üsulu ilə; könüllü üsulla. dur. Mülki hüquq elmi hüquqi şəxslərin yaradılmasının tarixən ənənəvi üç üsulunu fərqləndirir. Beləliklə, hüquqi şəxslərin yaradılmasının əsasən üç üsulu vardır. Onlara hüquqi şəxslərin yaradılması qaydaları da deyilir:

- sərəncamvermə üsulu (qaydası);
- icazəvermə üsulu (qaydası);
- qabaqcadan icazə almadan normativ üsul (təqdimedici normativ üsul) Sərəncamvermə üsulu üçün üç əsas mərhələ xarakterikdir:

1) təsisçi (mülkiyyətçi və ya səlahiyyətli orqan) tərəfindən təşəbbüs (sərəncam) aktının verilməsi;

2) təşkilati iş (kadrların seçilməsi, vəsait ayrılması və s.); 3) təsis sənədlərinin (nizamnamənin) təsdiq edilməsi.

Icazəvermə üsulu dörd əsas mərhələdən ibarətdir:

1) təsisçinin təşəbbüs aktı;

2) səlahiyyətli orqanın icazə aktı;

3) təşkilati iş;

4) təsis sənədinin (nizamnamənin) qeydiyyata alınması.

Normativ üsulla hüquqi şəxsin yaradılması bir neçə mərhələni əhatə edir:

1) təsisçilərin təşəbbüs aktı;

2) təşkilati iş;

3) səlahiyyətli orqanın yoxlama (nəzarət) işi.

14.Hüquqi şəxslərin ləgvi prosesi hansı mərhələlərdən ibarətdir? İflas prosesinin mahiyyəti nədə ifadə olunur?(20bal)

Şirkətin ləğv edilmə prosesini üç mərhələ ayırmaq olar:

1-ci mərhələ - şirkətin ləğv olunması barədə məlumatın elan edilməsi; “ MM-nin 103.5-ci maddosi MM-nin 60.2-ci maddəsi MM-nin 59.6-cı maddəsi

2- ci mərhələ - aralıq ləğvetmə balansının tərtib edilməsi;

3- cü mərhələ - ləğvetmə prosesinin başa çatması (ləğvetmə balansının tərtib edilməsi).

Ləğvetmə prosesinin birinci mərhələsində ləğvetmə komissiyası şirkətin ləğvi haqqında mətbuat orqanlarında məlumat yerləşdirməlidir. Kreditorların tələblərinin ləğv olunan şirkətə təqdim edilməsi məqsədilə bu xəbər aşağıdakı məlumatlardan ibarət olmalıdır: - hüquqi şəxsin bütöv adı;

- hüquqi şəxsin yerləşdiyi yer;

- ləğvetmə haqda qərar qəbul edən orqanın adı;

- ləğv olunan hüquqi şəxsin VÖEN-i;

- kreditorların ərizə tələblərinin qayda və müddəti; - ləğvetmə komissiyası ilə əlaqə vasitələri.

Eyni zamanda ləğvetmə komissiyası bütün kreditorları yazılı şəkildə xəbərdar etməlidir və tələblərin təqdim edilmə müddəti şirkətin ləğvi haqqında məlumatın verildiyi gündən etibarən ən azı iki ay olmalıdır. Bu mərhələdə komissiya kreditorları aşkarlamalı və ləğvetmə barədə məlumatlandırmalıdır, eləcə də debitor borcların qaytarılması üçün tədbirlər görməli və ləğv edilən şirkətin bütün borclularını müəyyən etməlidir.

Ləğvetmə prosesinin ikinci mərhələsində kreditorların tələbləri üçün müddətin başa çatması zamanı ləğvetmə komissiyası aralıq ləğvetmə balansı tərtib və təsdiq edilir. Həmin balansda ən azı şirkətin hazırkı mülkiyyət vəziyyəti və aşkar edilmiş kreditor və debitor borcları əks olunmalıdır. Aralıq ləğvetmə balansı ilə razı olmayan şirkətin nizamnamə kapitalında azı 10 faiz payına (səhmə) sahib olan iştirakçısı həmin balansı aldığı gündən 7 gün ərzində ümumi yığıncağın çağırılmasını tələb edə bilər. Bu halda aralıq ləğvetmə balansı iştirakçıların (səhmdarların) ümumi yığıncağında təsdiq edilir. Kreditorların qəbul olunmuş bütün tələblərini təmin etmək məqsədilə ləğv olunan şirkətin pul vasitələri kifayət etmədikdə ləğvetmə komissiyası bu şirkətin əmlakının mümkün qısa zamanda səmərəli və sərfəli qiymətə satılmasını həyata keçirir. Komissiya ödəmə barədə tələblərin daxil olduğu növbəlilik qaydasında aralıq ləğvetmə balansı əsasında ləğv edilən şirkətin kreditorlarına ödənişləri həyata keçirir.

Ləğvetmə prosesinin üçüncü mərhələsində kreditorlarla hesablaşmadan sonra komissiya ləğvetmə balansı tərtib edir və bu da iştirakçıların (səhmdarların) ümumi yığıncağında təsdiq edilir. Kreditorlarla hesablaşmadan sonra şirkətdə qalan əmlak ləğvetmə komissiyası tərəfindən iştirakçıların arasında
müəyyənləşdirilmiş qayda ilə bölünür. MM-in 61.12-ci maddəsinə əsasən hüquqi şəxsin ləğv olunması haqqında qeyd dövlət reyestrinə daxil edildiyi andan hüquqi şəxsin ləğv olunma prosesi bitmiş hesab edilir.

İFLAS PROSESİNİN MAHİYYƏTİ

İflas prosesi , iflas haqqında işə baxılması və onun həlli üzrə elə bir fəaliyyətdir ki, bu fəaliyyət qanunla müəyyənləşdirilmiş xüsusi prosessual qaydada həyata keçirilir və ödəmə qabiliyyəti olmayan hüquqi şəxsin müflis elan edilməklə ləğvinə yönəlir. İflas

prosesi iflas haqqında qaldırılmış iş üzrə icraat deməkdir. Onun əsas məqsədi ödəmə qabiliyyəti olmayan hüquqi şəxsin borclarının ödənişini münasib qaydada tənzimləməkdən, kreditorların tələblərini maksimum təmin etməkdən, bu şəxsi borclardan azad etməkdən və ona yenidən sahibkarlıq və təsərrüfat fəaliyyəti ilə məşğul olmağa imkan verməkdən ibarətdir.

15.Hüquqi şəxsin yenidən təşkili.(20bal)

Yenidən təşkil xüsusi hüquqi prosesdir, bu prosesə hüquqi şəxsin təsisi və eyni zamanda ləğv edilməsi məxsusdur. Şirkət yalnız təsis olunma yolu ilə deyil, həmçinin mövcud olan hüquqi şəxsin yenidən təşkil edilməsi ilə yaradıla bilər. Bu iki üsulun fərqi ondan ibarətdir ki, yenidən təşkil nəticəsində yaranan şirkətə özündən əvvəlki mövcud olan şirkətin (şirkətlərin) hüquq və öhdəlikləri ötürülür. Bununla yanaşı, yenidən təşkil prosesində bir çox hallarda hüquqi şəxsin fəaliyyətinin bitməsi baş verir, bu da onu ləğv olunmaya oxşar edir. Lakin ləğv etmə zamanı ləğv olunan təşkilatın hüquq və öhdəlikləri yenidən təşkil prosesindən fərqli olaraq, digər şəxslərə keçmir. Qanunvericiliyə əsasən yenidən təşkilin beş növü vardı.

- Birləşmə - iki və ya daha çox şirkətin fəaliyyətinin bitirilməsi və onların hüquq və öhdəliklərinin ötürülməsi ilə yeni şirkətin yaranması.

-Qoşulma - bir və ya daha çox şirkətin fəaliyyətinin bitirilməsi və onlardan birinin (və ya daha çoxunun) hüquq və öhdəliklərinin digər şirkətə ötürülməsi.

- Bölünmə - şirkətin bütün hüquq və öhdəliklərinin yeni yaradılan şirkətlərə ötürülməsi ilə fəaliyyətini dayandırması.

-Ayrılma - fəaliyyətini dayandırmadan hüquq və öhdəliklərinin bir hissəsinin ötürülməsi ilə bir və ya bir neçə şirkətin yaradılması

- Çevrilmə - şirkətin təşkilati-hüquqi formasının dəyişdirilməsi. Azərbaycanda yenidən təşkil prosesi bir neçə qanunvericilik aktının tələbinə əsasən həyata keçirilir

Şirkətlərin yenidən təşkili könüllü və məcburi qaydada aparıla bilər. Şirkətlərin könüllü yenidən təşkilinin bəzi səbəbləri var.

1.Şirkətin idarəetməsinin effektivliyini artırmaq

2.Yeni aktivlərin əldə edilməsi.

3.Daha yaxşı nəticələr əldə olunması üçün şirkətlərin aktivlərinin birləşdirilməsi

4.Şirkətlərin investisiya cəlbediciliyinin yüksəldilməsi.

Qoşulma

Qoşulma bir və ya bir neçə şirkətin hüquq və öhdəliklərini digər şirkətə ötürərək fəaliyyətlərini dayandırması nəzərdə tutulur. Qoşulan şirkətlər faktiki olaraq, öz müstəqilliklərini itirərək könüllü şəkildə başqa şirkətin tərkibinə daxil olurlar. Şirkətlərin birləşmə və qoşulma formasında yenidən təşkil prosesi aşağıdakı mərhələlərdən ibarətdir.

1. Birləşmə (qoşulma) haqqında müqavilə imzalanması. birləşmə (qoşulma) haqqında müqaviləyə aşağıdakı məlumatlar daxil olmalıdır:

1) birləşmədə (qoşulmada) iştirak edən hər bir şirkətin adı, yerləşdiyi yer, eləcə dəbirləşmə formasında yenidən təşkil yolu ilə yaranan şirkət haqqında məlumatlar;

2) birləşmənin (qoşulmanın) qayda və şərtləri;

3) birləşmədə (qoşulmada) iştirak edən hər bir şirkətin səhmlərinin (paylarının) yaradılacaq şirkətin səhmlərinə (paylarına) konvertasiya qaydası və konvertasiya nisbəti

4) birləşmədə iştirak edən hər bir şirkət tərəfindən yeni yaradılan şirkətin direktorlar şurasına seçilən üzvlərinin sayının göstərilməsi;

5) təftiş (audit) komissiyasının üzvlərinin siyahısı;

6) əgər hüquqi varis şirkətin nizamnaməsində kollegial icra orqanının olması nəzərdə tutulubsa, həmin kollegial icra orqanının üzvlərinin siyahısı;

7) hüquqi varis şirkətin təkbaşçı icra orqanının funksiyalarını yerinə yetirən şəxs haqqında göstərişi və sair.

2. Yenidən təşkildə iştirak edən şirkətlərin direktorlar şurasının iclası (əgər varsa).

Yenidən təşkil prosesi zaman prosesdə iştirak edən şirkətlərin direktorlar şuraları aşağıdakı hərəkətləri həyata keçirməlidir

a) iştirakçılarln növbədənkənar ümumi yığıncağını çağırmaq;

b) yığıncağın gündəliyini təsdiq edib, aşağıdakı məsələləri daxil etmək: - birləşmə (qoşulma) formasında aparılan yenidən təşkil haqqında; - birləşmə müqaviləsinin şərtləri və yaradılan şirkətin idarəetmə orqanlarına üzvlərin seçilməsi haqqında.

3. Yenidən təşkil olunan şirkətlərinin iştirakçılarının ümumi yığıncağının keçirilməsi.

4. Dövlət qeydiyyat proseduralarının həyata keçirilməsi.

BİRLƏŞMƏ

Birləşmədə (qoşulmada) iştirak edən hər bir şirkətin səhmdarlarının ümumi yığıncağı bu şirkətin birləşmə (qoşulma) formasında yenidən təşkili haqqında məsələ ilə bağlı qərar qəbul edir ki, bura da aşağıdakılar daxildir:

- birləşmədə (qoşulmada) iştirak edən şirkətin qoşulma haqqında müqaviləsinin və təslim aktının təsdiq olunması;
- birləşmə (qoşulma) formasında yenidən təşkildən sonra hüquqi varis şirkətin nizamnaməsinin təsdiq olunması;
- direktorlar şurası üzvlərinin seçilməsi ilə bağlı məsələ haqqında qərar qəbul edilməsi.

Bölünmə və ayrılma

Bölünmə dedikdə, şirkətin hüquq və öhdəliklərinin onun bazasında yaradılan yeni şirkətlərə ötürülməsi ilə fəaliyyətinin dayandırılması başa düşülür. Yəni bir şirkətin bazasında bir neçə yeni şirkət yaradılır.Ayrılmada isə şirkətin öz fəaliyyətini dayandırmadan hüquq və öhdəliklərinin bir hissəsini yeni yaradılan bir və ya bir neçə şirkətə ötürməsi nəzərdə tutulur.Bu halda yeni şirkətin yaradılmasına baxmayaraq, əvvəlki şirkət öz fəaliyyətini dayandırmır.Birləşmə və qoşulma formasında olduğu kimi, bölünmə və ayrılma formasında da həyata keçirilən yenidən təşkil eyni mərhələlərdən ibarətdir. Bölünmə formasında hüquqi şəxsin yenidən təşkili yeni yaradılan şirkətlərin dövlət qeydiyyatı anından tamamlanmış hesab olunur və bölünən şirkət ləğv edilir.Ayrılma formasında yenidən təşkil yeni yaradılan şirkətin dövlət qeydiyyatı anından tamamlanmış hesab olunur.

Çevrilmə

Çevrilmə şirkətin bir təşkilati-hüquqi formadan başqa formaya keçidini reallaşdıran

yenidən təşkil prosesidir. Yuxarıda olduğu kimi, çevrilmə formasında yenidən təşkil
prosesi eyni mərhələlərlə həyata keçirilir

16.HÜQUQİ ŞƏXSİN TƏSİS SƏNƏDLƏRİ.(5bal)

Təsis sənədləri dedikdə, hüquqi şəxsin fəaliyyətinin hüquqi əsası (bazası) başa düşülür. Bu sənədlərdə təsisçilər ümumi hüquq normalarını konkretləşdirirlər.

Təsis sənədinin bir neçə hüquqi əlaməti vardır. Həmin əlamətlərə aiddir:

• təsis sənədi hüquqi şəxsin həyata keçirdiyi fəaliyyətin hüquqi bazasıdır;

• təsis sənədi hüquqi şəxsin dövlət qeydiyyatına alınması üçün qeydiyyat orqanına təqdim edilir;

• təsis sənədi hüquqi şəxsin yaradılmasının, mövcud olmasının və fəaliyyət göstərməsinin əsasıdır;

• təsis sənədi hüquqi şəxs üçün hüquq və vəzifələr yaradır.

Hər hansı bir sənəd bu əlamətlərə cavab verərsə, təsis sənədi hesab edilir.

Nizamnamə

Təşkilatın əsas təsis sənədi nizamnamədir. İş ortaqlığı istisna olmaqla, bütün hüquqi şəxslər buna sahib olmalıdırlar.Qanunvericilik nizamnamə anlayışını müəyyənləşdirmir. Bununla birlikdə, hüquq normalarının məzmununa əsasən onun xüsusiyyətləri verilə bilər.

Nizamnamə aşağıdakı xüsusiyyətlərə malikdir:

• Sənədli forma. Nizamnamə kağız üzərində saxlanılır və onu qəbul etməyə səlahiyyətli şəxslərin imzaları olmalıdır.

• Xüsusi qəbul qaydası. Nizamnamə təsisçilərin ümumi yığıncağı tərəfindən yekdilliklə təsdiq edilir.

- Onun məzmunu qanunun bütün tələblərini nəzərə almalıdır. Sənədin hazırlanması diqqətlə aparılmalıdır. Məzmun tələbləri yerinə yetirilmədikdə, dövlət qeydiyyatı aparılmayacaq.
- Nizamnamə iştirakçıların (səhmdarların), habelə hüquqi şəxsin orqanları və vəzifəli şəxslərinin münasibətlərini tənzimləmək funksiyasını yerinə yetirir. Aralarında münaqişə vəziyyətləri yaranarsa, bu sənəd əslində mahiyyətli hüquq funksiyasını yerinə yetirir və mübahisələrin həllində məhkəmələr tərəfindən tətbiq edilir. Bu, vəzifəli şəxslərin əməliyyatlarla bağlı səlahiyyətlərini də müəyyənləşdirir.
- Qanuna görə, nizamnamə, eləcə də ona edilən hər hansı bir dəyişiklik qeydə alınmalıdır. Bu şərtə əməl edilməməsi sənədin etibarsızlığına səbəb olur. Qəbul edilmiş dəyişiklik qeydə alınmadığı təqdirdə üçüncü şəxslərə şamil olunmayacaq. İstisnalar, üçüncü şəxsin dəyişikliklərə məruz qaldığı vəziyyətlərdir.

Nizamnamə hüquqi şəxsin həyata keçirdiyi fəaliyyətin hüquqi bazası və əsasıdır.

Burada nəzərdə tutulur;

- hüquqi şəxsin adı;
- hüquqi şəxsin olduğu yer;
- hüquqi şəxsin fəaliyyət predmeti və məqsədləri;
- hüquqi şəxsin həyata keçirdiyi fəaliyyətin idarə edilməsi qaydası;
- hüquqi şəxsin ləğvi qaydası;
- digər məlumatlar.

Bu sənədin konsepsiyası əlamətlərlə müəyyən edilə bilər. Hüquqi şəxsin nizamnaməsi, təsisçilər tərəfindən yekdilliklə qəbul edilmiş, səlahiyyətli dövlət orqanı

tərəfindən qeydə alınmış, orqanları və vəzifəli şəxsləri arasında qarşılıqlı
fəaliyyətin əsasını tənzimləyən, habelə qanunla müəyyən edilmiş bütün tələbləri nəzərə alaraq

üçüncü tərəflərlə əməliyyat bağlamaq prosedurunun əsasını qoyan qaydalar toplusudur.

Əsasnamələrin növləri Bu sənədlər 2 növdür:

təsisçilər tərəfindən müstəqil həyata keçirilən hazırlıq;

tipik.

Birinci növ sənədlərin çoxunu əhatə edir.

Model nizamnamələrindən onun forması və məzmunu bir dövlət qurumu tərəfindən təsdiqləndiyi hallarda istifadə edilə bilər. Ayrıca, bu cür sənədlər müəyyən məqsədlər üçün təşkilatlar yaratdıqları təqdirdə təsisçilər tərəfindən təsdiqlənə bilər.Standart nizamnamənin istifadəsi barədə məlumat müvafiq məlumatların Hüquqi şəxslərin vahid dövlət reyestrinə daxil edilməsini nəzərdə tutur.Sənəddə aşağıdakı məlumatlar olmalıdır:

- Təşkilatın adı və onun təşkilati-hüquqi forması haqqında məlumat. Sənədin hazırlanması həm tam, həm də qısaldılmış adların daxil edilməsini əhatə edir.

- Yer haqqında məlumat. Əvvəllər bu ünvana eynidirsə, son dəyişikliklərdən sonra yerin göstərilməsi kifayətdir. Bu nizamnamədə lazımsız düzəlişlərin edilməməsi üçün edilir. İndi bir yaşayış yerində ünvanı dəyişdirmək yalnız müvafiq şəxslərin vahid dövlət reyestrinə daxil olmaq üçün ərizə yazmağı tələb edir.

- Hüquqi şəxsin idarə edilməsi qaydası haqqında məlumat. Bu, onun orqanları və yerinə yetirdiyi funksiyalar deməkdir.

- Qeyri-kommersiya təşkilatları, eləcə də bələdiyyə unitar müəssisələri və dövlət unitar müəssisələri haqqında danışırıqsa, nizamnamədə onların məqsədləri və fəaliyyət sahələri haqqında məlumatlar əks olunur. Bu cür tələblər kommersiya təşkilatlarına şamil edilmir. Bununla birlikdə, müəyyən sahələrdə qanunvericilik bu məlumatların məcburi daxil olmasını təmin edir. Bu hallara bank və sığorta fəaliyyəti daxildir.

17. HÜQUQİ ŞƏXSİN NÜMAYƏNDƏLİYİ VƏ FİLALI Hüquqi şəxsin nümayəndəliyi.(5bal)

Ümumi qaydaya görə, hüquqi şəxslər, adətən, olduqları yerdə fəaliyyət göstərirlər.

Hüquqi şəxslərin oldugu yer onun daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerlə müəyyən edilir. Çox vaxt hüquqi şəxsin fəaliyyət göstərməsi ərazi cəhətdən məhz bu yerlə məhdudlaşır, yəni hüquqi şəxs oldugu yerdə fəaliyyət göstərir. Lakin bununla bərabər, bəzən hüquqi şəxsin oldugu yerdən ərazi baxımından kənarda, yəni başqa yerdə və məkanda (şəhərdə, respublikada və s.) onun mənafelərini təmsil və müdafiə etməyə, əqdlər bağlamaga, hüquqi hərəkətlər etməyə, habelə hüquqi şəxsin funksiyalarının hamısını və ya bir hissəsini həyata keçirməyə zərurət yaranır. Söhbət hüquqi şəxsin hərəkət və fəaliyyət sferasının genişləndirilməsindən gedir. Məsələn, Bakı şəhərində fəaliyyət göstərən firmanın buraxdığı və istehsal etdiyi malları Gəncə şəhərində satmaq üçün ayrı-ayrı ticarət şəbəkələri ilə alqı-satqı müqaviləsi bağlamaq zərurəti əmələ gəlir və s. Belə hallarda hüquqi şəxs özünün oldugu yerdən kənarda xüsusi xarakterli bölmələrini yaradır. Həmin bölmələrə aiddir: ● hüquqi şəxsin nümayəndəlikləri; ● hüquqi şəxsin filialları.

Həm hüquqi şəxsin nümayəndəliyi, həm də filialı hüquqi şəxsin başqa ərazidə və məkanda yerləşən ayrıca struktur bölmələridir. Bu, o deməkdir ki, həmin bölmələr hüquqi şəxsin təşkilati strukturuna onun bir elementi (tərkib hissəsi) kimi daxildir. Hüquqi şəxsin təşkilati strukturunun digər elementlərindən (tərkib hissələrindən) nümayəndəlik və filiallar onunla fərqlənirlər ki, onlar hüquqi şəxsin olduüu yerdən kənarda fəaliyyət göstərirlər. Deməli, nümayəndəlik və filial onları yaradan hüquqi şəxsin təşkilati struktur hissəsidir.

Nümayəndəlik dedikdə, hüquqi şəxsin oldugu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən xüsusi bölməsi başa düşülür (MMun 53.1-ci bəndi). O, müxtəlif funksiyalar yerinə yetirir. Nümayəndəlik onu yaradan hüquqi şəxs adından əqdlər və müqavilələr bağlayır, müxtəlif hüquqi hərəkətlər edir, hüquqi şəxsin maraq və mənafelərini müdafiə edir. Onun fəaliyyət predmetinə həm də faktiki xarakterli və digər hərəkətləri etmək də daxildir. Məsələn, nümayəndəlik onu yaradan hüquqi şəxsi və onun buraxdığı məhsulları reklam edə, bağladığı əqdləri və müqavilələri icra edə və ya onların icra olunmasına nəzarət edə bilər. Lakin nümayəndəlik onu yaradan hüquqi şəxsin həyata keçirdiyi istehsal və ya digər təsərrüfat fəaliyyəti ilə məşgul ola bilməz. Buna onun ixtiyarı çatmır.

Nümayəndəlik hüquqi şəxsin özü tərəfindən yaradılır və ləğv edilir.
Nümayəndəliyin həyata keçirdiyi fəaliyyətin hüquqi əsasını onun əsasnaməsi təşkil edir. O, bunun əsasında fəaliyyət göstərir. Əsasnamə nümayəndəliyin hüquqi vəziyyətini müəyyən edən sənəddir. Bu sənədi hüquqi şəxs təsdiq edir. Nümayəndəlik hüquqi cəhətdən müstəqil deyildir. Onun hüquqi şəxs statusu yoxdur, hüquqi şəxsin hüquqlarına malik deyil, yəni nümayəndəlik hüquqi şəxs hesab olunmur. Buna görə də nümayəndəlik subyekt qismində mülki (əmlak) dövriyyədə öz adından çıxış edə bilmir. Onun hüquqi qabiliyyəti, bir sözlə, hüquq subyektliyi yoxdur. Vəziyyətdən çıxış yolu hüquqi şəxs tərəfindən nümayəndəliyin rəhbərinə

(o, hüquqi şəxs tərəfindən təyin edilir) etibarnamə verilməsindən ibarətdir. Nümayəndənin rəhbəri olan fiziki şəxs isə tam mülki fəaliyyət qabiliyyətinə malik oldugu üçün hüququn subyekti qismində üçüncü şəxslərlə hüquq münasibətinə daxil ola bilər. Belə halda hüquqi nəticə, yəni mülki üquq və vəzifələr nümayəndəlik və onun rəhbəri üçün yox, hüquqi şəxs üçün əmələ gəlir. Yalnız dövlət qeydiyyatına alındıqdan sonra xarici hüquqi şəxsin Azərbaycan Respublikasının ərazisində yaratdıqları xüsusi (ayrıca) bölməsi nümayəndəlik statusu əldə edir. Dövlət qeydiyyatı orqanında aparılan dövlət reyestrinə daxil edildiyi andan nümayəndəlik yaradılmış hesab edilir. Nümayəndəliyin dövlət qeydiyyatına alınması qaydası və təşkilati-hüquqi əsasları xüsusi qanunla müəyyən edilir. Nümayəndəliyə dövlət qeydiyyatı orqanı tərəfindən dövlət qeydiyyatı haqqında şəhadətnamə verilir. Nümayəndəliyin fəaliyyət göstərməsi üçün onun kifayət qədər əmlak bazası olmalıdır. Bu baza hüquqi şəxsin verdiyi əmlak hesabına yaradılır. Həmin əmlakın mülkiyyətçisi nümayəndəlik yox, hüquqi şəxs hesab edilir. Ona görə də nümayəndəliyin fəaliyyəti ilə bağlı olaraq yaranan öhdəliklər (borclar) üçün nümayəndəlik yox, hüquqi şəxsin özü məsuliyyət daşıyır.

Əgər hüquqi şəxsin nümayəndəliyi təsis edilirsə, onda Siz aşağıdakı sənədləri təqdim etməlisiz:

- Baş müəssisənin notariusda təsdiq olunmuş və ya müvafiq ölkədə Azərbaycan Respublikasının səfirliyində leqallaşdırılmış hüquqi şəxsin nizamnaməsi;

- Notariusda təsdiq olunmuş və ya müvafiq ölkədə Azərbaycan
Respublikasının səfirliyində leqallaşdırılmış hüquqi şəxsin qeydiyyat haqqında şahadətnaməsi;

- Notariusda təsdiq olunmuş və ya müvafiq ölkədə Azərbaycan
Respublikasının səfirliyində leqallaşdırılmış hüquqi şəxsin nümayəndəliyinin təsis edilməsi barədə qərar;

- Qeydiyyat üçün lazımı sənədləri imzalamağı, dövlət orqanlarına müraciət etməyi və bununla bağlı bütün hərəkətləri etmək üçün müvəkkil şəxsin adına notariusda təsdiq olunmuş və ya müvafiq ölkədə Azərbaycan Respublikasının səfirliyində leqallaşdırılmış etibarnamə.

Nümayəndəlik kimi filial da hüquqi şəxs tərəfindən yaradılır. Nümayəndəlik kimi filial da dövlət qeydiyyatına alınır və dövlət qeydiyyatı orqanında aparılan dövlət reyestrinə daxil edildiyi andan o, yaradılmış hesab edilir; yalnız xarici hüquqi şəxslərin AR-in ərazisində yaratdıqları filiallar dövlət qeydiyyatına alınır və buna görə də onlara dövlət qeydiyyatı haqqında şəhadətnamə verilir. AR-də dövlət qeydiyyatına alınmış hüquqi şəxslərin filialları isə dövlət reyestrinə daxil edilməlidir; belə filialların dövlət qeydiyyatına alınması tələb edilmir və bu səbəbdən onlara dövlət qeydiyyatı haqqında şəhadətnamə verilmir. Nümayəndəlik kimi

filial da hüquqi şəxs tərəfindən təsdiq edilən əsasnamə əsasında fəaliyyət göstərir. Əsasnamə filialın hüquqi statusunu müəyyənləşdirən və onun həyata keçirdiyi fəaliyyətin hüquqi əsasını təşkil edən başlıca sənəddir.

Nümayəndəlik kimi filial da hüquqi şəxs statusuna malik olmayıb, hüquqi cəhətdən müstəqil deyil. Onun hüquq qabiliyyəti və buna görə də hüquq subyektliyi yoxdur. Məhz bu səbəbdən nümayəndəlik kimi filial da hüquqi şəxs hüquqlarından istifadə edə və mülki dövriyyədə müstəqil olaraq öz adından çıxış edə bilmir. Üçüncü şəxslərlə hüquqi şəxsin adından və onun mənafeyi üçün əqdlər (müqavilələr) bağlamaq və digər hüquqi hərəkətlər etmək üçün filialın rəhbərinin adına (filialın özünə yox) etibarnamə verilir. Nümayəndəliyin rəhbəri kimi filialın da rəhbərini hüquqi şəxsin özü təyin edir. Nümayəndəlikdə oldugu kimi filialın da əmlak bazası hüquqi şəxs tərəfindən verilən əmlak hesabına yaradılır. Bu əmlakın mülkiyyətçisi filial yox, onu yaradan hüquqi şəxs hesab olunur. Buna görə də filialın fəaliyyəti ilə bağlı olaraq yaranan öhdəliklərə (borclara) görə cavabdeh olmaq hüquqi şəxsə həvalə edilir, yəni filialın fəaliyyətinə görə filialın özü yox, onu yaradan hüquqi şəxs mülki-hüquqi məsuliyyət daşıyır Nümayəndəlik kimi filial da onu yaradan hüquqi şəxsin oldugu yerdən kənarda yerləşir. Göstərdiyimiz xüsusiyyətlər nümayəndəliyi və filialı bir-birilə birləşdirən oxşar cəhətlərdir. Bununla belə, onlar həm də fərqli cəhətlərə malikdirlər.

1. Nümayəndəlikdən fərqli olaraq filial hüquqi şəxsin yerinə yetirdiyi funksiyanı həyata keçirir. Söhbət istehsal və digər təsərrüfat fəaliyyəti kimi funksiyalardan gedir. Nümayəndəliyin bu cür funksiya həyata keçirməyə ixtiyarı çatmır. Filial hüquqi şəxsin funksiyalarının hamısını və ya bu funksiyaların yalnız bir hissəsini həyata keçirə bilər. Məsələn, ali təhsil məktəbinin başqa şəhərdə yerləşən filialı bütün ixtisaslar özrə tələbə qəbul edir və tədris-təhsil fəaliyyəti ilə məşüul olur. Beləliklə o, ali təhsil məktəbinin (hüquqi şəxsin) həyata keçirdiyi funksiyanın hamısını yerinə yetirir.

2. Filialın həyata keçirdiyi funksiyanın həcmi nümayəndəliyə nisbətən daha böyükdür. Filialın fəaliyyət predmeti daha geniş və əhatəlidir. Belə ki, filialın funksiyasına daxildir:

- onu yaradan hüquqi şəxsin yerinə yetirdiyi funksiyaların (istehsal, təsərrüfat, təhsil tədris, bank, sığorta və digər funksiyaların) hamısını və ya bir hissəsini həyata keçirmək;

- nümayəndəlik funksiyasını yerinə yetirmək, yəni onu yaradan hüquqi şəxsin adından və onun mənafeyi üçün mülki (əmlak) dövriyyədə çıxış etmək — üçüncü şəxslərlə əqdlər (müqavilələr) bağlamaq və digər hüquqi hərəkətlər etmək. Belə halda hüquqi nəticə, yəni mülki hüquq və vəzifələr filial üçün yox, hüquqi şəxs üçün əmələ gəlir. Beləliklə, filial dedikdə, hüquqi şəxsin olduğu yerdə, kənarda yerləşən elə bir xüsusi (ayrıca) bölməsi başa düşülür ki, bu bölmənin fəaliyyət predmeti hüquqi şəxsin

funksiyalarının hamısını (və ya bir hissəsini), o cümlədən nümayəndəlik funksiyasını həyata keçirməkdən ibarətdir. Filial və nümayəndəliyi nümayəndədən fərqləndirmək lazımdır. Nümayəndə onlardan fərqli olaraq, mülki hüquq qabiliyyətinə və beləliklə, hüquq subyektliyinə malik olub, mülki hüququn subyekti sayılır. Nümayəndə hüquqi cəhətdən müstəqildir. Almaniya sivilistika doktrinasında filiala yardımçı əşya (ləvazimat) kimi baxılır. Belə ki, o, əsas müəssisənin (hüquqi şəxsin) yardımçı əşyasıdır.Əgər hüquqi şəxsin filialı təsis edilirsə, onda bu sənədlər təqdim etməlidir:(Yuxarıdakı sənədlərlə eynidir)

18. KOMANDİT ORTAQLIQ.(10bal)

Kommandit ortaqlığı iki qrup şəxsdən: tam ortaqlardan (bunlar birinci qrup şəxslər hesab edilir), və maya qoyandan (bunlar ikinci qrup şəxslər sayılır) ibarətdir. Bu qrup iştirakçılann hüquqi vəziyyəti müxtəlif olub, bir-birindən fərqlənir. Tam ortaqlar kommandit ortaqlığın elə qrup iştirakçılarıdır ki, bu iştirakçılar ortaqlığın adından sahibkarlıq fəaliyyətini həyata keçirirlər. Onlar kommersiya dövriyyəsinin professional iştirakçılarıdır. Bu sahibkarlara komplementariyalar deyilir.
Kommandit ortaqlığında iştirak edən tam ortaq rolunda yalnız fərdi sahibkarlar və ya kommersiya təşkilatları çıxış edə bilər. Tam ortaqlar ortaqlığın öhdəlikləri üzrə qeyri-məhdud məsuliyyət daşıyırlar. Belə ki, qanun onların üzərində tam ortaqlığın iştirakçıları olan tam ortaqlar kimi analoji məsuliyyət qoymuşdur. Deməli.
kommandit ortaqlığında iştirak edən tam ortaqların bu ortaqlığın öhdəliklərinə
görə kreditorlar qarşısında cavabdehliyi birgə subsidiar məsuliyyətdir. Kommandit ortaqlığında iştirak edən tam ortaqlar hüquqi vəziyyətinə görə tam ortaqlıq iştirakçıları ilə eynidir. Məhz bu səbəbdən onlar, tam ortaqlıq iştirakçıları kimi, kommandit ortaqlığında idarəetməni həyata keçirirlər, onların işlərini aparırlar.Kommandit ortaqlığının ikinci qrup (kateqoriya) iştirakçısı maya qoyanlara payçılar da deyilir. Maya qoyanlar ortaqlığın sahibkarlıq fəaliyyətində bilavasitə iştirak etmir və kommersiya dövriyyəsinin professional subyekti — sahibkar hesab olunmurlar. Bu səbəbdən istənilən fiziki və hüquqi şəxs maya qoyan rolunda çıxış edə bilər. Onlar ortaqlığa kapital (əmlak) — maya qoyurlar ki, ortaqlığın həyata keçirdiyi sahibkarlıq fəaliyyətindən mənfəət götürsünlər. Məhz mənfəət əldə etmək şansı və niyyəti maya qoyanları ortaqlıq iştirakçısı olmağa sövq edir. Amma onlar tam ortaqlardan fərqli olaraq, kommandit ortaqlığın idarə edilməsində və işlərinin aparılmasında iştirak etmirlər. Maya qoyanların ixtiyarı yoxdur ki, etibanaməsiz ortaqlıq adından çıxış etsinlər. Belə təsəvvür yaranır ki. ortaqlığın sahibkarlıq fəaliyyətində bilavasitə iştirak etməyən maya qoyanlar bu fəaliyyəti həyata keçirmək və əmtəə dövriyyəsinə buraxmaq məqsədi ilə öz kapitallarının (əmlakının) bir hissəsini maya kimi tam ortaqlara verir, onlara tapşırır və inanır. Buna görə də maya qoyanlar kommanditçilər, müəssisə isə kommandit ortaqlıqlar adlanır. Kommanditçilər, tam ortaqlardan fərqli olaraq, ortaqlığın öhdəlikləri üzrə mülkihüquqi məsuliyyət daşımırlar. Onlar kommandit ortaqlığın ümumi borclarına görə cavabdeh deyillər.

Kommanditçilər yalnız ortaqlığın fəaliyyəti ilə bağlı zərərə görə qoyduqları mayanın məbləği həddində öz əmlakını risk edirlər. Belə ki. əgər ortaqlıq zərərə düşərsə, kommanditçi qoyduğu mayadan məhrum olur və onu itirir. Beləliklə, kommandit ortaqlığı hüquqi konstruksiyası sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün həm tam ortaqların (sahibkarların), həm də kommanditçilərin (sahibkar olmayanların) əmlakını birləşdirməyə imkan verir. O, özündə şəxslərin birliyi və kapitalların birliyi kimi iki hüquqi konstruksiyanın elementlərini birləşdirir, yəni tam ortaqların birliyini və kommanditçilərin kapitallarının birliyini əhatə edir. Kommandit ortaqlığının firma adı dəqiq gösterilməlidir. Çünki bunun potensial kreditorlar üçün mühüm əhəmiyyəti vardır. Firma adının göstərilməsi üçün iki variantdan istifadə oluna bilər. Birinci varianta görə, kommandit ortaqlığın firma adına bütün tam ortaqların adlan və «kommandit ortaqlığı» sözləri daxil edilir. Məsələn, «Bərəkət». «Təmas» tam ortaqlan və kommandit ortaqlığı».İkinci varianta görə, kommandit ortaqlığının firma adında «və ortaqları» və«kommandit ortaqlığı» sözləri əlavə edilməklə azı bir tam ortağın adı göstərilir. Məsələn. «Əhmədoğlu» tam ortağı və ortaqları kommandit ortaqlıq». Kommandit ortaqlığının firma adına kommanditçinin adı daxil edilmir. Əgər daxil edilərsə, həmin kommanditçi avtomatik olaraq tam ortağa çevrilir. Kommanditçilərin üzərinə qanunvericilik müəyyən vəzifələr qoyur Onların əsas, birinci dərəcəli və başlıca vəzifəsi kommandit ortaqlığa maya kimi kapital (əmlak) qoymaqdan ibarətdir. Qoyulan mayaların ümumi miqdarı kommandit ortaqlığının nizamnaməsində göstərilir. Deməli, kommandit ortaqlığının şərikli kapitalının yaradılmasında tam ortaqlarla yanaşı, həm də kommanditçilər iştirak edirlər. Özü də qoyulan mayaların tərkibi və miqdarı nizamnamə əsasında müəyyənləşdirilir.Kommandit ortaqlığına maya qoyan kommanditçiyə ortaqlıq tərəfindən iştirakçılıq barədə şəhadətnamə verilir. Bu şəhadətnamə təsdiqləyici sənəd funksiyasını yerinə yetirir. Bu sənədin əsas təyinatı maya qoyulmasını və maya qoyanın statusunu təsdiq etməkdən ibarətdir.Kommanditçilər müəyyən hüquqlara malikdirlər. Onların hüquqları, əsasən. əmlak xarakterlidir.Ortaqlığın mənfəətindən müəyyən hissəni almaq kommanditçilərin malik olduqları əsas əmlak hüquqlanndan biridir. Məhz mənfəət əldə etmək niyyəti, gəlir götürmək məqsədi onları ortaqlıqda iştirak etməyə təşviq
edir. Ortaqlığın özünün qoyduğu mayanın hesabına mənfəət götürmək
kommanditçilər üçün , olduqca əlverişli və səmərəli vasitədir. Kommanditçilərin ortaqlıqdan aldığı mənfəət onların şərikli kapitaldakı payına uyğun olmalıdır. Bu iştirakçılar onlara düşən mənfəət hissəsini ortaqlığın nizamnaməsində göstərilən qaydada alırlar.Şərikli kapitaldakı payı barəsində sərəncam vermək kommanditçilərin əsas əmlak hüquqlarından biri hesab olunur. Söhbət payın özgəninkiləşdirilməsindən gedir, özü də dərhal qeyd edirik ki, o. heç kəsin razılığı və icazəsi olmadan, müstəqil surətdə öz payını özgəninkiləşdirə bilər. Belə halda buna kommandit ortaqlığın və ya tam ortaqların razılıq vermələri tələb olunmur.Payın özgəninkiləşdirilməsi dedikdə, onun başqa şəxslərə güzəşt edilməsi. verilməsi başa düşülür Başqa şəxslər rolunda yalnız həmin kommandit ortaqlığında iştirak edən digər maya qoyanlar və ya üçüncü şəxslər çıxış edə bilər. Sələ ki. kommanditçi şərikli

kapitaldakı payını digər maya qoyana və ya üçüncü şəxsə verə bilər Qeyd etmək lazımdır ki. kommanditçilər şərikli kapitaldakı payını tam ortaqlara verə bilməzlər. Belə ki, bu, tam ortaqlar arasında mənafelər balansının pozulmasına səbəb ola bilərdi. Bununla belə, bütün tam ortaqların razılığı ilə həmin pay tam ortaqlardan birinə verilməsi mümükündür. Şərikli kapitaldakı pay müxtəlif hüquqi vasitələr əsasında özgəninkiləşdirilir. Bu vasitələrə misal olaraq alqı-satqı. dəyişmə və bağışlama müqavilələri kimi hüquqi konstruksiyalan göstərmək olar. Pay satılarkən kommandit ortaqlığın da iştirak edən kommanditçilər payı satın almaqda üçüncü şəxslər qarşısında öz paylannın miqdarına mütənasib surətdə üstünlük hüququna malikdirlər.

Maliyyə ili qurtardıqda, ortaqlıqdan çıxmaq və öz mayasını almaq
kommanditçilərin hüquqlarından biridir . Kommanditçinin tam ortaqlıqdan çıxması
müəyyən nəticəyə səbəb olur. Bunun nəticəsində kommandit ortaqlığına kommanditçi tərəfindən qoyulan maya onun özünəqaytarılır. O, ortaqlığın əmlakından pay tələb edə bilməz. Kommanditçi yalnız qoyduğu mayanın qaytarılmasını tələb edə bilər.Kommanditçi ortaqlığın illik hesabatları və balansları
ilə tanış olmaq hüququna malikdir. Buna informasiya almaq hüququ
deyilir.Dövriyyədə ortaqlığın adından çıxış etmək yəni ortaqlığın işlərini aparmaq kommanditçinin malik olduğu hüquqlardan biridir. Kommanditçi yalnız etibarnamə əsasında bu cür hüquqa malik ola bilər. Kommanditçilərin ortaqlığın fəaliyyətinin idarə olunmasında iştirak etmək hüququ yoxdur. Belə ki, onlar ortaqlığın fəaliyyəti barəsində

qərar qəbul olunmasında iştirak etməkdən məhrumdurlar. Kommanditçilərin ortaqlığın idarə edilməsi və işlərinin aparılması üzrə tam ortaqların hərəkətləri barəsində mübahisə etmək hüququ da yoxdur. Belə ki, onlar ortaqlığın üçüncü şəxslərlə münasibətlərinə, habelə kommersiya və təşkilati məsələlərə dair müvafiq qərarlar qəbul edilməsi prosesinə qarışa və müdaxilə edə bilməzlər. Bunun nəticəsində ortaqlıq zərərə düşür . Kommandit ortaqlığı müxtəlif əsaslara görə ləğv edilir. O, hər şeydən əvvəl, bütün hüquqi şəxslərə aid olan ümumi əsaslara görə ləğv oluna bilər. Bundan əlavə, ikincisi, komandit ortaqlığı bütün tam ortaqlıqlara aid edilən xüsusi əsaslara görə ləğv edilir.Kommandit ortaqlığı. üçüncüsü, yalnız ona aid olan xüsusi əsasa görə ləğv edilir. Bu əsas kommandit ortaqlığına maya qoyanların hamısının ortaqlıqdan çıxmasından ibarətdir (MM-in 86.1-ci bəndi). Belə ki, kommanditçilərin hamısı ortaqlıqdan çıxdıqda, ortaqlıq ləğv edilir. Çünki kommanditçilərin hamısı ortaqlığın tərkibindən çıxdıqda, onun subyekt tərkibi yalnız tam ortaqlardan ibarət olur. Bu cür tərkib isə kommandit ortaqlığın forması üçün müvafiq deyildir. Kommanditçilər ortaqlığın tərkibindən çıxdığı hallarda, həmin ortaqlıq ləğv olunmaya da bilər. Belə halda tam ortaqlar kommandit ortaqlığını ləğv etmək əvəzinə, onun tam ortaqlığa çevrilməsi barədə qərar qəbul edirlər.Kommandit ortaqlığının ləğv edilməsi müəyyən hüquqi nəticələrə səbəb olur. Tam ortaqlar, hər şeydən əvvəl, ləğvetmə kvotası hüququ əldə edirlər. Belə

ki, əvvəlcə ortaqlığın kreditorlarının tələbləri ödənilir. Bundan sonra ortaqlığın yerdə qalan əmlakından kommanditçilərin həmin ortaqlığa qoyduqları maya ödənilir. Çünki qanun onları təminatlı (imtiyazlı) şəxslər kateqoriyasına aid edir. Belə ki, kommanditçilər ortaqlığın qalan əmlakından mayaları almaqda tam ortaqlar qarşısında üstünlük hüququna malikdirlər. Kommanditçilərin mayaları verildikdən sonra qalan əmlak tam ortaqlar arasında bölüşdürülür. Bölüşdürmə zamanı tam ortaqların ortaqlığın şərik kapitalındakı paylarına mütənasiblik qaydasına əməl edilir.

19.Təsərrüfat ortaqları və təsərrüfat cəmiyyətlərinin mahiyyətini ,oxşar və fərqli cəhətlərini izah edin.(10 bal)

Təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin əsl mahiyyətinə aydınlıq gətirmək üçün onlar arasında həm ümumi və oxşar, həm də fərqli cəhətləri müəyyən etməyə çalışaq. Oxşar cəhətlər:

1. Onların hər ikisi kommersiya təşkilatıdır. Belə ki, həm təsərrüfat ortaqlıqlarının, həm də təsərrüfat cəmiyyətlərinin fəaliyyətinin əsas məqsədi mənfəət əldə etməkdən və bu mənfəəti iştirakçılar arasında bölüşdürməkdən ibarətdir. Özü də onların hər ikisi, əsasən, müqavilə yolu ilə könüllü surətdə, üzvlük əsasında yaranır.

2. Həmin qurumların hər ikisi onların fəaliyyətinin maddi (əmlak) bazasını yaradan və kreditorların mənafeyini təmin edən nizamnamə (şərikli) kapitalına malikdir. Bu nizamnamə (şərikli) kapitalı iştirakçıların payına bölünür.

3. Həmin qurumların iştirakçıları (təsisçiləri) onlara pay (maya) kimi verdikləri əmlak (pul, qiymətli kagızlar, torpaq, avadanlıq, dəzgah, bina və s.), habelə göstərilən qurumların öz fəaliyyəti prosesində istehsal və əldə etdiyi əmlak özərində mülkiyyət hüququna malik deyildir. Bu əmlak mülkiyyət hüququ əsasında hüquqi şəxs kimi təsərrüfat ortaqlıgının və cəmiyyətinin özünə məxsusdur. Başqa sözlə desək, həmin əmlakın mülkiyyətçisi təsərrüfat ortaqlıgının və cəmiyyətinin özü hesab edilir.

4. Həm təsərrüfat ortaqlıqları, həm də təsərrüfat cəmiyyətləri, MM-də nəzərdə tutulan hallar istisna olmaqla, digər hər hansı təsərrüfat ortaqlıgının və cəmiyyətinin təsisçiləri (iştirakçıları) olmaq hüququna malikdir (MM-in 64-cü maddəsinin 7-ci bəndi).

5. Həm təsərrüfat ortaqlıqları, həm də təsərrüfat cəmiyyətləri dövlət orqanları və yerli özünüidarə orqanları tərəfindən təsis edilə bilməz (MM-in 64-cü maddəsinin 6-cı bəndi). Belə ki, həmin orqanlar kommersiya və sahibkarlıq dövriyyəsində, bir sözlə, əmlak (iqtisadi) dövriyyəsində iştirak etmək məqsədi ilə yaradılmır. Buna görə də mülki qanunvericilik həmin orqanların təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin iştirakçıları kimi çıxış edə bilmələrini qadaüan edir.

6. Həm təsərrüfat cəmiyyətləri, həm də təsərrüfat ortaqlıqları, bir qayda olaraq, qabaqcadan icazə alınmadan normativ üsulla yaradılır. Qabaqcadan icazə almaq üsulu onların əmələ gəlməsi üçün xarakterik deyil.

Fərqli cəhətlər:

1. Təsərrüfat ortaqlıqları, Almaniya qanunvericilik ənənələrinə uyğun olaraq, təsərrüfatçı şəxslərin — iş adamlarının, biznesmenlərin, sahibkarların və kommersantların birliyidir. Onlar elə hüquqi şəxslərdir ki, burada təsisçilər (iştirakçılar) nəinki əmlak payları ilə, həm də bilavasitə şəxsi əməyi ilə, şəxsi fəaliyyəti ilə iştirak edirlər. Məhz buna görə də iştirakçıların təsərrüfat (sahibkarlıq) fəaliyyəti ilə birgə məşğul olmaları tələb edilir.Təsərrüfat ortaqlıqları dedikdə, birgə təsərrüfat (sahibkarlıq) fəaliyyəti ilə məşgul olmaq üçün bir neçə sahibkar şəxsin hüquqi şəxs statuslu birliyi başa düşülür.Təsərrüfat cəmiyyətləri isə, Almaniya mülki qanunvericilik ənənələrinə uygun olaraq, kapitalların birliyidir. Başqa sözlə, bu cəmiyyətlər istehsal vasitələrinin, maddi vəsaitlərin, əmlakın birliyidir. Onlar hüquqi şəxs statuslu elə təşkilatlardır ki, burada təsisçilər

(iştirakçılar) yalnız əmlak payları ilə iştirak edirlər: təsisçilərin (iştirakçıların) burada şəxsi əməyi və şəxsi fəaliyyəti ilə iştirak etmələri tələb olunmur. Bu, təsisçilərin (iştirakçıların) vəzifə borcu hesab edilmir.Təsərrüfat cəmiyyətləri dedikdə, hüquqi şəxs statuslu elə təşkilatlar başa düşülür ki, bu təşkilatlar təsərrüfat (sahibkarlıq) fəaliyyəti ilə məşgul olmaq məqsədi ilə bir və ya bir neçə şəxsin əmlakının birləşdirilməsi yolu ilə yaradılır.

2. Təsərrüfat ortaqlığının fəaliyyətində və işində təsisçinin (iştirakçının, tam ortagın) şəxsi əməyi ilə iştirak etməsi tələb olunur. Belə halda təsisçinin

   (tam ortagın) başqa ortaqlıqda iştirak etmək imkanı istisna olunur (bir əldə iki qarpız tutmaq məsələsi). Yəni şəxs (təsisçi) tam ortaq qismində yalnız bir ortaqlığın iştirakçısı ola bilər (MM-in 69-cu maddəsinin 2-ci bəndi, 82-ci maddəsinin 3-cü bəndi). Bu, həm də onunla izah olunur ki, təsərrüfat ortaqlığı iştirakçısı (tam ortaq) ortaqlığın öhdəliklərinə görə qeyri-məhdud məsuliyyət daşıyır. Belə ki, iştirakçı (tam ortaq) ortaqlığın öhdəliklərinə (borclarına) görə ona məxsus olan bütün əmlakı ilə cavabdehdir (MM-in 69cu maddəsinin 1-ci bəndi, 82-ci maddəsinin 1-ci bəndi). Bu, o deməkdir ki, əgər ortaqlığın kreditorlara borcu yarandıqda və bu borcun ödənilməsi üçün
   ortaqlığın xüsusi əmlakı və şərikli kapitalı kifayət etmədikdə, onda kreditorların tələbi tam ortagın (iştirakçının) şəxsi əmlakı (məsələn, yaşayış evi, nəqliyyat vasitəsi və s.) hesabına təmin olunur. Belə təsəvvür yaranır ki, iştirakçı (tam ortaq), mahiyyətcə, öz üzərinə yaratdığı təsərrüfat ortaqlığının müəyyən kreditorlara mümkün ola biləcək borclarını ödəməsi üçün

öz şəxsi əmlakı hesabına öhdəlik götürür. Odur ki, sahibkarlıq (əmlak) riski böyükdür və belə halda eyni əmlak hesabına tam ortagın (iştirakçının) digər müstəqil kreditorları qarşısında onların mümkün borclarını ödəməsi barədə öhdəlik götürməsi yol verilməzdir. Şəxs eyni vaxtda bir neçə təsərrüüfat cəmiyyətinin iştirakçısı ola bilər. Bu, onunla izah olunur ki, şəxsin təsərrüfat cəmiyyətinin işində və fəaliyyətində şəxsi, bilavasitə əməyi ilə yox, əmlakı ilə, kapitalı ilə, maddi vəsaiti ilə iştirak etməsi tələb olunur. Digər tərəfdən təsərrüfat cəmiyyətinin iştirakçısı qeyri-məhdud məsuliyyət daşımır. Məsələn, təsərrüfat cəmiyyətinin növləri olan məhdud məsuliyyətli cəmiyyətin və səhmdar cəmiyyətinin iştirakçıları cəmiyyətin öhdəlikləri üçün cavabdeh deyildir. Bundan əlavə, məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı kreditorların borclarını qoyduüu əmlak payının (mayanın) dəyəri həddində, səhmdar cəmiyyətinin iştirakçısı isə ona məxsus olan səhmlərin dəyəri həddində ödəyir. Onlar bu həddən çox olan borc hissəsini ödəmirlər.

3. Belə ki, təsərrüfat cəmiyyəti iştirakçısının bu cəmiyyətin fəaliyyəti ilə bağlı olaraq yaranan zərər üçün daşıdığı risk yüksək, qeyri-məhdud deyildir. O, cəmiyyətin öhdəliyi özrə məsuliyyət daşımır. Burada sahibkarlıq (əmlak) riski iştirakçının bütün əmlakı ilə yox, yalnız onun nizamnamə kapitalına verdiyi əmlak payı (maya) ilə məhdudlaşır. Ona görə də məhz bu səbəbdən təsərrüfat cəmiyyətinin iştirakçısı istənilən fiziki və hüquqi şəxs (o cümlədən sahibkar statusu olmayan fiziki şəxslər və qeyri-kommersiya təşkilatları) ola bilər (MM-in 64-cü maddəsinin 5-ci bəndi).Amma təsərrüfat ortaqlıgı iştirakçısı (ortaq) istənilən fiziki və hüquqi şəxs ola bilməz. Belə ki, ortaqlıq iştirakçısı (ortaq) təsərrüfat cəmiyyəti iştirakçısından fərqli olaraq, ortaqlıgın öhdəlikləri üçün özünə məxsus olan bütün şəxsi əmlakı ilə cavabdehdir. Onun üçün sahibkarlıq (əmlak) riski qeyri-məhdud xarakter daşıyır. Ortaqlıq iştirakçısı (ortaq) ortaqlıüın fəaliyyəti ilə bağlı yaranan zərər üçün özünün bütün şəxsi əmlakı ilə məsuliyyət daşıyır. Bu cəhət təsərrüfat ortaqlıüının iştirakçısı (ortaq) rolunda istənilən şəxsin yox, yalnız əmtəə xarakterli kommersiya (sahibkarlıq) dövriyyəsinin professional subyektlərinin (sahibkarların, kommersantların) çıxış etməsini tələb edir və şərtləndirir. Büyük təcrübəsi və səriştəsi olan bu subyektlər kommersiya (sahibkarlıq) dövriyyəsinin qaydalarına yaxından və dərindən bələddirlər. Onlar bu qaydaları yaxşı bilirlər. Məhz bu səbəbdən yalnız kommersiya (sahibkarlıq) dövriyyəsinin professional subyektləri təsərrüfat ortaqlıgının iştirakçısı (ortagı) ola bilər (MM-in 64-cü maddəsinin 4-cü bəndi).

4. Təsərrüfat ortaqlıgı bir şəxs tərəfindən yaradıla bilməz. Təsərrüfat cəmiyyəti üçün bu cür imkana yol verilir. Belə ki, Mülki Məcəllədə nəzərdə tutulan hallarda təsərrüfat cəmiyyətini bir şəxs də yarada bilər (MM-in 64-cü maddəsinin 1-ci bəndi).

5. Təsərrüfat ortaqlıgında orqanlar sisteminə rast gəlinmir. Belə ki, ortaqlıgın işini iştirakçıların özləri aparırlar. Təsərrüfat cəmiyyətində isə xüsusi olaraq orqanlar sistemi (icra-idarəetmə orqanları) yaradılır və fəaliyyət göstərir. Məsələn, səhmdar cəmiyyətinin icra orqanı kimi idarə heyəti — kollegial orqan yaradıla bilər.

6. İştirakçı ortaqlıgın tərkibindən çıxarsa, bunun nəticəsində ortaqlıqda bir iştirakçı qalarsa, onda ortaqlıq ləğv edilir. Bundan fərqli olaraq, iştirakçıların tərkibinin dəyişməsi cəmiyyətin mövcud olmasına təsir göstərmir.

7. Təsərrüfat cəmiyyətinin yaradılmasının və fəaliyyət göstərməsinin əsas şərti onu lazımınca kapitallaşdırmaqdan — təsisçilərin nizamnamə kapitalını tamamilə ödəmələrindən ibarətdir. Buna görə də qanun təsərrüfat cəmiyyətinin nizamnamə kapitalını formalaşdırmaq, onu artırmaq və azaltmaq kimi məsələlərin tənzimlənməsinə xüsusi diqqət yetirir. Təsərrüfat ortaqlıgının kapitallaşdırılması isə qanunla xüsusi olaraq tənzimlənmir.

8. Təsərrüfat cəmiyyətlərində nizamnamə fondu nizamnamə kapitalı
anlayışı ilə, təsərrüfat ortaqlıqlarında isə şərikli kapital anlayışı ilə əhatə olunur.

20.Tam ortaqlıgın mahiyyətini və yaradılma məqsədləri haqqında bəhs edin və ləgvi qaydalarını izah edin.(20bal)

Tam ortaqlıq təsərrüfat ortaqlıqlarının elə bir formasıdır (növü) ki, onun iştirakçıları nizamnaməyə müvafiq surətdə ortaqlıq adından sahibkarlıq fəaliyyəti ilə məşğul olur və ortaqlığın öhdəlikləri üzrə onlara məxsus olan əmlakla məsuliyyət daşıyırlar. Tam ortaqlıq nizamnamə əsasında fəaliyyət göstərir.

Tam ortaqlığın iştirakçıları tam ortaqlar adlanır. Tam ortaqlar ən azı iki şəxsdən
ibarət olmalıdır.Tam ortaq rolunda tam ortaqlığın yaradılmasında yalnız
sahibkarlar - fərdi sahibkarlar (sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslər) və kommersiya təşkilatları çıxış edə bilər. Həmçinin, tam ortaqlığı yaradan iştirakçılardan biri fərdi sahibkar, digəri isə kommersiya təşkilatı ola bilər. Deməli, qeyri-sahibkarlar, yəni sahibkar statusu olmayan şəxslər tam ortaqlığın iştirakçısı ola bilməzlər.

Tam ortaqlıq sahibkarlıq fəaliyyəti üçün yaradılır. Tam ortaqlıq kommersiya təşkilatıdır və ümumi mülki hüquq qabiliyyətinə malikdir. Sahibkarlıq fəaliyyəti tam ortaqlığın — kommersiya təşkilatının (hüquqi şəxsin) adından onun iştirakçıları (tam ortaqlar) tərəfindən həyata keçirilir. Iştirakçıların (tam ortaqların) sahibkarlıq fəaliyyəti hüquqi şəxs kimi tam ortaqlığın özünün fəaliyyəti hesab edilir.

Tam ortaqlıq müxtəlif əsaslara görə ləğv edilə bilər. Bu əsasları iki yerə bölmək olar: ümumi əsaslar; xüsusi əsaslar. Ümumi əsaslara aiddir: tam ortaqlığın mövcudluğu üçün nəzərdə tutulan müddətin qurtarması, qarşıya qoyulan məqsədə nail olunması, qanunvericilik pozuntusu ilə bağlı olaraq tam ortaqlığın dövlət qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayılması, lazımi xüsusi icazə (lisenziya) olmadan fəaliyyət göstərilməsi və digər halları misal göstərmək olar(MM-in 59-cu maddəsi).

Xüsusi əsaslara yalnız tam ortaqlığın ləğvi üçün xarakterik olan üquqi faktlar aiddir və dairəsi isə kifayət qədər genişdir.

Tam ortaqlığın ləğv edilməsinə səbəb olan xüsusi əsaslardan biri tam or- taqlıq iştirakçılarının tərkibinin dəyişdirilməsi halı hesab edilir (MM-in 76-cı maddəsi). Əgər ortaqlığın nizamnaməsində və ya qalan iştirakçılann sazişində ortaqlığın öz fəaliyyətini davam etdirəcəyi nəzərdə tutulmayıbsa, həmin hal tam ortaqlığın ləğvinə səbəb olur. Nəzərdə tutulubsa, tam ortaqlıq ləğv olunmur və o, öz fəaliyyətini davam etdirə bilər.

Tam ortaqlıq iştirakçılarının tərkibi müxtəlif əsaslara görə dəyişdirilə bilər: tam ortaqlıq iştirakçısının ortaqlıqdan çıxması; iştirakçının ölməsi (hüquqi şəxsin ləğvi); iştirakçılardan birinin xəbərsiz itkin düşməsi; iştirakçılardan birinin fəaliyyət qabiliyyəti olmayan sayılması; iştirakçılardan birinin məhdud fəaliyyət qabiliyyətli olması; iştirakçılardan birinin müflis elan edilməsi; məhkəmə qərarına əsasən iştirakçılardan biri barəsində yenidən təşkil etmə prosedurasının başlanması.Tam ortaqlıq iştirakçılannın tərkibinin dəyişdirilməsinə dəlalət edən əsaslardan biri də bu və ya digər iştirakçının şəxsi borcları üzrə kreditorun tələb irəli sürməsi halından ibarətdir (MM-in 76-cı və 80-cı m). Belə ki, tam ortaqlıq iştirakçısının müəyyən hallarda şəxsi borcları yarana bilər.

Maddi imkanı olmadığına görə tam ortaqlıq iştirakçısı şəxsi borcdan kreditorlara ödəyə bilmir və onun əmlakının şəxsi borclarını ödəməyə kifayət etmədiyindən gedir. Belə halda kreditorun tələbi tam ortaqlıq iştirakçısının şərikli kapitaldakı payına uyğun gelən əmlak hissəsinə yönəlir. Kreditor bunun üçün əmlak hissəsinin aynlmasını tələb edir. Bu hissə hesabına və ya onun dəyəri hesabına kreditora olan borclar ödənilir. Bunun nəticəsində tam ortaqlıq iştirakçısının bu ortaqlıqda iştirakına xitam verilir. O, iki il müddətində tam ortaqlığın əmələ gəlmiş öhdəlikləri üzrə məsuliyyət daşıyır.

Tam ortaqlıq iştirakçısının göstərilən qaydada tam ortaqlıqdan çıxması (onun ortaqlıqda iştirakına xitam verilməsi), əgər ortaqlığın nizamnaməsində və ya qalan iştirakçıların razılaşmasında ortaqlığın öz fəaliyyətini davam etdirəcəyi nəzərdə tutulmayıbsa, tam ortaqlığın ləğvinə səbəb olur.

Tam ortaqlığın ləğvinə səbəb olan xüsusi əsaslardan digəri ortaqlıqda təkcə bir iştirakçının qalması halı hesab edilir (MM-in 81.2-ci bəndi).

Lakin tam ortaqlıqda yeganə iştirakçı kimi qalan şəxs başqa variantdan da istifadə edə bilər. Belə ki, o, sahibkarlıq fəaliyyətini davam etdirmək niyyətində olarsa, ortaqlığı təsərrüfat cəmiyyətinə çevirə bilər. Qanun ona bu cür hüquqi imkan verir.

21.Səhmin növləri, səhmin buraxılması və sahiblərinə verilən hüquqlar haqqında bəhs edin.(5 bal)

Səhmin iki növü vardır:

• Adi səhm

• İmtiyazlı səhm

Adi səhm – sahibinin səhmdar cəmiyyətinin gəlirinin bir hissəsini dividend şəklində almaq, cəmiyyətin idarə edilməsində iştirak etmək və ləğv edildiyi halda yerdə qalan əmlakın bir hissəsini əldə etmək hüquqlarını təsbit edir.

İmtiyazlı səhm – sahibinin malik olduğu səhmin nominalından müəyyən faizlə ifadə olunmuş ölçüdə dividend almaq hüququnu təsbit edir və bu dividendin alınmasında digər adi səhm sahiblərinə nisbətən üstünlük hüququnu təmin edir Səhmlər aşağıdakı hallarda buraxılır:

• Səhmdar cəmiyyətlə yaradıldıqda

• Müəssisənln və ya təşkilatın səhmdar cəmiyyətlnə çevrilməsi zamanı

• Nizamnamə kapitalının artırılması zamanı Səhmlərin bir neçə xüsusiyyəti var:

• Səhm – mülkiyyət tituludur

• Səhmin “mövcudluğu” müddəti yoxdur

• Səhmlərə bilinməzlik xasdır

• Səhmlərə məhdud məsuliyyət xasdır

• Səhmlər bölünə və birləşə bilərlər

Səhmdar cəmiyyətlərinin səhmləri onlara açıq abunə yazılışı yolu ilə, yaxud bütün səhmlərin təsisçilər arasında bölüşdürülməsi qaydasında yayılır.

Səhmdar cəmiyyətləri imtiyazlı səhmlər buraxa bilər. Səhmlərin minimum nominal dəyəri 100 manatdan az ola bilməz. Səhmdarlara səhmlərin məcmu nominal dəyərində sertifikat verilə bilər.

Səhm blankında aşağıdakı rekvizitlər göstərilməlidir: qiymətli kağızın adı—”səhm”, səhmin nominal dəyəri, kateqoriyası (adi və ya imtiyazlı səhm);emitentin tam adı və hüquqi ünvanı;

səhm alıcısının tam adı, yaxud səhmi təqdim edənin adına yazılıb verildiyi barədə qeyd;səhmin buraxıldığı yer, tarix, dövlət qeydiyyatı nömrəsi, seriyası;emitentin vəkil etdiyi şəxslərin imzasının nümunəsi (faksimile);səhm sahiblərinə verilən hüquqların siyahısı.

Səhm sahiblərinə verilən hüquqlar

Səhm sahibinin səhmdar cəmiyyətinin mənfəətinin bir hissəsini dividend şəklində götürmək hüququ vardır.

Emitent ləğv edilərkən kreditorların və imtiyazlı səhm sahiblərinin tələbləri ödəndikdən sonra emitentin əmlakının qalan hissəsinə səhm sahibinin hüququ vardır.

Səhm sahibi səhmdarların ümumi yığıncağında səs hüququna malikdir və idarəetmə orqanlarının və təftiş komissiyasının seçilməsində, habelə Qiymətli Kağızlar haqqınd qanunda nəzərdə tutulmuş hallardan başqa, nəzarətin həyata keçirilməsində və iş siyasətinin təsdiq olunmasında qoyduğu paya mütənasib şəkildə iştirak edir.

Səhm bölünməzdir. Eyni bir səhm bir neçə şəxsə məxsus olduqda onların hamısı səhmin bir sahibi sayılır və öz hüquqlarını özlərindən biri vasitəsilə həyata keçirə bilərlər.

Səhmlərin buraxılması

Səhm buraxmaq qərarını səhmdar cəmiyyətinin təsisçiləri və ya səhmdarların ümumi yığıncağı öz nizamnaməsində və təsis müqaviləsində nəzərdə tutulmuş qaydada qəbul edir.

Səhm buraxmaq qərarı protokolla rəsmiləşdirilir; protokolda aşağıdakılar hökmən göstərilməlidir:

- emitentin tam adı və hüquqi ünvanı;
- emitentin nizamnamə fondunun məbləği və ya əsas və dövriyyə fondlarının dəyəri; onun fəaliyyətinin məqsədləri və predmeti, habelə emitentin vəzifəli şəxslərinin siyahısı;
- indiyədək buraxılmış səhmlərin yerləşdirilməsi barədə məlumat;
- səhmlərin buraxılmasından məqsəd;
- səhmlərin, o cümlədən imtiyazlı səhmlərin miqdarı;
- səhmlərin emissiyasının ümumi məbləği, nominal dəyəri, səsvermə iştirakçılarının sayı və səsvermənin nəticəsi;
- dividentlərin ödənməsi qaydası;
- səhmlərə abunə yazılmağın müddəti və qaydası;
- səhmlərin satın alınması üçün vəsaitin ödəndiyi yer və vaxt;
- müxtəlif seriyalı səhmlər buraxılarkən səhmlərin buraxılmasının növbəliyi;
- imtiyazlı səhm sahiblərinin hüquqları, səhmlərin yeni emissiyası zamanı birinci növbədə satınalma hüququ və səhm buraxılışı ilə bağlı olan başqa məsələlər.

Səhmdar cəmiyyətinin səhmləri onun nizamnamə fondu məbləğində buraxılır.

Səhmdar cəmiyyətinin əlavə səhmlər buraxması o halda mümkündür ki, əvvəl buraxılmış bütün səhmlər nominal dəyərdən aşağı olmamaq şərti ilə tamamilə satılmış olsun. Səhmlərin ilkin satışında onların nominal qiymətdən aşağı qiymətlə satışına yol verilmir.

Səhmdar cəmiyyətinin təsərrüfat fəaliyyəti ilə bağlı zərəri ödəmək üçün səhmlər buraxmaq qadağandır.

22.Qanunvericiliyə əsasən, kommersiya təşkilatının törəmə cəmiyyət statusu alması üçün hansı əsaslar mövcud olmalıdır ?(5 bal)

Başqa iştirakçı tərəfindən nəzarət olunan və özünün qəbul etdiyi qərarları müstəqil surətdə müəyyənləşdirmək imkanına malik olmayan kommersiya təşkilatına törəmə təsərrüfat cəmiyyəti deyilir. Törəmə təsərrüfat cəmiyyətinin fəaliyyəti üzərində nəzarət edən və həmin cəmiyyətin qəbul etdiyi qərarları müəyyənləşdirmək imkanına malik olan kommersiya təşkilatı isə əsas iştirakçı adlanır. Əgər törəmə təsərrüfat cəmiyyəti nəzarət olunan təşkilatdırsa, əsas iştirakçı nəzarət edən təşkilatdır. Odur ki, nəzarət edən təşkilat nəzarət olunan cəmiyyətə onun işlərinin idarə olunması barədə məcburi göstərişlər vermək hüququna malikdir.

Deməli, kommersiya təşkilatının törəmə cəmiyyət statusu alması üçün mülki qanunvericiliyin nəzərdə tutduğu iki əsasdan birinin mövcud olması vacibdir:

- birincisi, əsas kommersiya təşkilatının (əsas iştirakçının) digər təsərrüfat cəmiyyətinin nizamnamə kapitalında üstün iştirakı. Elə bir iştirak ki, bu, həmin cəmiyyətin işlərinin idarə olunmasında ona həlledici səs verir.

- ikincisi, əsas kommersiya təşkilatı (əsas iştirakçı) ilə həmin təsərrüfat cəmiyyəti arasında müqavilə bağlanır. Elə bir müqavilə ki, bu müqavilə əsas iştirakçıya cəmiyyətin işlərini idarə etmək (məsələn, cəmiyyətin icra orqanının səlahiyyətlerini icra etmək) hüququ verir.

Qeyd edildiyi kimi, törəmə təsərrüfat cəmiyyətinin yaranmasının əsaslarından biri idarəetmə (tabeçilik) haqqında müqavilədir. Bu müqaviləyə görə, əsas iştirakçı (idarə edən) təsərrüfat (sahibkarlıq) fəaliyyəti məsələləri üzrə törəmə cəmiyyətə məcburi

göstərişlər verir, törəmə cəmiyyət isə bu göstərişləri yerinə yetirmək vəzifəsini daşıyır. Bu göstərişləri yerinə yetirmək və icra etmək üçün törəmə cəmiyyət müxtəlif mülki-hüquqi və ticarət xarakterli müqavilələr bağlaya bilər.

Bağlanmış bu müqavilələr üzrə əsas iştirakçı törəmə cəmiyyətlə birgə məsuliyyət daşıyır .

23. Əlavə məsuliyyətli cəmiyyətin mahiyyəti və təsis sənədləri haqqında bəhs edin.(10bal)

Əlavə məsuliyyət ilə - vətəndaş dövriyyəsinin müstəqil bir subyekti. **Əlavə məsuliyyətli cəmiyyət (ƏMC)** ƏMC-nin quruluşu cəmiyyət üçün xarakterik olduğundan və iştirakçılarının məsuliyyətinin xarakteri tərəfdaşlıq üçün ara əlaqədir. Bununla yanaşı, əlavə məsuliyyət daşıyan bir şirkət təşkilatın kifayət qədər səmərəli idarə edilməsinə və eyni zamanda şirkətin kreditorlarının maraqlarını ən etibarlı şəkildə qorumağa imkan verir.

Struktur və təşkilati baxımdan əlavə məsuliyyət daşıyan şirkət məhdud məsuliyyətli cəmiyyətlə eyni quruluşa malikdir. Bu iki təşkilatın hüquqi statusları bir-birinə ən yaxındır. MM-nin 97-ci maddəsinə "Əlavə məsuliyyətli cəmiyyət" məhdud məsuliyyətli cəmiyyətin mövqeyini tənzimləyən qaydalara istinad edir. Bu maddəyə görə, MM-nin məhdud məsuliyyətli cəmiyyət haqqında qaydaları, əlavə bir məsuliyyətli cəmiyyətə tətbiq olunur, MM-də başqa hal nəzərdə tutulmur.

Əlavə məsuliyyət daşıyan Cəmiyyətin təsis sənədləri Nizamnamə və birləşmə memorandumudur.Cəmiyyətin yalnız bir üzvü varsa, təsis sənədləri Nizamnamə və təsisçinin (üzvün) qərarıdır.Birləşmə memorandumunda aşağıdakı məlumatlar olmalıdır:

- şirkətin təsisçilərinin (iştirakçılarının) tərkibi;
- cəmiyyətin nizamnamə kapitalının və cəmiyyətin təsisçilərinin (iştirakçılarının) hər birinin payının ölçüsü;
- töhfələrin həcmi və tərkibi, cəmiyyətin təsis edildiyi vaxtda onun nizamnamə kapitalına qoyuluş qaydası və şərtləri;
- cəmiyyətin təsisçilərinin (iştirakçılarının) əmanət qoymaq öhdəliyinin pozulmasına görə məsuliyyəti;
- şirkət mənfəətinin təsisçiləri (iştirakçıları) arasında bölüşdürülmə şərtləri və qaydası;
- cəmiyyət orqanlarının tərkibi;
- iştirakçıların şirkətdən çıxarılması qaydası.

Şirkətin nizamnaməsində aşağıdakılar göstərilməlidir:

- şirkətin tam və qısaldılmış adı;

- şirkətin yeri haqqında məlumat;
- şirkət orqanlarının tərkibi və səlahiyyətləri, o cümlədən şirkət iştirakçılarının ümumi yığıncağının müstəsna səlahiyyətlərini təşkil edən məsələlər, şirkət orqanlarının qərar qəbul etmə qaydaları, o cümlədən qərarlar yekdilliklə və ya səsli səs çoxluğu ilə qəbul edilməsi barədə məlumatlar;
- şirkətin nizamnamə kapitalının miqdarı barədə məlumat;
- şirkət üzvlərinin hüquq və vəzifələri;
- şirkət üzvünün cəmiyyətdən çıxarılmasının qaydası və nəticələri barədə məlumat (nizamnamədə iştirakçının şirkətdən çıxmaq hüququ təmin edildikdə);
- cəmiyyətin nizamnamə kapitalındakı payın (payın bir hissəsi) başqa şəxsə verilməsi qaydası haqqında məlumat;
- şirkət sənədlərinin saxlanması qaydası və şirkətin şirkət üzvlərinə və digər şəxslərə məlumat verməsi qaydası haqqında məlumat.

24.Səhmdar cəmiyyətinin əsas əlamətləri və növləri haqqında bəhs edin.(10bal)

Səhmdar cəmiyyətinin əsas və başlıca hüquqi əlamətləri:

1. Səhmdar cəmiyyətinin nizamnamə kapitalı məlum olan, yəni müəyyən sayda bərabər paylara bölünür.

2. Səhmdar cəmiyyətinin iştirakçıları (səhmdarlar) onun öhdəlikləri (borcları) üçün cavabdeh deyillər.

3. Səhmdar cəmiyyətinin iştirakçıları (səhmdarlar) cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün nizamnamə kapitalına qoyduqları əmlak paylarının (mayaların) dəyəri həddində risk daşıyırlar.Səhmdar cəmiyyətin iştirakçıları (səhmdarları) nizamnamə kapitalına verdikləri paylara (mayalara) olan mülkiyyət hüquqlarını itirirlər. Bu payların mülkiyyətçisi səhmdar cəmiyyətinin özü olur. Əgər bu cəmiyyət zərərə düşərsə, yəni zərərlə işləyərsə. onda iştirakçılar bu zərər üçün yalnız həmin paylan (mayalan) itirmək riski daşıyırlar.

4. Səhmdar cəmiyyətinin nizamnamə kapitalı emissiya qiymətli kağızlar – səhmlər hesabına formalaşmasır,müəyyən və məlum sayda səhmlərə bölünür.

Yəni, səhmdar cəmiyyətinin nizamnamə kapitalı səhmlərlə rəsmiləşdirilir. İştirakçılar (səhmdarlar) cəmiyyətin buraxdığı səhmləri əldə edirlər, yəni satın alırlar. Bu məqsədlə onlar əldə etdikləri səhmlərin əvəzində cəmiyyətə pul vəsaiti ödəyirlər və bununla həmin səhmlərin mülkiyyətçisi olurlar. Səhmin əvəzində verilən pul vəsaiti cəmiyyətin mülkiyyətinə daxil edilir. Səhmdarın hamin vəsaitin geri qaytanlmasını tələb etmək hüququ yoxdur.

Səhmi almaqla səhmdarla cəmiyyət arasında öhdəlik hüquq münasibəti əmələ gəlir. Bu münasibətə görə səhmdar cəmiyyətin gəlirlərinin (mənfəətinin) bir hissəsini devidendlər şəklində almaq hüququna (öhdəlik hüququna) malik olur. Səhmdar mülkiyyətçi, səhm ilə mülkiyyət hüququnun obyektidir.

Səhmlər buraxmağa yalnız səhmdar cəmiyyətlərinin hüququ vardır (MM-in 98.2-ci bəndi). Başqa hər hansı bir hüquqi şəxsin belə hüququ yoxdur.

5. Səhmdar iştirak etdiyi cəmiyyətdən çıxarsa, ona hər hansı ödəniş verilmir və əmlak hissəsi ödənilmir.

Səhmdar cəmiyyətinin firma adı qanunda nəzərdə tutulan tələblərə uyğun olmalıdır. Onun firma adına daxil edilməlidir:

səhmdar cəmiyyətinin adı;

təşkilati-hüquqi forması, yəni səhmdar cəmiyyəti. Səhmdar cəmiyyətinin firma adında hökmən onun növü, yəni «açıq səhmdar cəmiyyəti» və ya «qapalı səhmdar cəmiyyəti» sözləri göstərilməlidir (MM- in 98. 6-cı bəndi).

Səhmdar cəmiyyəti açıq, yaxud qapalı tipli səhmdar cəmiyyəti formasında yaradılır. Bu cür bölgü səhmlərin emissiya qaydasına və özgəninkiləşdirilmə prosedurasına görə aparılır.

Səhmləri müstəqil surətdə özgəninkiləşdirilə bilən cəmiyyət açıq tipli səhmdar cəmiyyəti hesab edilir. Bu cəmiyyətin iştirakçıları öz səhmlərini digər səhmdarların razılıgı olmadan müstəqil surətdə özgəninkiləşdirmək hüququna malikdirlər.

Səhmləri yalnız təsisçilər arasında bölüşdürülən və təsisçilərin əksəriyyətinin razılığı ilə özgəninkiləşdirilə bilən cəmiyyət qapalı tipli səhmdar cəmiyyəti hesab edilir.

25˙ Məhdud məsuliyyətli cəmiyyətin mahiyyəti haqqında bəhs edin .

Nizamnamə kapitalının təşkili, artırılması və azaldılmasının həyata keçirilməsi qaydalarını izah edin.(20bal)

Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalı yalnız onun tam ödənilməsindən sonra bu Məcəllədə və cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada cəmiyyətin əmlakı hesabına iştirakçıların nizamnamə kapitalındakı mayalarının dəyərinə mütənasib şəkildə artırılması və (və ya) iştirakçılar tərəfindən əlavə mayaların qoyulması vasitəsi ilə və (və ya) cəmiyyətə qəbul edilən yeni iştirakçıların mayaları hesabına artırıla bilər.

Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının cəmiyyətin əmlakı hesabına artırılması cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada cəmiyyətin ümumi yığıncağının qərarı ilə həyata keçirilir. Belə qərar yalnız cəmiyyətin ötən il üçün *maliyyə hesabatlarının* göstəriciləri əsasında qəbul edilə bilər. Nizamnamə kapitalının cəmiyyətin əmlakı hesabına artırılan miqdarı cəmiyyətin xalis aktivlərinin dəyəri, nizamnamə kapitalının miqdarı və cəmiyyətin ehtiyat fondu arasındakı fərqi keçməməlidir. Cəmiyyətin nizamnamə kapitalı bu maddədə müəyyən edilmiş qaydada artırıldıqda iştirakçıların mayalarının məbləği dəyişmədən bütün iştirakçıların mayalarının nominal dəyəri proporsional surətdə artır.

Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iştirakçıların əlavə payları hesabına artırılması cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada cəmiyyətin ümumi yığıncağının qərarı ilə həyata keçirilir. Bu qərarla əlavə payların ümumi dəyəri, həmçinin iştirakçının əlavə payının dəyəri və onun payının nominal dəyərinin artırıldığı məbləğ arasındakı nisbət müəyyən edilməlidir. Həmin nisbət iştirakçının payının nominal dəyərinin onun əlavə payına bərabər və ya ondan az məbləğdə arta biləcəyi nəzərə alınmaqla müəyyən edilir. Hər bir iştirakçı əlavə payların ümumi dəyərindən artıq olmayan, həmin iştirakçının nizamnamə kapitalında olan mayasının məbləğinə proporsional olaraq əlavə pay qoymaq hüququna malikdir. İştirakçılar tərəfindən əlavə paylar, bu barədə ümumi yığıncağın qərarı qəbul edildikdən sonra nizamnamədə və ya ümumi yığıncağın qərarında müəyyən edilmiş müddətdə qoyulmalıdır. Əlavə pay qoymaq üçün müəyyən edilmiş müddətin ötürülməsi nizamnamə kapitalının qeyd edilən üsulla artırılmasının baş tutmamasına səbəb olur.

MM-nin 90.6-cı maddəsində nəzərdə tutulmuş qaydada cəmiyyətin ümumi yığıncağının cəmiyyətin nizamnamə kapitalının artırılması haqqında qərarı iştirakçının (iştirakçıların) əlavə maya qoyulması haqqında ərizəsi və (və ya) əgər nizamnamədə qadağan edilməmişdirsə, üçüncü şəxsin (şəxslərin) onun (onların) cəmiyyətə iştirakçı kimi qəbul edilməsi və maya qoyması haqqında ərizəsi əsasında qəbul edilir. Ərizədə mayaların məbləği və tərkibi, onların qoyulma qaydası və müddəti, iştirakçının və ya üçüncü şəxsin nizamnamə kapitalında malik olmaq istədikləri mayaların məbləği göstərilir. Ərizədə mayaların qoyulmasının və cəmiyyətə daxil

olmanın digər şərtləri də göstərilə bilər. Cəmiyyətin ümumi yığıncağı iştirakçıların ərizəsi əsasında nizamnamə kapitalının artırılması haqqında qərarın qəbul edilməsi ilə eyni zamanda nizamnamə kapitalının məbləğinin və ərizə vermiş iştirakçının mayasının nominal dəyərinin artırılması ilə əlaqədar nizamnaməyə edilən dəyişikliklər haqqında da qərar qəbul edir. Ümumi yığıncaq üçüncü şəxsin ərizəsi əsasında nizamnamə kapitalının artırılması haqqında qərarla yanaşı üçüncü şəxsin cəmiyyətə qəbul edilməsi, onun mayasının nominal dəyərinin müəyyən edilməsi və iştirakçıların mayalarının məbləğlərinin dəyişməsi ilə əlaqədar nizamnaməyə edilən dəyişikliklər haqqında qərar qəbul edir. Cəmiyyətə qəbul edilən üçüncü şəxsin mayasının nominal dəyəri onun payının dəyərinin məbləğinə bərabər və ya ondan az olmalıdır. Əgər nizamnamə kapitalının artırılması baş tutmamışdırsa, cəmiyyət ağlabatan müddətdə iştirakçıların əlavə mayalarını və üçüncü şəxslərin mayalarını müvafiq olaraq geri qaytarmalıdır.

26.Korporativ idare etme anlayışi ve təşkili haqqında bəhs edin.(5bal)

Korporativ idarəetmə - şirkətin rəhbərliyi, müşahidə şurası, səhmdarları və digər maraqlı şəxslər arasında qarşılıqlı münasibətlər kompleksidir. Korporativ idarəetmə sistemi şirkətin idarə edilməsi və ona nəzarət üçün nəzərdə tutulmuş struktur və proseslərdən ibarət olub, əsas məqsədi şirkətlərdə ədaləti, şəffaflığı və qarşılıqlı cavabdehliyi təşviq etməklə davamlı inkişafa nail olmaqdır.

Effektiv korporativ idarəetmə sistemi daha yaxşı nəzarət və strateji planlaşdırma, əməliyyat risklərinin və məhkəmə çəkişmələrinin azalması deməkdir. Bu sistemin tətbiqi şirkətlərdə şəffaflığı təmin etməklə şirkətlərin beynəlxalq nüfuzunu artırır, investisiyaların cəlb olunmasını asanlaşdırır, cəlb olunan kapital üzrə xərcləri azaldır.

Bununla belə, korporativ idarəetmə sadəcə prosedur və qaydalardan ibarət deyil. Bu, idarəetməyə fərqli baxışdır: “öz maraqlarını digərlərinin maraqlarında görmək bacarığıdır”.

Son illər dünya iqtisadiyyatında korporativ idarəetmənin əhəmiyyəti davamlı olaraq artır. Xüsusilə, inkişaf etmiş qərb ölkələrində baş vermiş irimiqyaslı böhran şirkətləri bu sahəyə diqqət ayırmağa sövq etmişdir. Əvvəllər investorlar şirkətlərin rəqabətqabiliyyətliyini, maliyyə vəziyyətini daha çox diqqət mərkəzində saxlayırdılarsa, hazırda korporativ idarəetmə indeksi daha aktual məsələyə çevrilmişdir və ona görə də investisiya cəlb etməyə çalışan şirkətlər ilk öncə korporativ idarəetmə sistemlərini təkmilləşdirməyə çalışmalıdırlar.

Dünya iqtisadiyyatına sürətlə inteqrasiya edən ölkələrdə yerli şirkətlərin beynəlxalq miqyasda rəqabət qabiliyyətliyini artırmaq, idxalatçı ölkədən ixracatçı ölkəyə çevrilmək, ölkənin investisiya cəlbediciliyini artırmaq istiqamətində aparılan dövlət siyasətini daha səmərəli təşkil etmək məqsədilə korporativ idarəetmə institutları yaradılır.

İqtisadiyyat Nazirliyi ölkədə fəaliyyət göstərən təsərrüfat subyektləri üçün müasir korporativ idarəetmə sistemi modelinin hazırlanması və tətbiqi ilə bağlı aidiyyatı dövlət orqanları ilə birlikdə müvafiq tədbirlər görür və dövlət aktivlərinin səmərəli idarə edilməsi və korporativ idarəetmə sahəsində dövlət siyasətinin formalaşması və həyata keçirilməsinə dair təkliflər hazırlayır, korporativ idarəetmə sahəsində normativ-hüquqi bazanın hazırlanmasında iştirak edir.

Nazirliyin bu sahədə əsas vəzifələrindən biri də inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsini öyrənməklə müasir korporativ idarəetmə sistemlərinin hazırlanması və tətbiqi, beynəlxalq əməkdaşlığın qurulması istiqamətində müvafiq tədbirləri həyata keçirməkdir.

27.Korporativ huquqda fidius öhdəliklər anlayisi.(5bal)

Azərbaycanda korporativ münasibətlər inkişaf etdikcə “fidusiar öhdəliklər” terminina tez-tez rast gəlinir. Mülki hüquq doktrinasında fidusiar hüquqi münasibətlərin etibar edən və etibarlı şəxslərin arasında formalaşdığı hesab edilir. Bu yanaşma roman-alman hüquq sistemi ölkələrinə xasdır. İngilis-amerikan hüquq sistemində fidusiar öhdəliklər (münasibətlər) özündə yalnız nümayəndəlik (etibarlılıq) münasibətləri deyil, həmçinin birinin digəri üzərində səlahiyyət (hakimiyyət) münasibətlərini əhatə edir.

“Fidusiya” anlayışı qədim Romada əmələ gəlib və etibar əsasında qurulmuş hərəkəti ifadə edirdi. Sonradan ingilis-amerikan hüquq sisteminə aid ölkələrdə bu bu konsepsiyanın tətbiq dairəsi genişləndi.

Fidusiar öhdəliklər anlayışı hüququn müxtəlif sahələrində tətbiq edilirdi və korporativ hüquqda da fidusiar öhdəliklər institutu formalaşaraq inkişaf etdi. Fidusiar münasibətlər geniş şəxslər dairəsində formalaşır. Etibarlı öz etibar edəni, agent öz prinsipalı, direktor öz şirkəti ilə münasibətdə fidusiar hesab olunurlar. ABŞ və İngiltərə korporativ hüquqlarında müəyyən hallarda “nəzarətçi” səhmdarlar şirkətə və minoritar səhmdarlara qarşı fidusiar vəzifələr daşıyırlar.

Beləliklə, bir şəxsin əmlakı, əmlak hüquqları üzərində və ya onun hüquqlarının icrası üzərində digər şəxsin və ya şəxslərin hakimiyyəti (ixtiyarı, səlahiyyəti) mövcuddursa, həmin şəxslər (ikinci şəxs) fidusiar hesab edilir. Fidusiar ona verilmiş səlahiyyətlər çərçivəsində öz mülahizəsinə əsasən, lakin digər şəxsin (təmsil olunan) maraqları (mənafeyi) naminə hərəkət edən və digər

şəxsin hərəkətlərinə və ya iradəsinin formalaşmasına təsir etmək və idarə etmək imkanına malikdir. Məsələn, şirkətin əmlakı, hüquqları və həmin hüquqların icrası üzrə səlahiyyət şirkətin rəhbərinə (icra orqanı, direktorlar şurası) məxsusdur. Bununla yanaşı, korporativ idarəetmə çərçivəsində fidusiarların (direktorlar şurası, rəhbərlər) fəaliyyəti üzərində tam nəzarətin mümkün olmaması qanunvericilik tərəfindən həmin şəxslərin (fidusiarların) məsuliyyətləri ilə balanslaşdırılmalıdır.

ABŞ və İngiltərə korporativ hüquqları, əsasən, şirkətlərin direktorlar şurasının üzvlərinin fidusiar öhdəliklərinə böyük diqqət ayırır. Lakin eyni prinsip və yanaşma şirkətin idarə heyətinə və təkbaşçı rəhbərinə də tətbiq edilir. İngilis-amerikan hüquq doktrinasına əsasən şirkətin rəhbər şəxsləri xüsusi fidusiar öhdəliklər daşıyırlar. Şirkət rəhbərlərinin hərəkətləri şirkətin öz hərəkəti hesab edilir və o, (rəhbər) şirkətin əmlakı üzərində tam səlahiyyətə malikdir. Bununla yanaşı, rəhbərlərin tək məqsədi əmlakın tam qorunması və risklərdən çəkinməkdən ibarət deyil, onun məqsədi (fəaliyyətinin mahiyyəti) şirkətin uğurlu biznes fəaliyyətini təmin etməkdir. Biznes isə özündə, sözsüz ki, riski ehtiva edir.

İngiltərə korporativ hüququnda da direktorlar fidusiar öhdəlik daşıyırlar.
İngiltərə şirkətlər qanununda direktorun üzərinə aşağıdakı öhdəliklər qoyulur:

- öz səlahiyyətləri çərçivəsində hərəkət etmək;
- şirkətin uğurlu olmasını təmin etmək;
- öz qərarlarında tam müstəqil olmaq;
- işində peşəkarlıq, diqqətlilik və ehtiyat nümayiş etmək;
- maraqların toqquşmasının yaranmasının qarşısını almaq və aidiyyəti şəxslərə əqdlər haqqında məlumat vermək;

- Öz əlverişli vəziyyətindən sui-istifadə etməsi.

Səlahiyyət çərçivəsində hərəkət etmək vəzifəsi nəzərdə tutur ki, rəhbərlər şirkətin müəyyən etdiyi qaydalar (normalar) çərçivəsində hərəkət etməli və yalnız önə verilmiş səlahiyyətləri icra etməlidirlər.

Şirkətin uğurlu olmasını təmin etmək vəzifəsi nəzərdə tutur ki, rəhbər şəxslər şirkətin bütün iştirakçılarının xeyri (faydası) naminə öz mülahizəsinə uyğun vicdanla hərəkət etməlidir. Həmçinin rəhbər şəxslər qəbul etdiyi qərarların nəticəsini, işçilərin maraqlarını, digər kontragentlər və müştərilər ilə münasibətlərini və şirkətin nüfuzunun qorunmasını nəzarətdə saxlamalıdırlar.

Öz qərarlarında müstəqil olmaq vəzifəsi nəzərdə tutur ki, qanunvericilik və ya şirkətin qaydaları ilə müəyyən edilən hallar istisna olmaqla, rəhbər şəxsin qərarları heç bir şəxsin mövqeyi ilə bağlı olmamalıdır. Fidusiar münasibətlərin əsasını məhz fərdi mülahizə və müstəqil qərar vermək kimi amillər təşkil edir. Bu xüsusiyyətlər olmadan şəxsi fidusiar hesab etmək olmaz. Gəlir əldə etməməlidir. Beləliklə, bütün yuxarıda sadalananları üç əsas öhdəliklə cəmləşdirmək olar:

- öz mülahizəsinə uyğun hərəkət etmək;
- şirkətə, onun səhmdarlarına, kreditorlarına və işçilərinə qarşı zəruri loyal (sadiq) və vicdanlı olmaq;
- zəruri ehtiyatla hərəkət etmək.)

28. İƏİT-in korporativ idarəetmə prinsipləri haqqında bəhs edin.(10bal)

Korporativ hüquq prinsiplərini korporativ hüquqi münasibətlərin tənzimlənməsinin əsasında duran obyektiv qanunauyğunluqlar hesab etmək olar. Bütün korporativ normalar korporativ hüququn prinsiplərinə əsaslanmalıdır.Şirkətin ayrıca şəxsiyyətə malik olması, ayrıca əmlaka sahib olması və hüquqi və fəaliyyət qabiliyyətinə malik olması kimi prinsiplər barədə qeyd etmişik. Korporativ hüquqi münasibətlərin iştirakçılarının maraqlarının qorunması müəyyən prioritetlər əsasında qurulmalıdır və şirkətin maraqları ayrı-ayrı iştirakçıların maraqlarından daha üstün hesab edilməlidir.Şirkətin inkişafı, gəlir əldə etmək, biznesin uzunmüddətli sabitliyini təmin etmək şirkətin maraqlarına daxildir. Səhmdarların marağının şirkətdən gəlirin alınmasından ibarət olduğunu nəzərə alaraq gəlirin bölüşdürülməsində iki əks məqsəd - dividendin ödənilməsi və biznesin inkişafı - arasında səmərəli balans qorunub saxlanılmalıdır. Kapitalın qorunması, onun artırılması və optimal istifadə olunması ilə ifadə olunan səhmdarların (iştirakçıların) maraqlarının qorunması şirkətin bütün idarəetmə orqanları arasında nəzarət və hesabatın şaquli bölünməsi ilə şərtlənir.Səhmdarların səs çoxluğu ilə qəbul edilən qərarlar səhmdarların hər biri üçün və digər idarəetmə orqanları üçün mütləqdir. Şirkətin rəhbər şəxsləri öz səlahiyyətlərini lazımi diqqət və qayğı dərəcəsi ilə və yüksək peşəkarlıqla həyata keçirməlidirlər.Rəhbər şəxslər biznesin inkişaf prosesinin vacib amili məhz maliyyə vəsaitlərin mövcudluğudur.Məsələn, fəaliyyət sahəsinin genişləndirilməsi, yeni avadanlığın alınması, məhsul çeşidinin artırılması üçün şirkətlər əldə etdikləri mənfəəti dividendin ödənilməsinə deyil, biznesin inkişafına yönəldə bilərlər.Bu prinsip öz əksini MM-nin 49-cu maddəsində

tapmışdır.qərarın qəbulu ilə bağlı bütün riskləri rasional surətdə nəzərə almaqla qərarları tam (dolğun) informasiya əsasında qəbul etməli və əmin olmalıdırlar ki, qərar şirkətin maraqlarına ən yaxşı şəkildə cavab verir. Bu tələblərin pozulması nəticəsində şirkətə dəyən ziyanın ödənilməsi üçün şirkətin rəhbər şəxsləri məsuliyyətə cəlb oluna bilərlər.Şəxslər korporativ formasında sahibkarıq"birliyi" yaratdıqda və ya sonradan korporasiyaya daxil olduqda könüllü olaraq çoxluğun iradəsinə tabe olmaq öhdəliyini qəbul etmiş olurlar, bu da öz əksini şirkətin idarəetməsində, səsvermədə və qərarların qəbulunda tapır.Şəxs hər hansı bir şirkətə daxil olduqda o, öz üzərinə həmin korporasiyada müəyyən olunmuş qayda və normalara tabe olmaq zərurətini daşıyan məhdudiyyətlər qoyur.Çoxluğun iradəsinə tabe olmaq prinsipi istənilən korporasiyanın əsasında dayanır. Bununla yanaşı, korporasiyanın minoritar iştirakçılarının hüquqlarının pozulması ilə oradakı üzvlük faktının qoyduğu məhdudiyyətləri fərqləndirmək lazımdır.İlk növbədə, korporasiyada qəbul olunmuş qaydalar və qərarlar qanunvericiliyə zidd olmamalıdır. İkincisi, iştirakçı korporasiyanın bu və ya digər qərarı ilə razılaşmadıqda onun tərkibindən mümkün qədər az itkilərlə çıxmaq hüququna malik olmalıdır. Şirkət ayrıca hüquqi şəxsiyyətə malikdir. 2. Ümumi qaydaya görə şirkət tam hüquqi və fəaliyyət qabiliyyətinə malikdir. 3. Şirkətin əmlakı səhmdarların əmlakından ayrıdır. 4. Şəxsin şirkətin səhmlərinə (payına) sahib olma faktı onu şirkətin əmlakının mülkiyyətçisi və ya sahibi etmir. 5. Şirkət (şirkətin əmlakı) səhmdarların ümumi paylı əmlakı deyil. 6. Şirkətin rəhbər şəxsləri şirkətin maraqlarına uyğun hərəkət etməlidirlər. 7. Şirkətin maraqları ayrı-ayrı səhmdarların maraqlarından üstün olmalıdır. 8. Minoritar səhmdarların hüquqları qorunmalıdır. Məlum oldugu kimi, səhmdar cəmiyyətlər mojaritar və minoritar cəmiyyətlər olmaqla iki yerə ayrılır. Mojaritar səhmdarlar üstün faizlə daha çox paya sahib olanlardır. Minoritar səhmdarlar isə kiçik faizlə, bəzən hətta 0.1 faizlə pay ala bilirlər.

29.Korporativ münasibətlər biznes hüququnun predmeti kimi.(10bal)

Korporativ hüquq – kommersiya hüququ institutu olaraq, özündə hüquqi şəxsin təsis olunmasını və fəaliyyəti ilə bağlı münasibətlərin hüquqi nizamlanmasının xüsusi və ümumi metodlarını, davranış norma və qaydalarının vəhdətini təşkil edir.

Bu, hüquqi şəxslərin statusunu, fəaliyyətini və yaradılmasını tənzimləyən, eləcə də korporativ münasibətlərin bütün iştirakçıları üçün mütləq olan və dövlət məcburiyyətinin təsiri ilə qorunan hüquq normaları sistemidir. Həmçinin, korporasiyanın idarəetmə orqanları tərəfindən müəyyən edilən, onların üzvlərinin iradəsini əks etdirən, korporasiyanın bütün iştirakçıları üçün mütləq olan və korporativ məcburiyyət gücü ilə qorunan, onun yetərsizliyi zamanı isə dövlət məcburiyyəti gücü ilə qorunan normaların cəmidir.

Korporativ hüquq elmi biliklərin bir sahəsi kimi özündə korporativ normaların, doktrinal tədqiqatların, eləcə də əsas anlayışların təyini, korporativ münasibətlərinin hüquqi tənzimləməsi prinsipləri, nəzəriyyələri və korporativ hüququn predmeti olan tətbiqi baxışların işlənib hazırlanması da daxil olmaqla korporativ hüquqi münasibətləri birləşdirir.

Korporativ hüquq elmi dedikdə təşkilatın hüquqi tənzimlənməsi və korporasiyanın fəaliyyəti haqda olan dinamik inkişaf edən bilik sahəsi (sistemi) başa düşülür. O, korporasiyanın yaranması və fəaliyyəti, korporativ münasibətlərin mahiyyəti ilə bağlı olan obyektiv qanunauyğunluqları öyrənir.

KOB nümayəndələri müraciət edərək peşəkar və hüquq çərçivəsində sahibkarlıq fəaliyyətlərini qurmaq üçün tələb edilən ilkin bilik və bacarıqlar, şirkətlərin təşkilatı-hüquqi formaları, qeydiyyatı və idarəetməsi ilə yanaşı, öhdəlik, müqavilə hüququ, biznes hüququ, işəgötürmənin hüquqi əsasları, MMC-lərin yaradılması üçün elektron müraciət, fərdi sahibkarlıqdan MMC-yə keçid və bəzi mühüm digər məsələlər üzrə biliklər veriləcəkdir.

Korporativ hüquq - mülki hüququn bir sahəsi olmaqla, kommersiya hüquqi şəxslərin yaradılması və fəaliyyəti ilə əlaqədar əmələ gələn ictimai münasibətləri tənzimləyən hüquqi normalar məcmusudur.

Korporativ hüquq anlayışına iki fərqli tərif vermək olar:

1. Geniş mənada korporativ hüquq - təsərrüfat cəmiyyətləri və ortaqlıqlarının yaradılması və fəaliyyəti qaydalarını, hüquqi statusunu tənzimləyən hüquqi normalar məcmusudur.

2. Məhdud mənada korporativ hüquq - sahibkar və ya kommersiya təşkilatının rəhbərliyi tərəfindən müəyyən edilən və həmin təşkilatın daxili hüquq münasibətlərini tənzimləyən qaydalar sistemidir.

Korporativ hüququn sahə mənsubiyyətinə gəldikdə isə bu barədə mütəxəssislər tərəfindən müxtəlif fikirlər irəli sürülmüşdür. Əsasən mülki və sahibkarlıq hüquq sahəsinə aid edilməklə bərabər, bəziləri tərəfindən hüquq sisteminin müstəqil sahəsi olduğu da qeyd edilmişdir.

Korporativ hüququn predmeti: Korporativ hüququn predmeti korporativ hüquq münasibətləridir. Korporativ hüquq münasibətləri dedikdə, hüquqi şəxsin yaradılması və fəaliyyəti ilə əlaqədar yaranan və aidiyyəti hüquq normaları ilə tənzimlənən ictimai münasibətlər nəzərdə tutulur.

Eyni zamanda, korporativ hüquq münasibətlərinin tərkibinə əmlak münasibətləri ilə yanaşı, təşkilati-idarəetmə münasibətləri də daxildir.

30.İddia müddətinin anlayışı haqqında bəhs edin. İddia müddətinin axımı hansı hallarda dayandırıla bilər.(5bal)

Başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir. İddia müddətinin anlayışı Mülki Məcəllənin (MM) 372.2-ci maddəsində göstərilib.Həmin anlayışda qeyd edilir ki, hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət iddia müddəti sayılır.

İddia müddətinin axımı şəxsin öz hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu gündən başlanır.İcra müddəti müəyyənləşdirilmiş öhdəliklər üzrə iddia müddətinin axımı icra müddəti bitdikdə başlanır.

Öhdəlikdə şəxslərin dəyişilməsi iddia müddətinin və onun hesablanması qaydasının dəyişilməsinə səbəb olmur.

Mülki Məcəllə ilə iddia müddətləri müəyyənləşdirilib. Ümumi iddia müddəti on il təşkil edir. Müqavilə tələbləri üzrə iddia müddəti üç il, daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə iddia müddəti isə altı ildir. Vaxtaşırı icra edilməli öhdəliklərdən irəli gələn tələblər üzrə iddia müddəti üç ildir. İddia müddətinin axımı aşağıdakı hallarda dayandırıla bilər:

- iddianın irəli sürülməsinə fövqəladə və həmin şəraitdə qarşısı alına bilməyən hal (qarşısıalınmaz qüvvə) mane olduqda;
- iddiaçı və ya cavabdeh hərbi vəziyyətə keçirilmiş silahlı qüvvələrin tərkibində olduqda;
- müvafiq icra hakimiyyəti orqanı öhdəliklərin icrası üçün möhlət (moratorium) müəyyənləşdirdikdə;
- fəaliyyət qabiliyyəti olmayan şəxsin qanuni təmsilçisi olmadıqda;
- müvafiq münasibəti tənzimləyən qanunun və ya digər normativ hüquqi aktın qüvvəsi dayandırıldıqda.

İddia müddətinin axımı bir şərtlə dayandırılır ki, yuxarıda göstərilmiş hallar iddia müddətinin son altı ayında, həmin müddət altı aya bərabər və ya altı aydan az olduqda isə iddia müddəti ərzində əmələ gəlsin və ya mövcud olmaqda davam etsin. Müddətin dayandırılmasına əsas vermiş halın sona çatdığı gündən müddətin axımı davam edir. Müddətin qalan hissəsi altı aya qədər uzadılır, iddia müddəti altı aya bərabər və ya altı aydan az olduqda isə iddia müddətinə qədər uzadılır.

Nikahın mövcud olduğu dövrdə ərlə arvad arasındakı tələblər üzrə iddia müddətinin axımı dayandırılır.Uşaqlar yetkinlik yaşına çatanadək uşaqlarla valideynlər arasındakı tələblər üzrə, habelə bütün qəyyumluq dövründə qəyyumlarla (himayəçilərlə) qəyyumluqda (himayədə) olanlar arasındakı tələblər üzrə də eyni qayda tətbiq edilir.Əgər tələbi qanuni təmsilçisi olmayan məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan şəxs irəli sürürsə, iddia müddəti həmin şəxs tam fəaliyyət qabiliyyətli olanadək və ya onun üçün təmsilçi təyin edilənədək dayandırılmış sayılır.

Müəyyənləşdirilmiş qaydada iddia irəli sürüldükdə, habelə borclu şəxs borcu etiraf etməsini göstərən hərəkətlər etdikdə iddia müddətinin axımı kəsilir.Fasilədən sonra iddia müddəti yenidən başlanır.Fasiləyə qədər keçmiş vaxt yeni müddətə daxil edilmir.

Əgər iddia məhkəmə tərəfindən baxılmamış saxlanmışdırsa, iddia irəli sürülənədək başlanmış iddia müddətinin axımı ümumi qaydada davam edir.Əgər cinayət işində irəli sürülmüş iddia məhkəmə tərəfindən baxılmamış saxlanmışdırsa, iddia irəli sürülənədək başlanmış iddia müddətinin axımı iddianı baxılmamış saxlayan hökm qanuni qüvvəyə minənədək dayandırılır.Müddətin dayandırıldığı vaxt iddia müddətinə daxil edilmir. Bu zaman müddətin qalan hissəsi altı aydan az olduqda altı aya qədər uzadılır.

Bəzi hallarda iddia müddəti ötürülə bilər.Bu zaman iddia ilə müraciət etmək istəyən şəxs ilk öncə iddia müddətini bərpa etməlidir.İddia müddətinin ötürülməsinin üzrlü sayılmasının, yəni bərpasının da özünəməxsus halları var. İddiaçının şəxsiyyəti ilə bağlı hallara görə (ağır xəstəlik, köməksiz vəziyyət, savadsızlıq və i.a.) iddia müddətinin ötürülməsi səbəbini məhkəmənin üzrlü saydığı müstəsna hallarda fiziki şəxsin pozulmuş hüququ müdafiə edilməlidir. İddia müddətinin ötürülməsi səbəbləri iddia müddətinin son altı ayında, həmin müddət altı aya bərabər və ya altı aydan az olduqda isə iddia müddəti ərzində baş verdikdə üzrlü sayıla bilər. Bir sıra tələblərə iddia müddəti şamil edilmir:

• şəxsi qeyri-əmlak hüquqlarının və digər qeyri-maddi nemətlərin müdafiəsi haqqında tələblər;

• əmanətlərin verilməsi haqqında əmanətçilərin banka tələbləri;

• fiziki şəxsin həyatına və ya sağlamlığına vurulmuş zərərin əvəzinin ödənilməsi haqqında tələblər. Lakin bu cür zərərin əvəzinin ödənilməsi hüququnun əmələ gəldiyi andan üç il bitdikdən sonra irəli sürülmüş tələblər ən çoxu iddia irəli sürülməzdən əvvəlki üç il üçün ödənilir;

• mülkiyyətçinin və ya digər sahibin onun hüququnun hər cür pozuntularının aradan qaldırılması haqqında tələbləri, özü də bu pozuntular sahiblikdən məhrumetmə ilə birləşdirilmiş olmasa belə;

• dövlət və ya bələdiyyə orqanının və ya onların vəzifəli şəxslərinin əmlaka sahiblik, ondan istifadə və ya ona dair sərəncam üzrə mülkiyyətçinin hüquqlarını pozmuş aktının etibarsız sayılması haqqında mülkiyyətçinin tələbləri;

31.Əqdlərin formaları haqqında bəhs edin.(5bal)

Əqd bağlanarkən iradənin ifadə üsulu əqdin forması adlanır. Əqdin etibarlı olması üçün qanunvericiliklə müəyyənləşdirilmiş formaya riayət edilməsi zəruridir. Belə forma müəyyənləşdirilməyibsə, tərəflər onu özləri müəyyənləşdirə bilərlər.

Əqdlər şifahi və ya yazılı formada bağlanır. Şifahi bağlana bilən əqd o halda bağlanmış sayılır ki, şəxsin əqdi bağlamaq iradəsi onun rəftarından məlum olur.

Mülki Məcəllənin 330-cu maddəsinə əsasən, bu Məcəllə ilə və ya tərəflərin razılaşması ilə yazılı forması müəyyənləşdirilməmiş əqd şifahi bağlana bilər. Əgər tərəflərin razılaşmasında ayrı qayda müəyyənləşdirilməyibsə, bağlanarkən icra edilən bütün əqdlər şifahi bağlana bilər, amma notarial forması müəyyənləşdirilmiş əqdlər və sadə yazılı formasına riayət edilməməsi etibarsızlığına səbəb olan əqdlər istisna təşkil edir.

Yazılı əqd onun məzmununu ifadə edən və əqdi bağlayan şəxs və ya şəxslər və ya onların lazımınca vəkil etdikləri şəxslər tərəfindən imzalanmış sənədin tərtibi yolu ilə bağlanmalıdır.

Yazılı formada əqdin bağlanmasının aşağıdakı müsbət cəhətləri vardır:

1.Yazılı formada bağlanması şifahiyə nisbətən əqdin məzmununu daha geniş açır;

2. Mülki dövriyyənin işirakçılarına öz iradələrini dəqiq ifadə etməyə və müqaviləni dəqiq yerinə yetirməyə imkan verir;

3. Əqddən irəli gələn öhdəliklərin tərəflərdən birinin yerinə yetirməməsi hallarını aradan qaldırmaq üçün məhkəmənin işini yüngülləşdirir.

Yazılı əqdlər də iki cür olur: sadə əqdlər və notarial qaydasında təsdiq edilməli olan əqdlər. Sadə yazılı formada bağlanan əqdlərdə müqavilə üçün lazım olan bütün rekvizitlər – tərəflərin adları, əqdin məzmunu, iştirakçıların imzaları göstərilməlidir. Bu cür əqdlərin etibarlı olması üçün əqddə iştirak edən şəxslərin mütləq imzaları olmalıdır. Əgər fiziki şəxs bədən qüsuruna, xəstəliyinə və ya savadsızlığına görə əqdi özü imzalaya bilmirsə, əqdi onun xahişi ilə başqa fiziki şəxs imzalaya bilər. Başqa fiziki şəxsin imzası əqdi bağlayanın özünün imza edə bilməməsinin səbəbləri göstərilməklə, notarius tərəfindən və ya bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxs tərəfindən təsdiqlənməlidir.

Elə dövlət hüquqi şəxsləri var ki, onların bağladığı əqdlər iki imza ilə - müdirin (direktorun, rəisin və s.) və baş mühasibin imzası ilə təsdiq olunmalıdır. Məktub və ya teleqramlarla mübadilə, sifarişin qəbul olunmasının təsdiq edilməsi də sadə yazılı əqdlərə aiddir.

Əqdin sadə yazılı formasına riayət edilməməsi mübahisə halında əqdi və onun şərtlərini təsdiq etmək üçün tərəfləri şahid ifadələrinə istinad etmək hüququndan məhrum edir, lakin yazılı və digər sübutlar təqdim etmək hüququndan məhrum etmir. Qanunvericiliklə müəyyən edilmiş hallarda əqdin sadə yazılı formasına riayət edilməməsi onun etibarsızlığına səbəb olur.

Notarial formanın sadə yazılı formadan fərqi ondan ibarətdir ki, əqdin notariat qaydasında təsdiqlənməsi yazılı sənəddə notariusun və ya bu cür notarial hərəkəti yerinə yetirməyə hüququ çatan digər vəzifəli şəxsin təsdiqləyici qeyd etməsi yolu ilə həyata keçirilir.

Əqdin notarial formasına riayət edilməməsi onun etibarsızlığına səbəb olur. Bu cür əqd əhəmiyyətsiz sayılır.

Bir sıra hallarda yazılı formaya riayət etməkdən başqa, həm də əqdin müəyyən dövlət orqanında qeydiyyata alınması tələb olunur. Qeydiyyatdankeçmə başlıca olaraq əqdin məzmununun qanuniliyini yoxlamaq, həmçinin, əqddən əmələ gələn hüquqların qeydiyyata alınması məqsədi daşıyır. Əqddən irəli gələn hüquqların dövlət qeydiyyatına alınması tələbinə riayət edilməməsi onun etibarsızlığına səbəb olur. Bu cür əqd əhəmiyyətsiz sayılır.

Əgər əqd lazımi formada bağlanmışsa, lakin tərəflərdən biri əqddən əmələ gələn hüquqların qeydiyyatından boyun qaçırırsa, digər tərəfin tələbi ilə məhkəmənin həmin hüquqların qeydə alınması barədə qərar çıxarmaq ixtiyarı vardır. Bu halda əqddən əmələ gələn hüquqlar məhkəmənin qərarına uyğun qeydə alınır (Mülki Məcəllənin 336.2-ci maddəsi).

32. Əqdlərin anlayşı və növləri haqqında bəhs edin.(10bal)

Əqd mülki hüququn əsas anlayışlarından biridir.

Mülki hüquqda əqd dedikdə, mülki hüquq münasibətlərinin əmələ gəlməsinə (və ya dəyişməsinə və yaxud xitam edilməsinə) səbəb olan əsas başa düşülür.

Əqdlər insanların yaşamasını və mövcudluğunu təmin edən başlıca vasitədir. Dünyada hər gün fiziki və hüquqi şəxslərin iştirakı ilə milyonlarla əqd (alqı-satqı, pərakəndə ticarət, məişət xidməti, kirayə, icarə, bağışlama, daşıma və digər Əqdlər) bağlanılır. İnsan cəmiyyəti özünün yaşamasına görə necə deyərlər, məhz əqdlərə «minnətdar olmalıdır». Əqdlərsiz insan cəmiyyətinin mövcudluğu mümkün deyildir.

Əqdlər hüquqa uyğun olmalıdır, hüquqazidd olmamalıdır.

Əqdlər iradəvi hərəkətdir. Şəxslərin iradəsi ilə bağlı olmayan hərəkət əqd sayılmır.

Əqdlər xüsusi olaraq müəyyən hüquqi nəticə əldə olunmasına yönələn hərəkətdir. Hüquqi nəticə dedikdə, mülki hüquq münasibətlərinin yaranması, dəyişməsi və ya xitam olunması başa düşülür.

Əqddə iştirak edən tərəflərin sayına görə əqdin üç növü fərqləndirilir:

- birtərəfli əqdlər;

• ikitərəfli əqdlər; • çoxtərəfli əqdlər. Birtərəfli əqdlər odur ki, onların bağlanması üçün yalnız bir tərəfin iradə ifadəsi kifayətdir. Bu əqdlərdə ancaq bircə tərəfin iradəsi ifadə olunur. Məsələn, vəsiyyət etmək və ya etibarnamə vermək birtərəfli əqdlərə misaldır.

İkitərəfli əqdlər odur ki, bu Əqdlərin bağlanması üçün iki tərəfin iradə ifadəsi tələb olunur. Məsələn, alqı-satqı, kirayə, icarə, daşıma, borc, kredit və digər müqavilələr ikitərəfli əqdlərə misal ola bilər.

Çoxtərəfli əqdlər odur ki, bu Əqdlərin bağlanması üçün ikidən çox tərəfin razılaşdırılmış iradə ifadəsinin olması tələb edilir. Bu növ Əqdlərin bağlanmasında ikidən çox tərəf iştirak edir. Məsələn, hüquqi şəxsin yaradılması üçün üç şəxs təsis müqaviləsi bağlayırlar.

Mülki hüquq elmində və qanunvericilikdə ikitərəfli və ya çoxtərəfli əqdləri müqavilələr adlandırırlar.

Əqdlər əvəzli olmaq əlamətinə görə iki yerə bölünür:

• əvəzli əqdlərə; • əvəzsiz əqdlərə.

Əvəzli əqdlərdə müvafiq tərəf əvəz almaqla, əvəzsiz Əqdlər- də isə əvəz almadan öz vəzifəsini icra edir. Alqı-satqı, kirayə, daşıma və digər müqavilələr əvəzli əqdlərə, bağışlama və əvəzsiz istifadə müqavilələri isə əvəzsiz əqdlərə aiddir.

Əqdlər müddətli və şərti əqdlərə bölünürlər.

Əksər hallarda əqdlərdə müddət göstərilir. Belə hallarda əqdin hüquqi nəticələri müəyyən vaxtın kəsilməsi ilə bağlı olur. Əqddə müddət üç məna daşıyır. Başlanğıc müddət əqdin tərəflərinin hüquq və vəzifələrinin yarandığı anı, icra müddəti əqdin yerinə yetirilməsi vaxtını, sonuncu müddət isə əqdin xitam olunduğunu göstərir.

Əqddə müddət müəyyən və qeyri-müəyyən ola bilər. Əgər vaxt dəqiq göstərilməyibsə, onda vəzifəli şəxs (kreditor) istənilən vaxt əqdin icrasını tələb edə bilər.

Əgər tərəflər hüquq və vəzifələrin əmələ gəlməsini baş verib-verməyəcəyi məlum olmayan hallardan asılı etmişlərsə, əqd şərtlə bağlanmış sayılır. pozitiv şərt; neqativ şərt; təxirəsalıcı şərt ləğvedici şərt.

Pozitiv şərt o deməkdir ki, əqd hansısa hadisənin müəyyən müddətdə baş verəcəyi şərti ilə bağlanmışdır.

Neqativ şərt o deməkdir ki, əqd hansısa hadisənin müəyyən müddətdə baş verməyəcəyi şərti ilə bağlanmışdır.

Təxirəsalıcı şərt o deməkdir ki, Əqddə nəzərdə tutulan hüquq və vəzifələrin əmələ gəlməsi gələcəkdə gözlənilən və ya naməlum hadisədən və ya artıq baş versə də, hələlik tərəflərə bəlli olmayan hadisədən asılı olması.

O əqd ləğvedici şərtlə bağlanmış sayılır ki, həmin şərtin baş verməsi əqdin xitamına səbəb olur və əqd bağlananadək mövcud olmuş vəziyyəti bərpa edir.

Real və konsensual əqdlər

Konsensual əqdlər odur ki, bu cür əqdlərin baglanmış hesab edilməsi üçün tərəflərin razılaşması kifayətdir.

Real əqdlər odur ki, tərəflərin razılıgından əlavə, həm də əşya, pul verilsin (dəmiryolu ilə yükdaşıma)

Kauzal və mücərrəd əqdlər

Həqiqiliyi (etibarlılığı) əqdin əsasından asılı olan əqdlərə kauzal (latınca causa - səbəb) əqdlər deyilir. Mülki hüquqda əqdlərin əksəriyyəti kauzal xarakter daşıyır. Kauzal əqdin əsas cəhəti onun hər hansı bir hüquqi məqsəd güdməsindədir. Məsələn, əmlak kirayə müqaviləsinin məqsədi əşyanı istifadəyə qoymaq, borc müqaviləsinin məqsədi isə pulu və ya əşyanı verməkdir. Kauzal əqdlərin hüquqiliyi onun məqsədindən irəli gəlir.

Həqiqiliyi əqdin əsasından asılı olmayan əqdlərə mücərrəd əqdlər deyilir.
Mücərrəd latınca abstrakt sözündəndir, «qoparma», «ayırma» deməkdir. Mücərrəd əqd öz məqsədindən ayrılmış olur. Bu əqdlərə vekseli misal göstərmək olar.

33. Xüsusi əhəmiyyətli əqdlər və aidiyyəti şəxslərlə əqdlərin baglanma qaylarını izah edin.(10bal)

34. Əqdlərin etibarsızlıgı . Əqlərin etibarsız sayılması hansı nəticələrə səbəb olur?(20bal)

Subyekt tərkibinə görə bağlanan əqdlərin etibarsızlığı onunla şərtlənir ki, əqd onu bağlayan şəxslərin hüquq və fəaliyyət qabiliyyətinə uyğun gəlmir. Belə əqdlərin etibarsızhğı çox zaman onların fəaliyyət qabiliyyəti olmayan və ya fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış şəxslər tərəfindən bağlanılması ilə izah olunur. Mülki Məcəllənin 342.1-ci maddəsinə əsasən psixi pozuntu nəticəsində fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin bağladığı əqd etibarsızdır. Belə əqdin tərəflərindən hər biri aldıqlarının hamısını digər tərəfə eynilə qaytarmalı, alınanları eynilə qaytarmaq mümkün olmadıqda isə onun dəyərini pulla ödəməlidir. Bundan başqa, əgər fəaliyyət qabiliyyətli tərəf digər tərəfin fəaliyyət qabiliyyəti olmadığını bilirdisə və ya bilməli idisə, ona dəymiş real zərərin əvəzini də ödəməlidir.

Spirtli içkilərdən və ya narkotik vasitələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılmış fiziki şəxsin öz himayəçisindən razılıq almadan əmlaka dair sərəncam verilməsi barədə bağladığı əqd himayəçinin iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər. Belə qayda yetkinlik yaşına çatmayanlar tərəfindən bağlanmış əqdlərə də şamil edilir. Bu şəxslər yalnız qanunvericiliklə nəzərdə tutulmuş qaydada xırda məişət əqdlərini bağlaya bilərlər.

Hüquqi şəxslərin bağladığı əqdlər aşağıdakı əsaslara görə etibarsız hesab olunur:

1) hüquqi şəxsin hüquq qabiliyyətindən kənara çıxmaqla bağladığı əqdlər; 2) hüquqi şəxsin orqanının öz səlahiyyətlərini aşmaqla bağladığı əqdlər.

Hüquqi şəxsin öz nizamnaməsində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə zidd olaraq bağladığı əqd və ya müvafiq fəaliyyətlə məşğuliyyət üçün xüsusi icazəsi
(lisenziyası) olmayan hüquqi şəxsin bağladığı əqd, əgər əqddə iştirak edən digər tərəfin onun qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu sübuta yetirilərsə, həmin hüquqi şəxsin, onun təsisçisinin və ya hüquqi şəxsin fəaliyyətinə nəzarət edən orqanın iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər. (Mülki Məcəllənin 349-cu maddəsi).

Məzmununa görə əqdlərin etibarsızlığı onun şərtlərinin qanunun tələblərinə uyğun gəlməməsi ilə müəyyən olunur. Burada «qanun» dedikdə, respublikanın qanun və qanun qüvvəli aktları, xüsusilə mülki qanunvericiliyi nəzərdə tutulur. Belə etibarsız əqdlər obyektiv və subyektiv əlamətlərlə xarakterizə olunur. Əqdin hüquqazidd (qanunazidd) xarakteri onun obyektiv əlamətidir. Subyektiv əlamət isə - tərəflərin əqdin hüquqazidd (qanunazidd) olduğunu başa düşdükləri halda, onu bağlamaq və icra etmək niyyətləri olması ilə əlaqədardır.

Formasına görə bağlanan əqdlərin etibarsızlığı onunla şərtlənir ki, qanunla müəyyən olunmuş formaya riayət edilmir. Formanı pozmaqla bağlanmış əqdlər bilavasitə qanunda göstərilmiş hallarda etibarsız sayılır.

35. Etibarnamənin anlayışı, növləri və forması haqqında bəhs edin. Etibarnaməyı xitam verilməsi əsaslarını izah edin.(20bal)

Mahiyyəti

Etibarnamə elə bir yazılı səlahiyyətdir (vəkalət) ki, bu səlahiyyət təmsil olunan adından üçüncü şəxslər qarşısında təmsil olunmaq üçün nümayəndəyə verilir.

Nümayəndəyə verilən səlahiyyətin həcminə və məzmununa görə etibarnamənin üç növü fərqləndirilir:

• ümumi etibarnamə:

• xüsusi etibarnamə:

• birdəfəlik etibarnamə.

Ümumi etibarnamə odur ki. o, nümayəndəyə əhatə dairəsi geniş və müxtəlif olan əqdlərin bağlanmasına və digər hüquqi hərəkətlərin yerinə yetirilməsinə səlahiyyət verir. Ona baş etibarnamə də deyilir. Bu cür etibarnamə, adətən, təmsil olunanın əmlakının idarə olunması və ona sərəncam verilməsi üçün verilir. Uzun müddət xaricə gedən şəxslər məhz baş etibarnamə tərtib edirlər. Nümayəndə istənilən üçüncü şəxs qarşısında nümayəndəlik funksiyasını həyata keçirsin, mümkün olan bütün əqdləri bağlasın və digər hüquqi hərəkətləri yerinə yetirsin. Onun ən geniş yayılmış növü hüquqi şəxs tərəfindən onun filialının müdirinin adına verilən etibarnamə hesab edilir.

Xüsusi etibarnamə odur ki, o, nümayəndəyə müəyyən sahədə və ya eyni növlü bir neçə hüquqi hərəkətin yerinə yetirilməsinə səlahiyyət verir. Məsələn. əmanətçi öz qardaşına əmanətə və onun faizinə sərəncam verilməsi barədə etibarnamə verir və s.

Birdəfəlik etibarnamə odur ki. o, nümayəndəyə yalnız konkret əqd bağlamaq və digər hüquqi hərəkəti yerinə yetirmək üçün səlahiyyət verir. Məsələn, işçi noyabr ayının maaşını almaq üçün qardaşına etibarnamə verir.

Yaranma mənbəyinə görə etibarnamələrin iki növü vardır:

• əsas etibarnamə:

• törəmə etibarnamə.

Əsas etibarnamə dedikdə, hüquqi hərəkət etmək məqsədilə təmsil olunanın nümayəndəyə verdiyi etibarnamə başa düşülür. Törəmə etibarnamə isə odur ki, onu nümayəndə yenidən etibar etmək qaydasında başqa şəxsə verir, yəni etibar edilmiş şəxs başqa şəxsə etibar edir. Nümayəndə yalnız etibarnamədə göstərildikdə və nəzərdə tutulduqda başqa şəxsə etibarnamə verə bilər. Əgər bu, nəzərdə tutulmayıbsa, onun başqa şəxsə etibarnamə vermək hüququ yoxdur. Məsələn, vətəndaş nümayəndəyə mənzilini satmaq üçün etibarnamə verir. Etibarnamədə göstərilir ki. nümayəndə tapşırığın icrasını lazım gəldikdə başqa şəxsə tapşıra bilər. Nümayəndə xəstələnir və o, yenidən etibar etmək qaydasında başqa şəxsə etibarnamə verir. Bu, törəmə etibarnamədir.

Səlahiyyətin məhdud olması əlamətinə görə etibarnamənin iki növü fərqləndirilir:

• məhdud etibarnamə;

• qeyri-məhdud etibarnamə.

Nümayəndəyə yalnız bəzi hüquqi hərəkətlər etmək səlahiyyəti verən və bununla onun səlahiyyətini məhdudlaşdıran etibarnamə məhdud etibarnamə adlanır. Məsələn, xüsusi etibarnamə və ya birdəfəlik etibarnamə bu növ etibarnaməyə aiddir.

Qeyri-məhdud etibarnamə isə odur ki, bu etibarnamə nümayəndəyə istənilən hüquqi hərəkəti etmək səlahiyyəti verir. Baş (ümumi) etibarnamə bu kateqoriya etibarnaməyə aiddir.

36. Müqavilənin anlayışı və əhəmiyyəti haqqında bəhs edin. (5 bal)

Mülki hüquqla tənzimlənən münasibətlər sahəsində tətbiq olunan müqavilələr mülki-hüquqi müqavilələr anlayışı ilə əhatə olunur. Mülki hüquqda «müqavilə» termini, əsasən, üç mənada işlədilir:

- *hüquqi fakt mənasında;*
- *müqavilə öhdəliyi (hüquq münasibəti) mənasında;*
- *sənəd mənasında.*

Hüquqi fakt mənasında müqavilə bir çox xüsusiyyətlərə malikdir.Belə ki, o, hüquqi fakt kimi mülki hüquq və vəzifələr əmələ

gətirir, dəyişdirir və ya xitam edir.Bu baxımdan müqavilələr öhdəlik hüquq münasibətlərinin (öhdəliklərin) əmələ gəlməsini şərtləndirən hüquqi fakt kimi çıxış edir.

Müqavilə tərəflər arasında mülki hüquq münasibətlərinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına, yəni hüquqi nəticə əldə olunmasına yönəldildiyinə görə əqddir.Bu xüsusiyyət əqd kimi müqavilənin birinci əsas əlamətidir.

Müqavilə əqd kimi öhdəlik hüquq münasibətlərinin əmələ gəlmə əsası kimi çıxış edir.Bütün ikitərəfli və çoxtərəfli əqdlər müqavilə hesab edilir.Ona görə də müqavilənin özünə əqdlər və onun forması barədə müvafiq qaydalar tətbiq edilir. Deməli, istənilən hər hansı bir müqavilə həmişə əqddir.Lakin istənilən əqd müqavilə hesab edilmir.Birtərəfli əqdlər müqavilə deyildir.Məsələn, vəsiyyət etmək, miras əmlakdan imtina, etibarnamə vermək, xüsusi mükafatlandırma, müsabiqə, oyunların və mərclərin keçirilməsi və s. birtərəfli əqdlər sayılır və buna görə də müqavilə kateqoriyasına aid edilmir.Ona görə aid edilmir ki, birtərəfli əqdlərdə bir tərəfin iradəsi ifadə olunur.Müqavilələr isə bir tərəfin yox, iki və daha artıq (çox) tərəfin iradə ifadəsinə əsaslanır.Özü də müqavilə onların qarşılıqlı razılaşdırılmış iradə ifadəsini bildirir.Bu, əqd kimi müqavilələrin ikinci əsas əlamətidir.

Beləliklə, bağlanması üçün iki və ya daha çox tərəfin razılaşdırılmış iradə ifadəsi tələb olunan əqdlərə müqavilə deyilir (MM-in 324-cü maddəsinin 4-cü bəndi).

İkinci mənada «müqavilə» termini ilə müqavilə öhdəliyi anlayışı əhatə edilir.Məsələn, icarə öhdəliyi, kirayə öhdəliyi, daşıma öhdəliyi, podrat öhdəliyi və s. Müqavilə öhdəliyi tərəflərin subyektiv hüquq və vəzifələrini nəzərdə tutur, onların həyata keçirilməsini müəyyən edir.Müqavilənin icrası, onu icra etməməyə görə məsuliyyət, müqavilənin qiyməti, müddəti və digər məsələlər müqavilə öhdəliyi ilə həll olunur.Ona görə də bu cür hüquq münasibətinə, yəni müqavilə öhdəliyinə öhdəliklər haqqında ümumi müddəalar tətbiq edilir.

Üçüncü mənada «müqavilə» termini ilə «yazılı sənəd» anlayışı əhatə olunur ki, bu sənəd hüquqi faktı, yəni tərəflərin sazişini, onların hüquq və vəzifələrini obyektiv formada ifadə edir. Başqa sözlə desək, müqavilə dedikdə, elə bir sənəd başa düşülür ki, bu sənəd öhdəlik hüquq münasibətinin əmələ gəlməsi faktını əks etdirir.Sənəd mənasında müqavilə bəndlərin və zəruri formal rekvizitlərin məcmusundan ibarətdir.Bəndlərdə müvafiq müqavilə şərtləri əks olunur.Bundan əlavə, müqavilə (sənəd) öz məzmununda giriş hissəni də əhatə edir.

Müqavilə iqtisadi-hüquqi kateqoriyadır, yəni həm iqtisadi mənada, həm də hüquqi mənada işlədilən kateqoriyadır.Müqavilə hüquq münasibətlərinin formasıdır. O, əmtəə dövriyyəsinin hüquqi rəsmiləşdirmə vasitəsi kimi çıxış edir. Bu baxımdan müqavilə hüquqi kateqoriyadır. O, həm də iradəvi münasibətlərdir ki, bu, iqtisadi münasibətlərin, əmtəə dövriyyəsinin məzmununu ifadə edir. Bu aspektdən isə müqavilə iqtisadi kateqoriya kimi çıxış edir.İqtisadi-hüquqi kateqoriya kimi müqavilə dedikdə, iqtisadi münasibətlərin məzmununu ifadə edən hüquqi rəsmiləşdirmə forması (vasitəsi) başa düşülür.

Müqavilənin əhəmiyyəti və rolu kifayət qədər böyükdür:

1. *Müqavilə, əmtəə istehsalçıları ilə istehlakçıların ümumi iradəsini ifadə edən formadır. Müqavilə onların xüsusi maraq və mənafelərinin balansını əks edən konstruksiyadır.*

2. *Müqavilə, iqtisadi dövriyyədə sabitliyi, mütəşəkkilliyi və qaydanı təmin edir. Müqavilə tərəflərin qarşılıqlı maraq və mənafe prinsipinə əsaslanır. O, hər iki tərəfin mənafeyinin təmin olunmasına imkan verir. Müqavilənin hüdudlarında hər bir tərəfin tələbatı (mənafeyi) yalnız digər tərəfin mənafeyinin təmin olunması vasitəsilə ödənilir.*

3) Müqavilənin əsasında tələb ilə təklif arasındakı zəruri balans təmin edilir, bazar istehlakçının ehtiyacı olduğu mallarla doldurulur. Müqavilə vasitəsilə subyekt, artıq və ya ona lazım olmayan əmlak növlərini özgəninkiləşdirir, bunun müqabilində pul ekvivalenti və ya natural formada zəruri olan əmlak alır.

4) Mülki (əmlak) dövriyyə, bazar münasibətlərinin inkişafı ilə bağlıdır. Bu sahədə müqavilədən əsas hüquqi tənzimetmə alət və vasitələrindən biri kimi istifadə olunur. Belə ki, bazar iqtisadiyyatı şəraitində, habelə əmtəə-pul münasibətlərindən istifadə şəraitində istehsal olunan məhsullar (yəni mal, iş və xidmətlər) əmtəəyə çevrilir. Ona görə ki, onlar satılmaq (realizə edilmək) üçün istehsal olunur.Məhsulun realizəsi isə onu pula və ya başqa mala dəyişmək və mübadilə etmək yolu ilə həyata keçirilir.Müqavilə bu cür mübadilənin obyektiv cəhətdən zəruri və əsas hüquqi formasıdır.

5) Müqavilə, sahibkarlıq fəaliyyətinin tənzimlənməsində mühüm rol oynayır.Sahibkarlıq fəaliyyəti və bu fəaliyyətdə hər hansı bir kommersiya təşkilatının (sahibkar statuslu vətəndaşın) iştirakı məhkəm müqavilə bazası olmadan həyata keçirilə bilməz.Müqavilə sahibkarların müxtəlif iqtisadi əlaqələrinin əsas hüquqi forması kimi çıxış edir.Hər bir kommersiya təşkilatının və sahibkar statuslu vətəndaşın həyata keçirdiyi normal sahibkarlıq fəaliyyətində müqavilə mərkəzi yer tutur.Onlar öz fəaliyyəti prosesində qanuna zidd olmayan istənilən müqavilə bağlaya bilərlər.

6) Müqavilə,əqli mülkiyyət obyektlərinin, yəni əsərlərin, ixtiraların, faydalı modellərin, sənaye nümunələrinin, əmtəə nişanlarının və s. yaradılması və istifadə olunması ilə bağlı əmələ gələn münasibətləri qaydaya salır.

Müqavilə azadlığı prinsipi: fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya və bu müqavilələrin məzmununu müəyyənləşdirə bilərlər. Onlar Mülki Məcəllədə nəzərdə tutulmayan, lakin ona zidd olmayan müqavilələr də bağlaya bilərlər. Müqavilə onun bağlandığı vaxt qüvvədə olan qanunla və digər hüquqi aktlar ilə müəyyənləşdirilmiş, tərəflər üçün məcburi qaydalara (imperativ normalara) uyğun gəlməlidir. Əgər müqavilə bağlandıqdan sonra onu bağlayarkən qüvvədə olmuş qaydalardan fərqlənən, tərəflər üçün məcburi başqa qaydalar müəyyənləşdirən qanun qəbul edilmişsə, bağlanmış müqavilənin şərtləri qüvvəsini saxlayır, amma qanunda onun qüvvəsinin əvvəllər bağlanmış müqavilələrdən əmələ gələn münasibətlərə şamil olunmasının müəyyənləşdirildiyi hallar istisna təşkil edir. Müqavilə bağlamaq vəzifəsinin Mülki Məcəllədə və ya könüllü götürülmüş öhdəlikdə nəzərdə tutulduğu hallar istisna olmaqla, müqavilə bağlamağa məcburetməyə yol verilmir. Tərəflər Mülki Məcəllədə nəzərdə tutulmuş müxtəlif müqavilələrin ünsürlərini əhatə edən müqavilə (qarışıq müqavilə) bağlaya bilərlər. Tərəflərin razılaşmasından və ya qarışıq müqavilənin mahiyyətindən ayrı hal irəli gəlmirsə, qarışıq müqavilə üzrə tərəflərin münasibətlərinə qarışıq müqavilədə ünsürləri olan müqavilələrə dair qaydalar müvafiq hissələrdə tətbiq edilir. Müqavilə şərtləri tərəflərin istəyi ilə müəyyənləşdirilir, amma müvafiq şərtin məzmununun Mülki Məcəllədə göstərildiyi hallar istisna təşkil edir. müqavilə şərti tərəflərin razılaşması ilə ayrı qaydanın müəyyənləşdirilmədiyi halda tətbiq edilən normada (dispozitiv norma) nəzərdə tutulubsa,

tərəflər razılaşma əsasında bu normanın tətbiqini istisna edə bilər və ya onun nəzərdə tutduğundan fərqli şərt müəyyənləşdirə bilərlər. Bu cür razılaşma olmadıqda müqavilə şərti dispozitiv norma ilə müəyyənləşdirilir. Əgər müqavilə şərti onun iştirakçıları tərəfindən və ya dispozitiv norma ilə müəyyənləşdirilməyibsə, müvafiq şərtlər tərəflərin münasibətlərinə tətbiq edilə bilən işgüzar adətlərlə müəyyənləşdirilir. Beləliklə, müqavilə azadlıgı prinsipinin əsas aspektlərinə aiddir:

-subyektlərə müstəqil olaraq, heç kəsin iradəsindən asılı olmadan, öz mülahizə və istəklərinə görə, mənafelərini nəzərə almaqla müqavilə bağlamaq imkanı verilir;

- müqavilə bağlanarkən tərəflər öz partnyorlarım seçməkdə tam sərbəstliyə və müstəqilliyə malikdirlər;

- subyektləri müqavilə növünü seçməkdə tam müstəqilliyə malikdirlər;

- müqavilənin şərtlərini müəyyən etməkdə müqavilə bağlayan tərəflərə tam sərbəstlik və müstəqillik verilmişdir.

37. Müqavilənin hərracda bağlanmasının tətbiq sferası haqqında bəhs edin. (5 bal)

Mülki qanunvericilik müqavilənin hərracda bağlanmasının mümkünlüyünü nəzərdə tutur. Müqavilənin hərracda bağlanması müəyyən xüsusiyyətlərə malikdir. Belə ki, o, müqavilə münasibətlərinin rəsmiləşdirilməsinin xüsusi xarakterli üsuludur. Müqavilənin bu üsulla bağlanmasının tətbiq sferası kifayət qədər əhatəlidir. Xüsusən dövlət əmlakının özəlləşdirilməsi prosesində müqavilələr bağlanarkən həmin üsuldan geniş səviyyədə istifadə olunur.

Müqavilənin hərracda bağlanması dedikdə, hərracın təşkilatçısı ilə hərracı udan şəxs arasındakı saziş başa düşülür. Müqavilə hərracı udan şəxslə bağlanır (MM-in 414.1-ci bəndi). Hərrac keçirilməsi yolu ilə istənilən müqavilə bağlana bilər. Lakin bu qaydadan müəyyən istisna hala yol verilir. Belə ki, bəzi müqavilələrin mahiyyəti onların hərrac keçirilməsi yolu ilə bağlanması imkanını aradan qaldırır və istisna edir, yəni müqavilələrin hərrac yolu ilə bağlanması bu müqavilələrin mahiyyəti ilə ziddiyyət təşkil edir və onunla bir araya sığmır. Məsələn, hərrac nəşriyyat, bağışlama və birgə fəaliyyət haqqında müqavilələrin bağlanması üçün yaramır.

Hərrac keçirilməsi yolu həm əmlakın (o cümlədən daşınmaz əmlakın), həm qiymətli kağızların, həm də əmlak hüququnun satışı, həmçinin girov qoyulmuş əşya barədə müqavilələr bağlana bilər.

Hərrac keçirilməsi yolu ilə bağlanan müqavilə iştirakçılarından biri hərracın təşkilatçısıdır. Hərracın təşkilatçısı rolunda, bir qayda olaraq, əmlakın mülkiyyətçisi və ya əmlak hüququnun sahibi çıxış edir, ixtisaslaşdırılmış təşkilatlar da hərrac keçirilməsini təşkil edə bilərlər. İxtisaslaşdırılmış təşkilat əmlakın mülkiyyətçisi və ya əmlak hüququnun sahibi ilə müqavilə bağlayır və o, bu müqavilə əsasında hərəkət edir. İxtisaslaşdırılmış təşkilat ya həmin şəxslərin adından, ya da öz adından çıxış edir.

Hərrac iki formada həyata keçirilir: auksion formasında; müsabiqə formasında. Hərracın formasının müəyyən edilməsi satılan əmlakın mülkiyyətçisinin və ya satılan əmlak hüququnun sahibinin iradəsindən asılıdır. Belə ki, hərracın hansı formada həyata

keçirilməsini onlar müəyyənləşdirirlər. Bununla belə, qanunda birbaşa nəzərdə tutulduğu halda da hərrac keçirilməsi yolu ilə müqavilə bağlana bilər (məsələn, girov qoyulmuş əmlakın hərracda satılması və s.), yaxud qanun dövlət əmlakını özəlləşdirərkən hərrac keçirilməsinin zəruriliyini nəzərdə tutur. Deməli, hərrac keçirilməsi yolu ilə müqavilə həm tərəflərin iradəsi ilə, həm də qanunun birbaşa göstərişi əsasında bağlana bilər.

Auksion hərracın keçirilməsinin elə bir formasıdır ki, onun məqsədi hərracı udmuş şəxsi, yəni ən yüksək qiymət təklif etmiş şəxsi müəyyən etməkdən ibarətdir. Müsabiqə isə hərracın keçirilməsinin elə bir formasıdır ki, onun məqsədi hərracı udmuş şəxsi, yəni hərracın təşkilatçısının qabaqcadan təyin etdiyi müsabiqə komissiyasının rəyinə əsasən, ən yaxşı şərtlər təklif etmiş şəxsi, müəyyən etməkdən ibarətdir. Bu iki formanı birləşdirən cəhət ondan ibarətdir ki, onların hər ikisinin məqsədi də hərracın qalibini, yəni hərracı udan şəxsi aşkar etməkdən ibarətdir.

Auksion və müsabiqə iki cür olur: açıq auksion və açıq müsabiqə; qapalı auksion və qapalı müsabiqə. Açıq auksion və açıq müsabiqə odur ki, burada istənilən şəxs çıxış edə bilər. Qanun bu barədə hər hansı bir məhdudiyyət müəyyən etmir. Qapalı auksion və qapalı müsabiqə odur ki, burada yalnız bu məqsəd üçün dəvət olunan şəxslər iştirak edir. Deməli, birinci halda iştirakçıların dairəsi əhatəli, qeyri-məhduddursa, ikinci halda onların sayı xeyli dərəcədə azalır, məhdudlaşır.

Hərrac qanunda nəzərdə tutulan qaydada təşkil edilir və keçirilir . Hər şeydən əvvəl, təşkilatçı hərracın keçirilməsi barədə bildiriş verir. Bildiriş hərracın keçirilməsinə ən geci otuz gün qalmış verilir. Öz hüquqi xarakterinə və təbiətinə görə bildiriş birtərəfli əqddir. Ona görə də o, hüquqi nəticə əmələ gətirir. Bildirişdə zəruri sayılan bu və ya digər məlumatlar göstərilir: hərracın vaxtı, yeri və forması; hərracın predmeti və keçirilmə qaydası; hərracda iştirakın rəsmiləşdirilməsi; başlanğıc qiyməti haqqında məlumat; qanunvericiliklə müəyyənləşdirilmiş digər məlumatlar. Əgər hərracın predmeti müqavilə bağlamaq hüququdursa, qarşıdakı hərrac barəsində bildirişdə bunun üçün verilən müddət göstərilməlidir .

Hərrac keçirilməsinin nəticələri protokolla rəsmiləşdirilir. Protokol hərrac keçirilməsi yolu ilə müqavilənin bağlanmasını ifadə edir. Ona görə ki, həmin sənəd müqavilə qüvvəsinə malikdir (MM-in 415.5-ci bəndi). Protokolu hərracı udmuş şəxs və hərracın təşkilatçısı imzalayırlar. Müqavilə qüvvəsinə malik olan həmin sənəd hərracın — auksionun və ya müsabiqənin keçirildiyi gün tərtib edilir. Beləliklə, hərrac təşkilatçısı ilə hərracı udan şəxs arasında bağlanan müqavilə hərracın nəticələri haqqında protokolla rəsmiləşdirilir.

38. Müqavilənin şərtləri haqqında bəhs edin. (10 bal)

Hüquqi fakt (əqd) rolunda çıxış edən müqavilənin məzmunu dedikdə, şərtlərin elə bir məcmusu başa düşülür ki, bu şərtlər

müqavilə bağlayan tərəflərin razılığı ilə müəyyən edilir.

Müqavilənin şərtləri tərəflərin davranışının iradəvi modelidir.Hüquq ədəbiyyatında öz hüquqi əhəmiyyətinə görə bütün müqavilə şərtlərini üç yerə bölürlər:

- *mühüm şərtlərə;*
- *adi şərtlərə;*
- *təsadüfi şərtlərə.*

Müqavilənin bağlanması üçün zəruri olan və kifayət edən şərtlərə müqavilənin mühüm şərtləri deyilir. Bu, müqavilənin məcburi şərti hesab edilir. Bu, o deməkdir ki, müqavilənin bağlanmış sayılması üçün onun bütün mühüm şərtləri barədə tərəflərin razılığa gəlmələri tələb olunur. Tərəflər müqavilənin bütün mühüm şərtləri barəsində razılığa gəldikdə, müqavilə bağlanmış sayılır (MM-in 405) Əgər müqavilənin mühüm şərtlərindən heç olmazsa, biri barədə tərəflər razılığa gəlməzsə, onda müqavilənin bağlanmasından söhbət gedə bilməz. Ona görə də zəruridir ki, hansı müqavilə şərtlərinin mühüm şərt hesab edilməsi müəyyənləşdirilsin. Bunun üçün mülki qanunvericilik müəyyən qayda müəyyən edir ki, bu, MM-in 405-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulmuşdur. Həmin qaydaya görə, müqavilənin mühüm şərtlərinə üç qrup şərt daxil edilir:

- *müqavilənin predmetinə dair şərtlər;*
- *MM-də həmin növ müqavilələr üçün mühüm və ya zəruri adlandırılmış şərtlər;*
- *tərəflərdən birinin müraciəti ilə barəsində razılaşma əldə edilməli olan bütün şərtlər.*

Müqavilənin predmeti bütün müqavilələrin mühüm şərti hesab olunur. Müqavilənin predmeti kimi əşyalar, hüquqi xarakterli və faktiki xarakterli hərəkətlər, pul, tələb hüququndan ibarət ola bilər.

Müqavilənin mühüm şərtləri iki yerə ayrılır: qanuna əsaslanan mühüm şərtlər; təşəbbüsə əsaslanan mühüm şərtlər. Qanuna əsaslanan mühüm şərtlər (obyektiv şərtlər)dedikdə, MM ilə təyin edilən və müəyyənləşdirilən şərtlər başa düşülür. Məsələn, müqavilənin predmeti haqqında şərt bu cür şərtə misal ola bilər. Təşəbbüsə əsaslanan mühüm şərtlərə (subyektiv şərtlər)gəldikdə isə qeyd etmək lazımdır ki, bu cür şərtlər tərəflərin razılığı və istəyi ilə müəyyənləşdirilir.Məsələn, müvafiq müqavilə növü üçün müddət mühüm şərt kimi nəzərdə tutulmuş olmasa da, tərəflər razılığa gəlirlər ki, müddət müqavilənin mühüm şərti sayılsın.

Müqavilənin adi şərti dispozitiv normalarla müəyyənləşdirilir. Müqavilə bağlanarkən adi şərtlər barədə tərəflərin hər hansı bir xüsusi razılıq əldə etmələri tələb olunmur. Belə ki, qanunda ifadə olunan göstərişə görə müqavilənin adi şərtləri razılıq olmadan da müqaviləyə daxil edilmiş hesab olunur. Adi şərtlər müvafiq normativ aktda nəzərdə tutulur və bu şərtlər müqavilə bağlanan anda avtomatik olaraq qüvvəyə minir. Məsələn, vətəndaş digər vətəndaşa mebel satır və onunla alqı-satqı müqaviləsi bağlayır.Lakin müqavilədə mebelin qiyməti göstərilmir.Müqavilədə bu cür şərtin nəzərdə tutulmaması onun bağlanmış sayılmasına və hüquqi qüvvəyə malik olmasına təsir göstərmir.Ona görə ki, belə halda MM-in 597.1 bəndində və 398.3 bəndində ifadə olunan göstəriş tətbiq edilir.Belə ki, mebellə müqayisəyə gələn və ona oxşar olan malların qiyməti əsas götürülür və nəzərə alınır.Göründüyü kimi, qiymət barədə şərt müqavilədə nəzərdə tutulmasa da, müqavilə hüquqi qüvvəyə və əhəmiyyətə malik oldu.Deməli, qiymət müqavilənin adi şərtidir. İcra müddəti haqqında şərt, işgüzar dövriyyə adətləri də müqavilənin adi şərtinə şamil edilir.

Təsadüfi şərtlər dedikdə, ümumiyyətlə, hüquq normaları ilə tənzimlənməyən məsələlər barəsində tərəflərin razılığa gəldikləri şərtlər və ya dispozitiv normalarda ifadə olunan ümumi qaydalardan kənaraçıxma haqqında onların sazişi başa düşülür.Bu şərtlər müqavilə bağlayan subyektlərin özləri tərəfindən formulə edilir.Özü də həmin şərtlər qanunda ifadə olunan ümumi qaydaları dəyiş-dirmək və ya onlara əlavə etmək niyyətilə müqaviləyə daxil edilir.Bu cür şərtin müqaviləyə daxil edilməsi güman edilmir və zənn olunmur, yəni ehtimala əsaslanmır.Adi şərtlərdən fərqli olaraq, təsadüfi şərtlər yalnız müqaviləyə daxil edildikdə hüquqi qüvvəyə malik olur.Bu şərtlərin təyinatı adi şərtləri dəyişdirməkdən və ya ona əlavələr etməkdən ibarətdir. adi şərtlərdən fərqli olaraq, təsadüfi şərtlər barədə tərəflərin razılığa gəlmələri məcburi xarakter daşıyır.Bu şərtlər hökmən müqavilənin mətninə daxil edilmə-lidir.

Müqavilənin bağlanmış sayılması üçün tərəflərin təkcə müqavilənin bütün mühüm şərtləri barəsində razılığa gəlmələri kifa-yət etmir və yetərli deyildir.Bunun üçün həm də tərəflərin razılığının tələb edilən formada ifadə olunması gərəkdir.Qanun müəyyən edir ki, tərəflər müqavilənin bütün mühüm şərtləri barəsində tələb olunan formada razılığa gəldikdə müqavilə bağlanmış sayılır (MM-in 405.1). MM-də bəzi müqavilə növləri üçün müəyyən forma təyin edilə bilər.Məsələn, faktorinq müqaviləsi yazılı formada bağlanır (MM-in 655.5).Qanun daşınmaz əşyaların alqı-satqı müqaviləsinin yazılı formada bağlanmasını və notariat qaydasında təsdiqlənməsi nəzərdə tutur, yəni bu növ müqavilə üçün notarial forma müəyyən edir (MM-in 647). Eyni zamanda, elə müqavilə növləri vardır ki, onlar üçün Mülki Məcəllə müəyyən forma müəyyən etmir.Belə hallarda həmin müqavilə növlərinə əqdlərin forması barədə ümumi qaydalar tətbiq edilir (MM-in 329-334-cü m).Bu, onunla izah olunur ki, müqavilə əqdin bir növüdür.Bunu nəzərə alaraq, qanun müəyyən edir ki, müqavilə əqdlərin bağlanması üçün nəzərdə tutulan hər hansı formada bağlana bilər (MM-in 406.1).

İstehlakçıların hüquqlarını standart müqavilələrin haqsız və əsassız olan, vicdanlılıq prinsipinə zidd gələn şərtlərindən müdafiə etmək məqsədilə ölkə qanunvericiliyi MM-ə müqavilənin standart şərtləri barədə müvafiq normalar daxil etmişdir.

***Müqavilənin standart şərtləri** dedikdə, mal və ya xidmət təklif edən sahibkar tərəfindən qabaqcadan və əvvəlcədən işlənib hazırlanan, dəfələrlə istifadə üçün nəzərdə tutulan, tanış olmaq üçün istehlakçıya təqdim olunan şərtlər başa düşülür. Bu şərtlər dəfələrlə müqaviləyə daxil edilmək üçün qabaqcadan formula edilir. Onlar bir tərəfin digər tərəfin mənafeyinə xələl gətirmək hesabına müqavilədən birtərəfli qaydada fayda əldə etməsi imkanının qarşısını almaq məqsədini güdür. Standart şərtlər fərdi-şəxsi danışıqların nəticəsində yaranmır. Əgər müqavilə şərtlərini tərəflər danışıqlar yolu ilə bilavasitə razılaşma əsasında müəyyənləşdirərlərsə, onda bu şərtlər standart müqavilə şərtləri sayılmır (MM-in 417-ci maddəsinin 2-ci bəndi). Standart şərtlərin istehlakçıya təqdim olunmasına gəldikdə isə qeyd etmək lazımdır ki, bu, müqavilə şərtlərinin razılaşdırılması məqsədilə yox, həmin şərtlərlə onların tanış olmaları niyyətilə edilir. Razılaşma məqsədi ilə verilərsə, bu, onu ifadə edir ki, müqavilə standart şərtlər əsasında yox, fərdi surətdə bağlanır.*

Bizim ölkə qanunvericiliyi ümumi qayda formula edir: müqavilənin standart şərtlərində istehlakçının (yəni digər müqavilə iştirakçısının) mənafeyinə xələl gətirən və ziyan vuran, vicdanlılıq prinsipinə zidd olan müddəalar olmamalıdır. Əgər bu cür müddəaları ifadə edən standart şərtlər müqaviləyə daxil edilərsə, həmin şərtlər etibarsız sayılır. Məqsəd, hər şeydən əvvəl, sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxslərin hüquq və mənafeyini qorumaqdan ibarətdir. Həmin müddəalara aiddir:

• müqavilə təklif etmiş tərəfə əsassız olaraq və müqavilədə göstərilmiş əsaslar olmadan öz öhdəliyinin icrasından imtina etmək hüququ verən müddəalar (məsələn, standart sığorta müqaviləsində belə bir şərt nəzərdə tutulur ki, sığortaçı sığorta müqaviləsində göstərilməyən əsaslar olmadan öhdəliyin icrasından imtina edə bilər);

• müqavilə təklif etmiş tərəfə müqavilənin digər tərəfindən çəkilmiş xərclər üçün qeyri-münasib və uyğun olmayan şəkildə yüksək əvəz (kompensasiya) tələb etmək hüququ verən müddəalar (məsələn, standart saxlama müqaviləsində belə bir şərt nəzərdə tutulur ki, tapşıran saxlanca verilmiş əşyanın xarakteri ilə əlaqədar saxlayıcının düşdüyü zərərin əvəzini ikiqat məbləğdə ödəsin);

• müqavilə qiymətlərinin əsassız olaraq qısa müddətdə artırılmasını nəzərdə tutan müddəalar (məsələn, standart yük daşıma müqaviləsində belə bir şərt göstərilir ki, nəqliyyat təşkilatı daşıma haqqını istənilən vaxt artıra bilər);

• müqavilə tərəfinin öhdəliklərin icrasından imtina etmək hüququnu və ya müqavilənin digər tərəfi öz öhdəliklərini yerinə yetirənə qədər müqavilənin icrasından imtina etmək hüququnu məhdudlaşdıran və ya istisna edən müddəalar (məsələn, standart pərakəndə alqı-satqı müqaviləsində nəzərdə tutulur ki, satıcı öz vəzifəsini icra edənə kimi alıcı müqavilənin icrasından imtina edə biiməz);

• müqavilə tərəfini tələblərin əvəzləşdirilməsi hüququndan məhrum edən müddəalar (məsələn, standart bank hesabı müqaviləsində müştərini onun banka olan tələblərini əvəzləşdirmək hüququndan məhrum edən şərt nəzərdə tutulur);

• zərərin miqdarından çox olan məbləğin tələb edilməsinə dair razılaşmanı nəzərdə tutan müddəalar (məsələn, standart kirayə müqaviləsində belə bir şərt nəzərdə tutulur ki, əgər kirayəçi kirayəyə götürülmüş qab-qacağı sındırarsa, onların dəyərini üçqat ödəyəcəkdir);

• təklif etmiş tərəfin və ya onun təmsilçisinin kobud ehtiyatsızlığı üzündən tələbin pozulması nəticəsində vurulan zərər üçün məsuliyyəti istisna edən və ya məhdudlaşdıran müddəalar (məsələn, standart daşıma müqaviləsində belə bir şərt göstərilir ki, daşıyıcı kobud ehtiyatsızlığa görə məsuliyyət daşımır);

• təklif etmiş tərəfin əsas öhdəliyi pozduğu halda müqavilənin digər tərəfinin müqavilədən imtina etmək hüququnu məhdudlaşdıran və ya onu bu hüquqdan məhrum edən və ya müqavilənin digər tərəfini icra etməmə nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququndan məhrum edən müddəalar və s. (məsələn, MM-in 645-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq mal göndərmə müqaviləsi üzrə satıcı öhdəliyi pozarsa, onda alıcı ona vurulmuş zərərin əvəzinin ödənilməsini tələb edə bilər. Əgər satıcı standart müqavilədə alıcını bu cür hüquqdan məhrum edən şərt müəyyənləşdirərsə, həmin şərt etibarsız hesab ediləcəkdir).

Eyni zamanda, qeyd etmək lazımdır ki, standart müqavilə şərtləri istehlakçıların hüquqlarını pozmaq vasitəsi deyildir.

Standart müqavilə şərtləri normativ xarakter daşımır

39. Müqavilələrin, onların bu və ya digər meyar (əlamət, xüsusiyyət) əsasında növlərini fərqləndirin. (10 bal)

Müqavilələrin , onların bu və ya digər meyar (əlamət, xüsusiyyət) əsasında müxtəlif qruplara (növlərə) bölünməsi deməkdir. Bu meyarlar ayrı-ayrı müqavilə qruplarının məzmununu müəyyənləşdirməyə, habelə onları bir-birindən fərqləndirməyə imkan verir. Mülki hüquqda müqavilələrin çoxsaylı olması və müxtəlifliyi onların təsnif edilməsini şərtləndirir. Belə ki, həmin müqavilələr həm ümumi cəhətlərə, həm də fərqli xüsusiyyətlərə malikdir. Çoxsaylı müqavilələrə yaxından bələd olmaq və düzgün istiqamət götürmək üçün onlar müxtəlif növlərə bölünür. Bunun isə həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Mülki hüquq subyekti öz praktiki fəaliyyətində onun ehtiyac və tələbatını ödəyən müqavilə növünü seçib, ondan istifadə edir.

Hüquqi nəticə əldə olunmasına və nail olunmasına yönələn *istiqamətə görə MM dörd qrupunu fərqləndirir;*

• əşyanın mülkiyyətə və digər əşya hüququna verilməsinə yönələn müqavilələr (alqı-satqı, dəyişmə, bağışlama və renta müqavilələri);

• əşyanın istifadəyə verilməsinə yönələn müqavilələr (əmlak kirayəsi, icarə, əvəzsiz istifadə və lizinq müqavilələri);

• iş görülməsinə yönələn müqavilələr (podrat müqaviləsi);

• xidmət göstərilməsinə yönələn müqavilələr (tapşırıq, komissiya, ticarət agenti, daşıma, bank əmanəti, bank hesabı, turist xidməti haqqında müqavilələr).

Bundan əlavə, bizim ölkə qanunvericiliyi əqli mülkiyyət obyektlərindən istifadəyə yönələn müqavilə növlərini də nəzərdə tutur. Bu növ müqavilələrə aiddir: müəllif müqavilələri; patent-lisenziya müqavilələri; françayzinq müqaviləsi.

Müqavilələrin əmələ gəlməsinə, dəyişməsinə və ya xitam olunmasina yönələn ictimai münasibətlərin xarakterinə görə *iki yerə bölünür: əmlak müqavilələri; təşkilati müqavilələr.*

Əmlak müqavilələri odur ki, bu müqavilələr iqtisadi dövriyyə münasibətlərini (əmtəə mübadiləsini) rəsmiləşdirir və maddi nemətlərin (və ya digər nemətlərin) bir şəxsdən digərinə keçməsinə yönəlir. Müqavilələrin əksəriyyəti əmlak müqavilələridir.

Təşkilati müqavilələr odur ki, bu müqavilələr bilavasitə maddi (əmlak) nəticə əmələ gətirmir; onlar yalnız bunun üçün zəruri şərait və zəmin yaradır. Bu cür müqavilələr əmtəə mübadiləsinə yönəlmir; onlar ancaq əmtəə mübadiləsinin təşkilinə səmtlənir. Təşkilati müqavilələr əsasında gələcəkdə əmtəə mübadiləsinin həyata keçirilməsi üçün şərait yaradılır və iştirakçılar arasında qarşılıqlı əlaqələr müəyyən edilir.Təşkilati müqavilələr əsasında meydana gələn münasibətlər maddi yox, təşkilati xarakter daşıyır.

Məqsəd, nəticə və hüquqi istiqamət kimi meyara və əlamətə görə *müqavilələrin iki növü fərqləndirilir; əsas müqavilələr; ilkin müqavilələr. Bu müqavilələr müqavilə sistemində müstəqil yer tutur.*

Əsas müqavilələr odur ki, iqtisadi (əmlak) dövriyyəni tənzimləyir və tərəflər üçün əmtəə mübadiləsi ilə bağlı bilavasitə hüquqi nəticə (hüquq və vəzifələr) yaradır. Bu müqavilələr maddi nemətlərin bir şəxsdən digərinə keçmə prosesini rəsmiləşdirir. Daşıma, podrat, icarə, kirayə, alqı-satqı və digər müqavilələr əsas müqavilələrə şamil edilir.

İlkin müqavilələr odur ki, bu müqavilələr gələcəkdə əsas müqavilə bağlanması barədə tərəflərin razılığını ifadə edir. lkin müqavilələrə görə, tərəflər həmin müqavilədə nəzərdə tutulmuş şərtlərlə əmlakın verilməsi, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi barədə gələcəkdə müqavilə (əsas müqavilə) bağlamağı öhdələrinə götürürlər (MM-in 402-ci maddəsinin 1-ci bəndi).

Məsələn, tərəflər gələcəkdə minik avtomobilinin satışı haqqında müqavilə (əsas müqavilə) bağlayırlar. Deməli, ilkin müqavilənin başlıca mahiyyəti tərəflərin gələcəkdə əsas müqavilə bağlamaq barədə razılığa gəlmələrindən ibarətdir.

Tərəflər ilkin müqaviləni elə qayda və məzmunda bağlamalıdırlar ki, bu, əsas müqavilənin predmetini və onun digər mühüm şərtlərini müəyyənləşdirməyə imkan verən şərtləri nəzərdə tuta bilsin. Əgər ilkin müqavilə bu xüsusiyyətdən məhrum olarsa, o, hüquqi əhəmiyyət kəsb etmir və etibarsız hesab olunur. Yuxarıda çəkdiyimiz misallarda gələcəkdə bağlanan əsas müqavilənin predmetini təşkil edən minik avtomobili, onun kəmiyyət və keyfiyyət xarakteristikası hökmən ilkin müqavilədə göstərilməlidir.

İlkin müqavilənin müddətini qanun xüsusi olaraq tənzimləyir (MM-in 402.4-cü bəndi), ilkin müqavilənin müddəti dedikdə, tərəflərin əsas müqaviləni hansı müddətdə bağlamalarını müəyyənləşdirməyə imkan verən vaxt dövrü başa düşülür. Bu müqavilədə həmin müddət göstərilir. İlkin müqavilədə bu müddət müəyyənləşdirilmədikdə əsas müqavilə ilkin müqavilənin bağlandığı andan bir il müddətinə bağlanır.

Qanun ilkin müqavilənin formasına da xüsusi olaraq tənzimləyir (MM-in 402. 2-ci bəndi). Bu müqavilənin forması əsas müqavilənin forması ilə şərtlənir, yəni əsas müqavilənin formasından asılıdır. Belə ki, ilkin müqavilə əsas müqavilə üçün nəzərdə tutulmuş formada bağlanır. Bu, o deməkdir ki, əsas müqavilə üçün sadə yazılı forma müəyyənləşdirilibsə, onda ilkin müqavilə də həmin formada bağlanacaqdır.

İlkin müqavilənin forması barədə qaydalara əməl olunmaması onun etibarsızlığına səbəb olur. Bu cür ilkin müqavilələr hüquqi əhəmiyyət kəsb etmir və puç (mütləq etibarsız) əqd sayılır.

İlkin müqavilə icra olunduqda, yəni əsas müqavilə bağlandıqda, o ləğv edilir. Bəzən elə olur ki, əsas müqavilə ilkin müqavilədə nəzərdə tutulan müddətdə bağlanmır. Eyni zamanda bu müddət ərzində tərəflərdən biri digər tərəfə əsas müqaviləni bağlamaq barədə müraciət etmir və təklif göndərmir. Bu halda ilkin müqavilədə nəzərdə tutulan öhdəliklərə xitam verilir.

İlkin müqavilə mülki dövriyyədə məhdud dairədə tətbiq edilir. Onların sayı azdır. İlkin müqavilələrə öhdəliyin icrasını təmin etmək üçün bağlanan zaminlik müqaviləsini, daşımaların təşkili müqaviləsini və s. misal göstərmək olar. Deməli, ilkin müqavilənin funksiyası bu müqaviləni bağlayan tərəflərin fəaliyyətini planlaşdırmaqdan ibarətdir.

***Ümumi müqavilə** Azərbaycan Respublikasının müasir mülki qanunvericiliyində yeni müqavilə növüdür. MM-də ümumi müqaviləni xarakterizə edən bir neçə əlamət formula edilmişdir.*

Ümumi müqavilənin birinci əlaməti ondan ibarətdir ki, bu müqavilənin bir tərəfində sahibkarlıq fəaliyyətini həyata keçirən şəxs çıxış edir.

İkinci əlamətə görə, ümumi müqaviləni bağlayan tərəflərdən biri, yəni kommersiya təşkilatı əmtəə bazarında üstün mövqe tuta bilər; onun tutduğu mövqe müqavilənin qiyməti və digər şərtlərini istehlakçılara diqtə etməyə imkan verir. Lakin kommersiya təşkilatı üstün mövqeyindən sui-istifadə etməməlidir.

Üçüncü əlamətə görə, bazarda üstün mövqe tutan tərəfin fəaliyyəti ümumi xarakterdə olmalıdır; o, hər bir istehlakçı ilə müqavilə bağlamağa borcludur. Bu baxımdan ümumi müqavilə bəzi xarici ölkələrin (məsələn, ABŞ-ın və s.) qanunvericiliyinə məlum olan məcburi müqaviləyə oxşayır.

Dördüncü əlamət ondan ibarətdir ki, bazarda üstün mövqe tutan tərəf istehlakçılarla müqavilə bağlamaqdan əsassız olaraq imtina etməməlidir.

Beşinci əlamətə görə, bazarda üstün mövqe tutan tərəf istehlakçılara qeyri-bərabər şərtlər təklif etməməlidir; belə şərtlər, istehlakçıların mənafeyinə zidd olub, hüquqdan sui-istifadə (xüsusi xarakterli mülki hüquq pozuntusu) hesab edilir.

Ümumi müqavilə konstruksiyasının məqsədi istehlakçıların hüquqlarını iqtisadi cəhətdən nisbətən güclü olan və bazarda üstün tutan şəxslərdən qorumaqdan, əmtəə bazarını inhisarlaşdıran inhisarçı şəxslərdən istehlakçıları müdafiə etməkdən ibarətdir.

Müqavilənin bağlanma qaydası və onun şərtlərinin müəyyən edilməsində tərəflərin iştirakı kimi əlamətə görə *müqavilələr iki cür olur: qarşılıqlı razılığa əsaslanan müqavilələr; qoşulma müqavilələri. Qarşılıqlı razılığa əsaslanan müqavilələr odur ki, bu cür müqavilələrin şərtlərini həmin müqavilədə iştirak edən tərəflərin hər ikisi müəyyənləşdirir.*

Qoşulma müqavilələri *odur ki, bu müqavilələr bağlanarkən onların şərtlərinin müəyyən edilməsində yalnız bir tərəf iştirak edir, ikinci tərəf isə həmin müqaviləyə əlavə və dəyişiklik etmək imkanından məhrum olur. İkinci tərəf bu müqaviləni onun şərtləri ilə razılaşması yolu imzalayır. Deməli, ikinci tərəf müqavilə şərtlərinin müəyyən edilməsində iştirak etmir. O, müqavilənin zəif tərəfi hesab edilir. Bununla müqavilə şərtlərini müəyyən etməkdə müqavilə azadlığı prinsipi pozulur, kontragent seçməkdə isə bu prinsip pozulmur. Belə ki, müqavilənin zəif tərəfi kontragent seçməkdə sərbəstdir. O, həm də eyni zamanda müqavilə bağlamaq və ya bağlamamaq məsələsini həll etməkdə müstəqildir.*

Qeyd etmək lazımdır ki, qoşulma müqaviləsindən Qərbi Avropa ölkələrində geniş istifadə olunur; bu müqavilə növü bazarların inhisarlaşdırılması şəraitində yaranmışdır. Belə ki, bazarda üstün iqtisadi mövqe tutan tərəf və ya müvafiq spesifik malın (elektrik enerjisinin, qazın, dəmir yolu, su və ya hava daşıycısının göstərdiyi nəqliyyat xidmətinin) yeganə satıcısı olan şəxslər kontragentlərə (müqavilənin digər tərəflərinə) təklif edirlər ki, onlar eyni olan müqavilə şərtlərini, yəni standart müqavilə şərtlərini müzakirə etmədən qəbul etsinlər və bu yolla müqaviləyə qoşulsunlar. Özü də hesab edilir ki, kontragent müqaviləyə könüllü surətdə qoşulur.

Göründüyü kimi, qoşulma müqaviləsinə görə, iqtisadi cəhətdən üstün mövqe tutan tərəf kontragentə özünün formula etdiyi müqavilə şərtlərini diqtə edir. Kontragent ya ona diqtə olunmuş şərtlərlə müqavilə bağlamalı, ya da müqavilə bağlamaqdan imtina etməlidir. Kontragentin müqavilə şərtlərini müzakirə etmək və yaxud onlardan hər hansısa birini dəyişdirmək hüququ yoxdur. Elə bir vəziyyət yaranır ki, iqtisadi-maddi ehtiyacını təmin etmək üçün kontragentin diqtə olunmuş müqavilə şərtlərini müzakirəsiz qəbul etməkdən başqa çarəsi qalmır; həmin vəziyyətdə o, digər davranış variantı seçmək imkanına malik olmur və bu səbəbdən müqaviləni bağlamaqdan imtina edə bilmir.

Belə müqavilələr, adətən, tərəflərin doldurduqları standart formada tərtib edilir. Buna görə ABŞ, İngiltərə və digər ölkələrin müqavilə praktikasında qoşulma müqaviləsi standart formalı müqavilə adlanır. Müasir Qərb ölkələrində qoşulma müqaviləsi kifayət qədər geniş yayılmışdır.

Belıliklə, qoşulma müqaviləsinin əlamətlərinə aiddir:

qoşulma müqaviləsi standart formalarda bağlanır;

bu müqavilə özündə tərkib hissəsi kimi standart şərtləri birləşdirir

standart şərtlərini kontragentlər müzakirə etmirlər .

Qoşulma müqaviləsi konstruksiyasının əsas məqsədi iqtisadi-sosial cəhətdən nisbətən zəif olan çoxsaylı kontragentlərin (istehlakçıların) hüquqlarını qorumaqdan ibarətdir. Belə ki, qoşulma müqaviləsinin standart şərtləri əgər onların mənafeyi üçün zərərli olarsa, belə müqavilə etibarsız hesab edilir (MM-in 420.2-ci bəndi).

Qoşulma müqaviləsi bazarların inhisarlaşdırılması şəraitində iqtisadi cəhətdən bərabər olmayan tərəflər arasında bağlanır. Əlbəttə, bu növ müqavilənin bağlanması müqavilə azadlığı prinsipinin məhdudlaşdırılmasına və mümkün hüquqi risqlərə gətirib çıxarır. Lakin buna baxmayaraq müasir mülki və ticarət (kommersiya) dövriyyəsində qoşulma müqaviləsi geniş tətbiq olunur. Malların kütləvi surətdə satışı, eləcə də kütləvi xidmət göstərilməsi sahələrində istifadə olunan bu müqavilə müvafiq xərclərin azaldılmasına, danışıqların aparılma vaxtının qısaldılmasına, sahibkarların işlərinin və maliyyə hesablaşmalarının asanlaşdırılmasına imkan verir.

Kimin mənafeyi üçün müqavilə bağlanması əlamətinə və meyarına görə *müqavilələrin iki növü fərqləndirilir: müqaviləni bağlayan tərəfin xeyrinə müqavilə; üçüncü şəxsin xeyrinə müqavilə.*

Müqaviləni bağlayan tərəfin xeyrinə müqavilə odur ki, bu müqavilədə hüquq və vəzifələr yalnız onu bağlayan tərəflər üçün əmələ gəlir və həmin tərəflər də, bir qayda olaraq, müqavilənin icrasını tələb etmək ixtiyarına malik olurlar. Məsələn, alqı-satqı, icarə, dəyişmə, kirayə, daşıma və s. müqavilələrdə iki tərəf iştirak edir, hüquq və vəzifələr də həmin tərəflər üçün əmələ gəlir və bu cür müqavilələrin icrasını tələb etmək hüququ onlara məxsus olur. Bununla bərabər, real həyatda elə müqavilələrə rast gəlirik ki, bu müqavilə növləri onların bağlanmasında iştirak etməyən, lakin onların icrasını tələb etmək hüququna malik olan şəxslərin mənafeyi üçün bağlanır. Bu cür müqavilələr üçüncü şəxsin xeyrinə müqavilə adlanır. Üçüncü şəxsin xeyrinə müqavilə odur ki, bu müqaviləni bağlayan tərəflər borclunun icranı adı müqavilədə göstərilmiş və ya göstərilməmiş üçüncü şəxsə həyata keçirməli olması barədə razılığa gəlirlər və bu, həmin şəxsə öhdəliyin öz xeyrinə icrasını borcludan tələb etmək hüququ verir (MM-in 403. 1-ci bəndi). Belə təsəvvür yaranır ki, üçüncü şəxs adlı fiqur müqavilənin bağlanmasında iştirak etmir, müqaviləni tərəflər bağlayırlar və o, üçüncü şəxsin mənafeyinə xidmət edir. Məsələn, valideynlər öz uşaqlarının adına 18 yaşına çatması üçün banka pul qoyurlar (məqsədli uşaq əmanəti) və bu məqsədlə onlar bankla bank əmanəti (depozit) müqaviləsi bağlayırlar. Bu müqavilədə uşaq üçüncü şəxs rolunda çıxış edir. Göründüyü kimi, o, bank əmanəti müqaviləsinin bağlanmasında iştirak etmir. Müqaviləni tərəflər, yəni valideynlər və bank imzalayırlar. 18 yaşına çatdıqda, o, həmin müqavilənin icrasını, yəni əmanətin verilməsini bankdan tələb edir. Bununla öhdəlik onun xeyrinə icra olunur.

Müqavilələrin bağlanmış hesab edilməsi anına görə, *yəni müqavilə üzrə tərəflərin hüquq və vəzifələrinin yaranması anına görə onların iki növü fərqləndirilir: konsensual müqavilələr; real müqavilələr.*

Konsensual müqavilələr odur ki, bu cür müqavilələrin bağlanmış hesab edilməsi üçün müqavilənin bütün mühüm şərtləri barədə tərəflərin razılığa gəlmələri yetərlidir. Başqa sözlə desək, bu müqavilələrin bağlanması üçün yalnız tərəflərin razılığı kifayətdir. Tərəflər razılıq əldə etdikləri andan onlar üçün hüquq və vəzifələr əmələ gəlir. Onların hüquq və vəzifələrinin yaranması üçün tərəflərin razılığa gəlmələri və sazişə nail olmalarından savayı, hər hansı hərəkətin edilməsi (məsələn, digər müqavilə tərəfinə əmlak

verilməsi) tələb olunmur. Konsensual müqavilələrin dairəsi kifayət qədər genişdir. Bu müqavilələrin xüsusi çəkisi real müqavilələrə nisbətən xeyli dərəcədə çoxdur. Alqı-satqı, pərakəndə alqı-satqı, mal göndərmə, dəyişmə, tapşırıq, kirayə, icarə, borc, kredit, əvəzsiz istifadə, komissiya, podrat, turist xidmətlərinin göstərilməsi haqqında, renta və digər müqavilələr konsensual müqavilə növünə şamil edilir.

Real müqavilələrin bağlanmış hesab edilməsi üçün tərəflərin razılığından əlavə, həm də onlardan biri tərəfindən müəyyən hərəkətin yerinə yetirilməsi, yəni əmlakın verilməsi tələb olunur. Əmlakın verildiyi andan müqaviləni bağla yan tərəflər üçün hüquq və vəzifələr əmələ gəlir. Əgər əmlak qarşı tərəfə verilməzsə, müqavilə bağlanmış hesab edilmir və tərəflərin hüquq və vəzifələri əmələ gəlmir. Real müqavilələrin dairəsi bir o qədər də geniş deyil. Yük daşıma, bank əmanəti (depozit) və saxlama kimi müqavilə konstruksiyaları bu cür müqavilələrə misal ola bilər.

Bununla belə, elə müqavilələr var ki, bağlanma qaydasından asılı olaraq, onlar həm konsensual, həm də real müqavilə ola bilər. Bu müqavilələrin dairəsi də bir o qədər əhatəli və geniş deyil. Faktorinq, bağışlama, sığorta kimi hüquqi konstruksiyalar bu cür müqavilələrə misal ola bilər.

***Müqavilənin əvəzli-ekvivalentli olub-olmaması kimi meyara görə** onların iki növü vardır: əvəzli müqavilələr; əvəzsiz müqavilələr. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, əvəzli müqavilələrin dairəsi əvəzsiz müqavilələrin dairəsinə nisbətən müqayisəedilməz dərəcədə xeyli genişdir. Əvəzsiz müqavilələrin dairəsi isə olduqca məhduddur. Bu, onunla izah olunur ki, cəmiyyətdə yaranan münasibətlərin çoxu əmtəə-pul münasibətləridir, mülki dövriyyə əmtəə-əmlak xarakterlidir.*

Əvəzli müqavilələr odur ki, müqaviləni bağlayan tərəf öz vəzifəsinin icrası müqabilində qarşı tərəfdən haqq və ya digər qarşılıqlı əvəz alır. Qarşılıqlı əvəz iki formada ifadə olunur: qiymətin (pul məbləğinin) ödənilməsi formasında; mal verilməsi və ya iş görülməsi, xidmət göstərilməsi formasında. Məsələn, alqı-satqı müqaviləsində satıcı öz vəzifəsinin (əşyanı vermək vəzifəsinin) icrası müqabilində alıcıdan müəyyən pul məbləğində ifadə olunan haqq alır. Alıcı isə öz vəzifəsini (pulu ödəmək vəzifəsini) icra etməsinin əvəzində satıcıdan əşyanı alır. Dəyişmə müqaviləsində isə müvafiq tərəf öz vəzifəsinin (əşyanı qarşı tərəfə vermək vəzifəsinin) icrası müqabilində digər tərəfdən əmlak alır. Alqı-satqı, icarə, podrat, daşıma, bank hesabı, bank əmanəti, kirayə, turist xidmətləri göstərilməsi haqqında, françayzinq, faktorinq, lizinq və digər müqavilələr bütün hallarda, istisnasız olaraq, əvəzli müqavilələrə şamil edilir.

Əvəzsiz müqavilələr odur ki, bu müqavilələrdə bir tərəfin etdiyi hərəkətə görə digər tərəfdən haqq və ya digər qarşılıqlı əvəz alması nəzərdə tutulmur. Bu cür müqavilələrdə bir tərəfin digər tərəf üçün hər hansı bir hərəkət etməsi (əmlak verməsi, iş görməsi, xidmət göstərməsi) qarşı tərəfdən heç bir cavab xidməti ilə şərtləndirilmir. Əvəzsiz müqavilələrin dairəsi olduqca məhduddur. Bu cür müqavilələrə bağışlama müqaviləsini və əvəzsiz istifadə (ssuda) müqaviləsini misal göstərmək olar.

Elə müqavilələr vardır ki, onlar həm əvəzli, həm də əvəzsiz ola bilər. Bu cür müqavilələrə tapşırıq, borc, saxlama kimi hüquqi konstruksiyaları misal göstərmək olar.

Müqaviləni bağlayan tərəflərin iradələrini ifadə etmək əlamətinə görə *müqavilələr iki cür olur: ikitərəfli müqavilələr; çoxtərəfli müqavilələr. Bu bölgü «müqavilənin bağlanması üçün neçə tərəfin iradə ifadəsi gərəkdir» kimi meyardan asılı olaraq aparılır.*

İkitərəfli müqavilələr odur ki, bu cür müqavilələrin bağlanması üçün iki tərəfin iradə ifadəsi kifayətdir. Alqı-satqı, podrat, daşıma, icarə, kirayə, borc, bank hesabı, bank əmanəti, sığorta, lizinq, faktorinq və digər müqavilələr ikitərəfli müqavilələr hesab edilir.

Bağlanması üçün iki tərəfdən çox olan tərəfin iradə ifadəsi tələb olunan və kifayət edən müqavilələrə çoxtərəfli müqavilələr deyilir. Məsələn, üç nəfərdən ibarət olan təsisçilərin hüquqi şəxs yaratmaq barədə təsis müqaviləsi çoxtərəfli müqaviləyə misal ola bilər.

Əmələ gətirdiyi hüququn növünə görə *müqavilələr iki yerə bölünür: əşya müqavilələrinə; öhdəlik müqavilələrinə.*

Əşya müqavilələri dedikdə, əşya hüquqları müəyyən edən müqavilələr başa düşülür. Bu kateqoriya müqavilələrin əsas təyinatı və məqsədi əşya hüquq münasibətləri (mülkiyyət hüquq münasibətləri, servitut hüquq münasibətləri, superfitsi hüquq münasibətləri və s.) yaratmaqdan, yəni əşya hüquqları əmələ gətirməkdən ibarətdir.

Öhdəlik müqavilələri odur ki, bu müqavilələr nəticəsində öhdəlik hüquqları yaranır. Onların əsas təyinatı öhdəlik hüquq münasibətləri (öhdəliklər) əmələ gətirməkdən ibarətdir. Alqı-satqı, kirayə, icarə, daşıma, podrat və digər müqavilələr öhdəlik müqaviləsi kateqoriyasına aid edilir.

Müqavilənin təfsiri*. Müqavilə şərtlərini təfsir edərkən məhkəmə təkcə müqavilədəki söz və ifadələrin hərfi mənasını deyil, həm də tərəflərin iradə ifadəsinin həqiqi mənasını, bütövlükdə müqavilənin hərfi mənasının onun digər şərtləri və mənası ilə müqayisəsini nəzərə alır. Bu zaman bütün müvafiq hallar, o cümlədən müqaviləyə qədərki danışıqlar və yazışmalar, tərəflərin qarşılıqlı münasibətlərində yaranmış praktika, işgüzar adətlər, tərəflərin sonrakı hərəkətləri nəzərə alınır. Əgər müqavilənin ayrı-ayrı ifadələri müxtəlif cür təfsir edilə bilərsə, müqaviləni bağlamış tərəflərin yaşayış yerində adətən qəbul olunmuş mənaya üstünlük verilir. Tərəflərin yaşayış yerləri müxtəlif olduqda, akseptantın yaşayış yeri həlledici sayılır. Müqavilədə bir-birini istisna edən və ya çoxmənalı ifadələr olduqda, müqavilənin məzmununa digərlərindən daha çox uyğun gələn mənaya üstünlük verilməlidir.*

40. Müqavilənin bağlanması prosesinin mərhələlərini izah edin. (20 bal)

Müqavilənin bağlanması dedikdə, müqavilənin bütün mühüm şərtləri barədə tərəflərin lazımi formada nail olduqları saziş və razılıq başa düşülür ki, bu. qanunvericilikdə nəzərdə tutulan qaydada həyata keçirilir. Tərəflərin müəyyən sazişə nail olmaları və bununla müqavilə bağlamaları üçün zəruridir ki, tərəflərdən biri müqavilə bağlamaq barədə təklif versin, digər tərəf isə bu təklifi qəbul etsin. Qanun müəyyən edir ki, müqavilə tərəflərdən birinin müqavilə bağlamaq təklifi göndərməsi və digər tərəfin təklifi qəbul etməsi vasitəsilə bağlanır (MM-in 405.2). Qanunun nəzərdə tutduğu göstərişdən belə məlum olur ki, müqavilənin bağlanması müəyyən bir prosesdir və bu proses iki mərhələdən ibarətdir:

● *birinci mərhələ müqavilə bağlamaq təklifinin göndərilməsindən (verilməsindən) ibarətdir;*

● *ikinci mərhələ digər tərəfin (kontragentin) bu təklifi qəbul etməsindən ibarətdir.*

Göstərilən iki mərhələ, yəni müqavilə bağlamaq haqqında təklifin verilməsi və bu təklifin qəbul edilməsi mərhələləri müqavilə bağlanmasının bütün halları üçün məcburidir. Müqavilə bağlanmasının məcburi xarakterə malik olan birinji mərhələsi oferta (latınca «offertus» – təklif edilən) adlanır. Oferta dedikdə, müqavilə bağlanması haqqında təklif başa düşülür. O, bir və ya bir neçə şəxsə ünvanlana bilər. Müqavilə bağlamaq barədə təklif edən şəxsə isə oferent deyilir.

Müqavilə bağlanmasının məcburi xarakterə malik olan ikinci mərhələsi aksept (latınca «acceptus» – qəbul olunan) adlanır. Aksept dedikdə, bir tərəfin digər tərəfin müqavilə bağlamaq barədə təklifini qəbul etməsi başa düşülür. Ofertanın ünvanlandığı şəxsin ofertanı qəbul etməsi haqqında javabı aksept sayılır (MM-in 409.1.) Təklifi qəbul edib, ona javab verən tərəfə akseptant (latınca «acceptans» – qəbul edən) deyilir.

Müqavilə bağlanmasının məcburi mərhələlərindən başqa, fakultativ mərhələsi də vardır. Bu, danışıqlar mərhələsi adlanır. Danışıqlar tərəflərin müqaviləqabağı əlaqələrini ifadə edir. Bu cür danışıqlar müqavilənin bağlanması haqqında aparılır və onun gedişində, adətən, sənədlər tərtib edilir. Bu sənəd niyyət haqqında saziş və ya niyyət protokolu və yaxud niyyət məktubu adlanır. Burada gələjəkdə bağlanılması gözlənilən müqavilə haqqında məlumat verilir. Lakin həmin sənədlər müqavilə bağlamaq niyyətində olan tərəflər üçün hüquqi vəzifələr yaratmır. Bununla belə, sənədin məzmununu və həmin sənədi imzalayan şəxslərin statusunu nəzərə alaraq, ona hüquqi əhəmiyyət və qiymət verilə bilər. Belə ki, həmin sənəddə tərəflərin ona ilkin müqavilə qüvvəsi vermək iradəsi birbaşa ifadə oluna bilər (MM-in 402.6). Bu vasitə ilə sənəd ilkin müqaviləyə çevrilir. Belə halda o, müqavilə bağlanmasının mərhələsi kimi çıxış etmir.

Danışıqlar mərhələsi müqavilə bağlanmasının məcburi xarakter daşımayan mərhələsidir. O, qeyri-məcburi (fakültativ) mərhələdir. Həmin mərhələdən müqavilə münasibətlərinə girmək niyyətində olan şəxslər yalnız öz istək və arzuları əsasında istifadə edirlər.

Beləliklə, müqavilə bağlanması prosesi ümumən dörd mərhələdən ibarətdir:

- *danışıqlar mərhələsi;*
- *oferta;*
- *ofertaya baxılması;*
- *aksept.*

Müasir şəraitdə İnternetin və digər kompüter rabitəsinin köməyi ilə müqavilə bağlamaq halları xeyli çoxalmışdır. Bəzən tərəflər bir-birinə aydın və məlum olan elə hərəkətlər edirlər ki, bu hərəkətlərdən onların müqavilə bağlamağa razı olduğu açıq-aşkar görünür. Bunlara konklyudent hərəkətlər, müqaviləyə isə konklyudent hərəkətlə bağlanmış müqavilə deyilir.

Müqavilə bağlamaq barədə hər hansı bir təklif, sözsüz, oferta sayıla bilməz. Bu cür təklifin oferta kimi hüquqi əhəmiyyət kəsb etməsi üçün zəruridir ki, o, qanunun müəyyən etdiyi məcburi tələblərə uyğun gəlsin. (MM-in 408-ci maddəsi).

Qanunun nəzərdə tutduğu birinci tələb ondan ibarətdir ki, oferta konkret olmalıdır, yəni ofertanın konkret olaraq bir və ya bir neçə şəxsə ünvanlanması lazımdır. Əgər müqavilə bağlamaq barədə təklif dairəsi məlum olmayan, yəni qeyri-müəyyən dairədən olan şəxslərə ünvanlanarsa, bu, oferta kimi qəbul edilmir. Bu təklif ofertaya dəvət sayılır (MM-in 408.2-ci bəndi).

Lakin, bu qaydadan müəyyən istisnaya yol verilir. Belə ki, bəzi məqamlarda dairəsi məlum olmayan şəxslərə ünvanlanan təklif ofertaya dəvət yox, oferta hesab edilir. Çünki, şəxslərin qeyri-müəyyən dairəsinə ünvanlanmış təklifin ofertaya dəvət hesab edilməsini nəzərdə tutan norma imperativ yox, dispozitiv normadır (MM-in 408.2-ci bəndi). Bu, o deməkdir ki, həmin təklifdə bilavasitə ayrı qayda nəzərdə tutula bilər. Başqa sözlə desək, göstərilən bu cür təklif müəyyən şərtlər əsasında ümumi oferta hesab edilə bilər. Bunun üçün zəruridir ki, birincisi, təklif müqavilənin bütün mühüm şərtlərini əks etdirsin. Şübhəsiz ki, söhbət, hər şeydən əvəl, müqavilənin predmetindən gedir. İkincisi, həmin təklifdən onu irəli sürmüş şəxsin təklifdə göstərilmiş şərtlər ilə müqaviləni ona cavab verən istənilən şəxslə bağlamaq iradəsi aydın görünsün. Bu iki şərt mövcud olduqda, şəxslərin qeyri-müəyyən dairəsinə ünvanlanmış təklif onu irəli sürən şəxsin iradəsini və müqavilənin bütün mühüm şərtlərini ifadə etdiyinə görə ümumi oferta hesab edilir. ***Ümumi oferta*** *dedikdə, müqavilənin bütün mühüm şərtlərini əks etdirən elə bir təklif başa düşülür ki, bu təklifdən onu irəli sürmüş şəxsin həmin təklifdə göstərilmiş şərtlərlə müqaviləni ona cavab verən istənilən şəxslə bağlamaq iradəsi aydın görünür (MM-in 408.7-ci bəndi). Bu oferta şəxslərin qeyri-müəyyən dairəsinə, yəni istənilən hər bir kəsə ünvanlanır. Ümumi oferta həm yazılı, həm də şifahi formada ola bilər. Əgər təklif mətbuatda, ictimai yerlərdən asılmış elanlarda və s. irəli sürülərsə, onda bu yazılı formalı ümumi ofertadır. Təklif radio, televiziya, mikrofon vasitəsilə verilərsə, belə halda bu şifahi formalı ümumi ofertadır. Ümumi oferta istər yazılı, istərsə də şifahi formada olsun, fərqi yoxdur, bütün hallarda müqavilənin bütün mühüm şərtlərini əks etdirməlidir. Ümumi ofertaya çoxlu misallar çəkmək olar: yaşıl işığını yandırıb dayana caqda duran taksi; sərin içkiləri konklyudent hərəkətlə satan avtomat; nəşriyyatın özünün buraxdığı kitabı geniş oxucu auditoriyasına təklif etməsi; malın qeyri-müəyyən şəxslər dairəsinə ünvanlanmış reklamda, kataloqda və malların təsvirlərində təklif edilməsi (MM-in 616. 1-ci bəndi).*

Qanunun nəzərdə tutduğu ***üçüncü tələb*** *ondan ibarətdir ki, təklif kifayət qədər müəyyən olmalı və şəxsin müqavilə bağlamaq niyyətini açıq-aşkar ifadə etməlidir. Şəxsin müqavilə bağlamaq niyyətini ifadə etməyən təklif qeyri-müəyyən təklif hesab edilir və müqavilənin bütün mühüm şərtlərini əks etdirsə də, oferta kimi qəbul edilmir.*

Qanunun nəzərdə tutduğu ***dördüncü tələb*** *ondan ibarətdir ki, təklifdə onu vermiş şəxsin təkcə müqavilə bağlamaq niyyəti yox, həm də onun təklifə kontragent (qarşı tərəf) razılıq verdikdə,* ***öz təklifinin icrasına hazır olduğu ifadə olunmalıdır.*** *Əgər təklifdə bu təklifi vermiş şəxsin öz təklifinin icrasına hazır olduğu əks olunmazsa, bu cür təklif oferta kimi tanınmır.*

Qanunun nəzərdə tutduğu ***beşinci tələb*** *ondan ibarətdir ki,* ***təklif geri götürülə bilməz,*** *yəni geri götürülməzlik prinsipi tətbiq edilir. Bu prinsip müqavilə bağlamaq barədə təklif vermiş şəxsin öz təklifini geri götürə bilməməsi imkanını ifadə edir. Geri götürülməzlik prinsipinin mahiyyəti ondan ibarətdir ki, ünvan sahibinin aldığı oferta onun aksepti üçün müəyyənləşdirilmiş müddət ərzində geri götürülə bilməz (MM-in 408.6-cı bəndi). Azərbaycan Respublikasının mülki qanunvericiliyi ofertanın onun aksepti üçün müəyyənləşdirilmiş müddət ərzində geri götürülməzliyi prinsipini təsbit edir. Bu cür oferta* ***qəti oferta*** *hesab edilir.*

Ofertanın geri götürülməzliyi prinsipini təsbit edən qanun norması dispozitiv xarakter daşıyır. Bu, o deməkdir ki, ofertada ayrı qayda da nəzərdə tutula bilər, yəni ofertanın qəti olmaması, onun geri götürülə bilməsinin mümkünlüyü qaydası göstərilə bilər. Ofertanın geri götürülməsi təklifin mahiyyətindən də irəli gələ bilər. Məsələn, tez xarab olan və korlanan malların satışı müqaviləsini bağlamaq təklifinin, şübhəsiz ki, geri götürülməsi onun verildiyi şəraitlə bağlı ola bilər. Məsələn, oferta göndərilən vaxt milli zəmində münaqişə baş verir və ya gərgin ictimai-sosial vəziyyət yaranır. Bu vəziyyətdə oferta geri götürülərsə, bu, ədalətsiz hal və pozuntu hesab edilə bilməz.

Oferta geri götürüləndə bu barədə bildiriş göndərilir (və ya verilir). Elə hallar olur ki, təklif verilən kimi onu dərhal geri götürmək haqqında qərar qəbul edilir. Belə məqamlarda bildiriş ofertadan əvvəl və ya onun özü ilə eyni vaxtda daxil olur. Bu, o deməkdir ki, oferta verilməmişdir. Ona görə ki, oferta ünvan sahibi tərəfindən alınmamış onun geri götürülməsi barədə bildiriş verilir.

Beləliklə, oferent ünvan sahibinin aldığı ofertanı onun aksepti üçün müəyyənləşdirilmiş müddət ərzində geri götürə bilməz.

Yuxarıda göstərilən əlamətlərə uyğun gəldikdə, təklif oferta kimi qəbul edilir. Həmin əlamətlərdən biri olmazsa, təklif oferta yox, ofertaya dəvət hesab olunur. Tələb olunan zəruri əlamətlərə malik olan oferta onu verən şəxs üçün müəyyən hüquqi nəticəyə səbəb olur. Ofertanın hüquqi qüvvəyə malik olması və hüquqi əhəmiyyət kəsb etməsi üçün vacibdir ki, o, ünvan sahibi tərəfindən alınsın. Oferta ünvan sahibi tərəfindən alındığı andan onu ofertanı göndərmiş şəxslə bağlı edir (MM-in 408. 3-cü bəndi). Bu, o deməkdir ki, ünvan sahibi tərəfindən oferta alındığı andan ofertaya razılıq verilməsi üçün müəyyənləşdirilmiş müddət qurtarana kimi oferta göndərmiş şəxsin analoji təklifi başqasına etməmək, habelə oferta ilə razı olan digər şəxslərlə müqavilə bağlamağa ixtiyarı çatmır.

Beləliklə, oferta dedikdə, müqavilə bağlamaq niyyətində olan şəxsin bir və ya bir neçə konkret şəxsə ünvanlanan, müqavilənin mühüm şərtlərini ifadə edən və bu şəxsin təklifinə cavab verən hər bir şəxslə onun müqavilə bağlamaq iradəsində olduğunu göstərən təklif başa düşülür.

Müqavilənin bağlanmasının əsas məcburi mərhələlərindən olan aksept tərəflər arasında müqavilə münasibətlərinin əmələ gəlməsində həlledici əhəmiyyətə malikdir.

Aksept , ofertanın ünvanlandığı şəxsin ofertanı tam və qeyd- şərtsiz qəbul etməsi haqqında cavabdır. *Bu cavabın hüquqi əhəmiyyət kəsb etməsi və onu verən şəxs üçün hüquqi nəticə doğurması üçün vacibdir ki, o, müəyyən əlamətlərə uyğun gəlsin. Həmin əlamətləri özündə əks etdirməyən cavab aksept kimi qəbul edilmir və tanınmır. Bu əlamətlər qanunda nəzərdə tutulmuşdur.*

Akseptin birinci əlaməti *ondan ibarətdir ki, o, tam və qeyd-şərtsiz olmalıdır (MM-in 409.1-ci bəndi). Bu, o deməkdir ki, müqavilə bağlamaq barədə təklif alan şəxs, yəni ofertanın ünvanlandığı şəxs həmin təklifə prinsipial razılıq verməli və onu qəbul etməlidir. Əgər razılıq və cavab ofertada göstərilən şərtin dəyişdirilməsi, məhdudlaşdırılması və ya ona əlavələr edilməsi ilə müşayiət olunarsa, onda bu cür razılıq və cavab aksept kimi qəbul edilmir. Elə hallar olur ki, təklif alan şəxsin verdiyi cavabda müqaviləni ofertada nəzərdə tutulduğundan fərqlənən başqa şərtlərlə bağlamağa razılığı ifadə olunur. Bu, o deməkdir ki, oferta tam və qeyd-şərtsiz qəbul edilməmişdir. Belə cavab ofertadan imtina və eyni zamanda yeni təklif sayılır. Buna qarşılıqlı oferta da deyilir.*

Yeni (qarşılıqlı) ofertada tərəflər öz yerlərini dəyişirlər. Belə ki, əvvəlki təklifi verən şəxs yeni ofertada təklif alan şəxs rolunda, əvvəlki təklif alan şəxs isə təklif verən şəxs qismində çıxış edir.

Bəzi hallarda ofertanın tam və qeyd-şərtsiz qəbul edilməsindən müəyyən istisna hala yol verilir. Belə ki, bu cür hallarda ofertanın şərtləri tam həcmdə icra olunmur, lakin ofertada göstərilən şərtlərdən birinin yerinə yetirilməsi üçün müvafiq hərəkətlər edilməsi aksepti ifadə edir. Bu cür hərəkətlərin aksept kimi tanınması üçün vacibdir ki, o, aksept üçün müəyyənləşdirilmiş müddətdə icra edilsin. Göstərilən hərəkətlərin dairəsi kifayət qədər genişdir: malları yola salmaq; xidmətlər göstərmək; işlər görmək; müvafiq məbləği ödəmək və s. üçün hərəkətlər edilməsi. Məsələn, dəmir-beton məmulatı müəssisəsi sement istehsal edən müəssisəyə ona sement göndərmək barədə müqavilə bağlamaq təklifi ilə müraciət edir. Sement müəssisəsi təklifi (oferta- nı) alan kimi vaqonlarda dəmir yolu vasitəsilə kifayət qədər sement göndərir. Onun etdiyi bu cür hərəkət aksepti ifadə edir.

Beləliklə, oferta almış şəxsin onun aksepti üçün müəyyənləşdirilmiş müddətdə ofertada göstərilən müqavilə şərtlərini yerinə yetirmək üçün hərəkətlər etməsi aksept sayılır (MM-in 409. 4-cü bəndi). Buna konklyudent hərəkətlər deyilir. Göstərilən bu qayda dispozitiv xarakter daşıyır. Belə ki, ofertada ayrı qayda nəzərdə tutula bilər.

Bununla belə, təklifi alan şəxsin ***faktiki hərəkətləri də aksept sayıla bilər.*** *Təklif ümumi oferta formasında ifadə edildiyi hallarda, alıcı ödənişi həyata keçirməklə faktiki hərəkətlər edir.*

Susmaq aksept hesab edilmir *(MM-in 409. 3-cü bəndi). Müqavilə bağlamaq barədə təklif alan şəxs ona münasibət bildirməyib susursa, bu, aksept sayılmır.*

Susmağı aksept hesab etməyən qanun norması imperativ yox, dispozitiv xarakter daşıyır. Belə ki, MM-dən, işgüzar adətdən və ya tərəflərin əvvəlki işgüzar münasibətlərindən ayrı qayda da irəli gələr bilər. Məsələn, ticarət agenti haqqında müqavilənin müddəti başa çatır. Ticarət agenti yenidən müqavilə bağlamaq təklifi ilə tapşırana müraciət edir. Əgər tapşıran dinmirsə, susursa və ticarət agenti öz fəaliyyətini davam etdirirsə, müqavilə qeyri-müəyyən müddətə bağlanmış hesab edilir. Bu halda aksept susmaq formasında həyata keçirilir.

Akseptin ikinci əsas əlaməti *ondan ibarətdir ki,* ***o, vaxtlı-vaxtında, tələb olunan müddətdə həyata keçirilməlidir.*** *Müqavilənin bağlanma praktikasında aksept üçün müddətin böyük əhəmiyyəti vardır. Yalnız tələb olunan müddətdə, vaxtlı-vaxtında həyata keçirilən aksept hüquqi əhəmiyyətə malik olur və hüquqi nəticə əmələ gətirir, yəni müqavilənin bağlanmasını şərtləndirir. Akseptin vaxtlı-vaxtında həyata keçirilməsi onun aşağıdakı müddətlərdə yerinə yetirilməsini əhatə edir:*

- *ofertada aksept üçün nəzərdə tutulmuş müddətdə;*
- *qanunda aksept üçün müəyyənləşdirilmiş müddətdə;*
- *aksept üçün zəruri olan müddət ərzində;*
- *aksept dərhal bildirildikdə.*

Birinci halda oferent, yəni müqavilə bağlamaq barədə təklif edən şəxs ***ofertada aksept üçün müddət müəyyənləşdirir.*** *Təklifi alan şəxsin, yəni akseptantın borcudur ki, aksepti bu müddət ərzində həyata keçirsin . Akseptin göstərilən müddət ərzində həyata keçirilməsi hüquqi əhəmiyyət kəsb edir. Belə ki, oferent (ofertanı göndərmiş şəxs) aksepti ofertada nəzərdə tutulan müddət ərzində aldıqda, müqavilə bağlanmış sayılır (MM-in 409-cu maddəsinin 7-ci bəndi). Özü də dərhal qeyd etməliyik ki, aksept haqqında bildirişin oferentə göndərildiyi vaxt müddəti yox, ancaq həmin bildirişin oferent tərəfindən alındığı vaxt müddəti hüquqi əhəmiyyətə malik olur, yəni müqavilənin bağlanmasını şərtləndirir. Ona görə də akseptant aksept barədə bildirişi elə hesabla göndərməyə çalışmalıdır ki, həmin bildiriş ofertada nəzərdə tutulan müddətdə oferentə çatsın.*

İkinci halda akseptant ***qanunda aksept üçün müəyyənləşdirilmiş müddətdə*** *oferentə cavab verməlidir, yəni aksept barədə bildiriş göndərməlidir. Bu cür müddət yazılı oferta üçün xarakterikdir. Belə ki, yazılı ofertada aksept üçün müddət nəzərdə tutulmur. Bu halda aksept üçün müddəti müəyyən etmək üçün qanunda göstərilən müddət əsas kimi götürülür.*

Üçüncü halda akseptant ***aksept üçün zəruri olan müddət ərzində*** *oferentə aksept barədə bildiriş göndərməlidir. Bu cür müddətdən oferta yazılı formada verildiyi hallarda istifadə edilir. Bundan əlavə, həmin müddət o halda tətbiq olunur ki, birincisi, yazılı ofertada aksept üçün müddət müəyyənləşdirilməsin, ikincisi, aksept üçün müddət qanunda nəzərdə tutulmasın. Aksept* ***üçün zəruri olan müddət*** *dedikdə, normal (ağlabatan) lazımi müddət başa düşülür. Zəruri olan müddəti təyin edərkən ofertanın predmeti, təklif verən şəxsdən təklif getməsi müddəti, verilmiş təklifin məzmunu ilə tanış olmaq və ona cavab vermək üçün kifayət edən vaxt, təklif alan şəxsin iş icraatının təşkili və digər amillər nəzərə alınır. Oferta göndərmiş şəxs aksepti aksept üçün zəruri olan müddət ərzində almış olduqda, müqavilə bağlanmış hesab olunur.*

Dördüncü halda aksept üçün müddət ***təklif alan şəxsin aksept***

bildirişin dərhal verməsi *ilə bağlı olaraq müəyyən edilir. Bu cür müddətdən o halda istifadə olunur ki, hər şeydən əvvəl, oferta şifahi formada verilsin. Vətəndaşlar məişət münasibətləri sferasında konsensual müqavilələr bağladıqları zaman, bir qayda olaraq, əsasən şifahi formada oferta verirlər. Real müqavilələr bağlanarkən bu cür oferta göndərilmir. Bundan əlavə, vacibdir ki, şifahi formalı ofertada aksept üçün müddət göstərilməsin. Hər iki şərt olduqda, akseptant aksept barədə dərhal bildiriş verir. Bununla da müqavilə bağlanmış sayılır. Bu xüsusi qayda ilə o müqavilələr bağlanır ki, onların barəsində qanun yazılı forma tələb etmir və nəzərdə tutmur.*

Göstərdiyimiz hallardan başqa, qalan hallarda akseptin vaxtında həyata keçirilməsi ofertanın ünvanında olan şəxsə verilməsindən asılı olaraq müəyyən edilir. Belə ki, ünvanında olan şəxsə verilmiş oferta dərhal qəbul edilməli və ya ondan imtina olunmalıdır. Ünvanında olmayan şəxsə verilmiş oferta isə yalnız oferta verilmiş şəxsin, adətən, cavab gözləyə biləcəyi müddətədək qəbul edilə bilər .

Bəzən oferta vermiş şəxs aksepti tələb olunan müddətdə almır. Başqa sözlə desək, akseptantdan aksept alınması gecikdirilir. Buna ***alınması gecik dirilən aksept*** *deyilir. Bu cür aksept, ümumi qaydaya görə, müqavilənin bağlanmasına gətirib çıxarmır. Lakin müəyyən tələb olunan şərt əsasında oferentə gec çatan aksept müqavilənin bağlanmasına dəlalət edə bilər. Başqa sözlə desək, müqavilənin taleyi bu halda oferentdən asılı olur. Belə ki, oferent ya gecikdirilən cavaba məhəl qoymayaraq, müqavilənin bağlanması ilə razılaşır, ya da onun təklifinə verilən cavabın gecikdirilməsinə görə müqavilə bağlanmaqdan imtina edir.*

Beləliklə, alınması gecikdirilən aksept, əgər oferent onu qəbul etməsə, hüquqi nəticə yaratmır, yəni müqavilənin bağlanmasına dəlalət etmir. Oferta üçün gecikmiş aksept yeni oferta sayılır (MM-in 410. 1-ci bəndi).

Akseptantın ***aksepti geri götürmək hüququ*** *vardır. Bu, onu ifadə edir ki, o, müqavilənin bağlanmasına verdiyi razılıqdan imtina edə bilər. İki halda bildiriş akseptin geri götürülməsinə dəlalət edir. Birinci halda,* ***əgər bildiriş oferentə akseptdən əvvəl çatarsa,*** *bu, akseptin geri götürülməsinə səbəb olur. Əgər bildiriş akseptdən sonra oferentə çatarsa, bu, akseptin geri götürülməsi üçün əsas olmur. Bu halda aksept oferent tərəfindən alınmış hesab edilir.*

İkinci halda akseptin geri götürülməsi haqqında ***bildiriş akseptlə eyni vaxtda oferentə çatır.*** *Bu cür məqam da akseptin geri götürülməsini ifadə edir. Bu, onu göstərir ki, aksept oferent tərəfindən alınmamışdır, akseptant tərəfindən geri götürülmüşdür.*

Müqavilələr bağlanarkən müqavilənin bağlanması anının və müqavilənin bağlandığı yerin çox vacib əhəmiyyəti vardır. Müqavilənin bağlanması anı ona görə mühüm əhəmiyyət kəsb edir ki, müqavilə bağlayan tərəflərin hüquq və vəzifələrinin əmələ gəlməsi bu anla şərtlənir. Məhz bu andan müqavilə iştirakçıları üçün hüquqi nəticə yaranır, yəni mülki hüquq münasibətləri əmələ gəlir, dəyişir və ya xitam olunur. Müqavilənin bağlanması anını təyin etmədən müqavilədə nəzərdə tutulan hüquq və vəzifələrin yaranma məqamını müəyyənləşdirmək qeyri-mümkündür. Buna görə də qüvvədə olan mülki qanunvericilik müqavilənin bağlanması anına xüsusi əhəmiyyət verir və onun tənzimlənməsinə ayrıca norma həsr edir (MM-in 407).

Müqavilənin bağlanması anını müəyyənləşdirmək üçün üç qayda mövcuddur:

- *konsensual müqavilələrin bağlanması haqqında qayda;*
- *real müqavilələrin bağlanması haqqında qayda;*
- *dövlət qeydiyyatına alınması tələb olunan müqavilələrin bağlanması haqqında qayda.*

Konsensual müqavilələrin bağlanması haqqında qaydanın mahiyyəti ondan ibarətdir ki, konsensual müqavilələr oferta göndərmiş şəxsin onun akseptini aldığı anda bağlanmış sayılır. Bu, o deməkdir ki, tərəflər, yəni oferent və akseptant sazişə və razılığa gəldikləri andan konsensual müqavilə bağlanmış hesab edilir. Tərəflərin sazişə və razılığa gəlmələri anı oferentin aksepti aldığı məqamdır. Məsələn, alqı-satqı, mal göndərmə, pərakəndə alqı-satqı, kirayə, icarə, françayzinq, lizinq və s. müqavilələrin bağlanması anı tərəflərin sazişə və razılığa gəlmələri vaxtı ilə şərtlənir.

Real müqavilələrin bağlanması haqqında qaydanın mahiyyəti ondan ibarətdir ki, real müqavilələr tərəflərin sazişindən (yəni oferentin aksepti almasından) əlavə, əmlakın verildiyi andan bağlanmış sayılır. Müqavilənin bağlanmış hesab edilməsi üçün həm də zəruridir ki, müvafiq tərəf müqavilənin predmeti olan əmlakı digər tərəfə versin. real müqavilələrin bağlanma anı əmlakın verilmə məqamı ilə şərtlənir. Məsələn, yükdaşıma, saxlama, bank əmanəti və renta müqavilələri real müqavilə sayılır.

Dövlət qeydiyyatına alınması tələb olunan müqavilələrin bağlanması haqqında qaydanın mahiyyəti ondan ibarətdir ki, müqavilə üzrə hüquqların dövlət qeydiyyatına alınması nəzərdə tutulan müqavilələr, bu hüquqların qeydə alındığı andan bağlanmış sayılır. Dövlət qeydiyyatı daşınmaz əmlakın dövlət reyestrində aparılır. Dövlət reyestrində qeydə alınmalı olan müqavilələrin dairəsi qanunla müəyyən edilir: daşınmaz əmlakın alqı-satqı müqaviləsi (MM-in 647m) Bu cür müqavilələrin dövlət reyestrində qeydiyyata alınması anı həmin müqavilələrin bağlanması məqamını ifadə edir və dərhal müqavilənin notariat qaydasında təsdiqlənməsi tələb edilir.

Müqavilənin bağlandığı yer də mühüm əhəmiyyətə malikdir. Müqavilənin bağlandığı yer tərəflərin razılığı ilə müqavilədə göstərilməklə təyin edilə və müəyyənləşdirilə bilər. Çox vaxt müqavilə bağlayan tərəflərdən birinin olduğu yer müqavilənin bağlandığı yer kimi nəzərdə tutulur. Bununla belə, tərəflər razılığa gələ bilərlər ki, müqavilənin predmeti olan əmlakın yerləşdiyi yer və ya müqavilə bağlamaq barədə danışıqların aparıldığı yer müqavilənin bağlandığı yer kimi müəyyənləşdirilsin.

Müqavilədə onun bağlandığı yer göstərilməyə də bilər. Bu halda qanun müqavilənin bağlandığı yeri oferentin (ofertanı göndərmiş şəxsin) yaşayış yeri (və ya olduğu yer) ilə bağlayır və əlaqələndirir. Əgər oferent fiziki şəxs olarsa, onun yaşayış yeri müqavilənin bağlandığı yer hesab edilir. Yox əgər oferent rolunda hüquqi şəxs çıxış edərsə, onun olduğu yer müqavilənin bağlandığı yer sayılır. Müqavilənin bağlandığı yerin müəyyən edilməsinin əhəmiyyəti bir neçə amillə şərtlənir. 1) Müqavilənin bağlandığı yeri müəyyənləşdirməklə müqaviləyə tətbiq edilən normativ aktı təyin etmək mümkün olur. 2) Əvəzli müqavilələrdə qiyməti müəyyən edərkən müqavilənin bağlandığı yer böyük əhəmiyyətə malik olur. Belə ki, bəzi hallarda əvəzli

müqavilədə qiymət nəzərdə tutulmur və onu müqavilə şərtlərinə əsasən müəyyənləşdirmək mümkün olmur. Bu cür vəziyyətdə müqavilə bağlandığı yerdə müqayisəyə gələ bilən oxşar mallar, işlər və ya xidmətlər üçün, adətən, alınan qiymət əsas kimi götürülür. 3) Müqavilə şərtlərinin təfsirində müqavilənin bağlandığı yer böyük rol oynaya bilər.

Müqavilə bağlandığı andan qüvvəyə minir (MM-in 399 .1-ci bəndi). Deməli, qanun müqavilənin hüquqi qüvvəyə minməsi anını müqavilənin bağlanması anı ilə əlaqələndirir. Müqavilənin qüvvədə olma müddəti tərəflərin sazişi və razılığı ilə müəyyən edilir. Bu müddət konkret təqvim tarixi ilə və ya illər, aylar, həftələr, günlər və s. hesablanan vaxtın bitməsi ilə müəyyənləşdirilir. Müqavilə həm də qeyri-müəyyən müddətə bağlana bilər. Tərəflər müqavilədə nəzərdə tuta bilərlər ki, o, qeyri-müəyyən müddətə bağlanır. Ticarət agenti, tapşırıq, icarə, kirayə, əvəzsiz istifadə, borc və digər müqavilələr müddətsiz (yəni qeyri-müəyyən müddətə) bağlana bilər.

Müqavilənin hüquqi qüvvəyə minməsi tərəflər üçün hüquq və vəzifələr yaradırsa, müqavilənin qüvvədə olma müddətinin başa çatması isə tərəflərin müqavilə üzrə öhdəliklərinin xitamına səbəb olur.

41. Qanunvericilik müqavilənin qüvvədə olma müddəti ərzində onun dəyişdirilməsi və ləğv edilməsinin mümkünlüyü haqqında hansı qaydaları müəyyən edir? (20bal)

Mülki qanunvericilik müqavilənin qüvvədə olma müddəti ərzində onun dəyişdirilməsi və ləğv edilməsinin mümkünlüyü haqqında qayda müəyyən edir (MM-in 421-424-cü maddələri). Bu qaydaya görə, qanunda nəzərdə tutulan hüquqi faktlar mövcud olduqda, bağlanmış müqavilələr dəyişdirilir və ya xitam edilir. Həmin hüquqi faktlara ***müqavilənin dəyişdirilməsi və ləğv edilməsinin əsaslan (üsulları) deyilir.***

Müqavilənin dəyişdirilməsi dedikdə, müqavilənin bütövlükdə hüquqi qüvvəsini saxlamaqla onun bu və ya digər şərtinin, habelə müqavilə öhdəliyinin icrası ilə bağlı olan şərtin əvvəlki şərtlərə nisbətən yenidən formula edilməsi başa düşülür. Müqaviləyə əlavələr edilməsi, onda dəqiqləşdirmələr aparılması və s. də müqavilənin dəyişdirilməsini ifadə edir. Müqavilənin dəyişdirilməsi nəticəsində onun əvvəlki məzmunu, əsasən, dəyişmir.

Müqavilənin ləğv edilməsi dedikdə, onun hüquqi qüvvəsinə xitam verilməsi başa düşülür. Müqavilənin ləğv edilməsi həmişə onun vaxtından əvvəl xitam olunmasına səbəb olur.

Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi əsasları (üsulları) qanunvericiliklə müəyyən edilir. Bu əsasların (üsulların) dairəsi bir o qədər də geniş və əhatəli deyil. Müqavilənin dəyişdirilməsi və ləğv edilməsinin ən başlıca əsası (üsulu) tərəflərin sazişindən və razılaşmasından ibarətdir (MM-in 421. 1-ci bəndi).

*Müqavilənin dəyişdirilməsinin və ləğv edilməsinin ikinci əsası (üsulu) tərəf**lərdən birinin tələbindən** ibarətdir (MM-in 421. 2-ci bəndi). Bu üsul müqavilənin tərəflərdən birinin tələbi əsasında dəyişdirilməsini və ya ləğv edilməsini nəzərdə tutur. Qanunvericilik göstərilən qaydada müqavilənin dəyişdirilməsinin və ləğv edilməsinin iki halını nəzərdə tutur:*

• tərəflərdən birinin müqaviləni mühüm (əhəmiyyətli) dərəcədə pozması nəticəsində müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi ;

• qanunda və ya müqavilədə nəzərdə tutulan hallar əsasında müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi .

Birinci halda müqaviləni bağlayan tərəflərdən biri müqaviləni mühüm dərəcədə pozur. Mühüm (əhəmiyyətli) dərəcədə pozuntu digər tərəfə vurulan elə bir zərərdir ki, bu zərər nəticəsində həmin tərəf müqavilə bağlanarkən güman və ümid etməyə haqqı çatanlardan xeyli dərəcədə məhrum olur. Pozuntu o halda mühüm xarakterə malik olur ki, bu pozuntu, digər tərəfə müqavilənin məqsədinə nail olunmasına imkan vermir. Mühüm pozuntunun vurduğu zərər (ziyan) özündə həm çəkilən əlavə xərcləri, həm də nəzərdə tutulan mümkün gəlirlərin əldə edilməməsini, habelə müvafiq tərəfin mənafeyinə mühüm dərəcədə toxunan digər nəticələri birləşdirir. Deməli, «mühüm» anlayışı iqtisadi meyara əsaslanır.

İkinci məqamda qanunda və ya müqavilədə nəzərdə tutulan hallar müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi üçün əsas olur.

*Müqavilənin dəyişdirilməsinin və ya ləğv edilməsinin üçüncü əsası (üsulu) **müqavilənin tamamilə və ya hissə-hissə icrasından imtina edilməsi** ad**lanır** (MM-in 421. 3-cü bəndi). Özü də dərhal qeyd etməliyik ki, belə imtinaya qanun və ya tərəflərin razılaşması ilə yol verildikdə, müqavilə ləğv edilə və ya dəyişdirilə bilər. Müqavilənin dəyişdirilməsinin və ya ləğv edilməsinin üçüncü üsulunun mahiyyəti ondan ibarətdir ki, tərəflər müqavilə və ya qanunla onlara verilmiş hüququ gerçəkləşdirərək, müqavilədən birtərəfli qaydada heç bir dəlil, motiv, arqument gətirmədən imtina edirlər. Müqavilədən imtina müqavilənin icrasından imtina etməyi ifadə edir. Müqavilənin icrasından imtina isə iki cür olur: müqavilənin tamamilə icrasından birtərəfli imtina; müqavilənin hissə-hissə (qismən) icrasından birtərəfli imtina. Müqavilənin tamamilə icrasından imtina dedikdə, elə bir hüquqi fakt başa düşülür ki, bunun əsasında müqavilə ləğv edilir. Müqavilənin qismən icrasından imtina dedikdə, müqavilənin ləğv edilməsinə yox, ancaq onun dəyişdirilməsinə əsas olan hüquqi fakt başa düşülür. Beləliklə, birinci hal (tamamilə icradan imtina) müqavilənin ləğv edilməsinə, ikinci hal (qismən icradan imtina) isə müqavilənin dəyişdirilməsinə səbəb olur.*

***Şəraitin mühüm (əhəmiyyətli) dərəcədə dəyişməsi müqavilənin dəyişdirilməsinin və ləğv edilməsinin** dördüncü əsasıdır (MM-in 422-ci maddəsi). Tərəflər, bir qayda olaraq, müqavilə öhdəliklərini yerinə yetirməyə borcludurlar. Müqavilənin icrası onlar üçün məcburidir. Lakin müqavilə bağlanarkən tərəflərin əsas kimi götürdükləri şərait mühüm dərəcədə dəyişə bilər. Həyat qabaqcadan müəyyən edilməsi, habelə görünməsi mümkün olmayan qeyri-adi, təsadüfi, mənfi nəticələrə gətirib çıxaran hadisə və hallarla doludur. Bu cür həyati hallara təbii fəlakəti, hərbi əməliyyatları, səlahiyyətli dövlət hakimiyyəti orqanlarının aktlarını, bağlanmış müqavilənin icrasının əvvəlcə nəzərdə tutulduğundan və*

müəyyənləşdirildiyindən daha çox xərclər tələb etməsini, inflyasiyanı və s. misal göstərmək olar. Şübhəsiz ki, mövcud olan həmin faktlar müqavilə iştirakçılarına onların öz müqavilə öhdəliklərini tamamilə və qismən icra etmələrinə imkan vermir. Bu faktların obyektiv olaraq təsir göstərməsi nəticəsində şərait mühüm (əhəmiyyətli) dərəcədə dəyişir. Bu isə, öz növbəsində, artıq müqavilə bağlayan tərəflərin əmlak (maddi) mənafeyinin tarazlığını və balansını pozur. Bu cür hal müqavilənin dəyişdirilməsini və ya ləğv edilməsini zərurətə çevirir. Ona görə də şəraitin dəyişməsi nəticəsində özünün mənafe balansı pozulan tərəf bağlanmış müqavilənin həmin şəraitə uyğunlaşdırıimasını, yəni dəyişdirilməsini və ya ləğv edilməsini qarşı tərəfdən tələb edir. Şəraitin yalnız mühüm dərəcədə dəyişməsi həmin tərəfə bu cür hüquq verir. Şəraitin dəyişməsini mühüm dərəcədə dəyişmə hesab etmək üçün iki əlamətdən birinin olması tələb olunur:

• bu cür dəyişməni tərəflər əvvəlcədən görə bilsəydilər, müqaviləni, ümumiyyətlə, bağlamazdılar;

• bu cür dəyişməni tərəflər əvvəlcədən görə bilsəydilər, müqaviləni mühüm və xeyli dərəcədə fərqlənən şərtlərlə bağlayardılar.

Göstərilən hallardan biri olduqda, tərəflərin qarşılıqlı razılığı əsasında müqavilə dəyişdirilir və ya ləğv edilir. Əgər tərəflər razılığa gəlməsələr, maraqlı tərəf məhkəməyə müraciət edir. Məhkəmə müqavilənin ləğv edilməsi barədə qərar qəbul edir.

42.Qanunvericilik müqavilənin qüvvədə olma müddəti ərzində onun dəyişdirilməsi və ləğv edilməsinin mümkünlüyü haqqında hansı qaydaları müəyyən edir? (5 bal)

İqdisadi dövriyyəyə daxil olan münasibətlərin öhdəlik hüquq normaları ilə nizama salınması nəticəsində öhdəlik hüquq münasibətləri yaranır. Mülki hüquqda isə öhdəlik hüquq münasibətləri "öhdəliklər" kimi qəbul edilir. Öhdəliklər maddi nemətlərin bir şəxsdən digər şəxsə keçməsi ilə yaranır. Ona görə də öhdəliklər bu prosesdə iştirak edən subyektlər tərəfindən müəyyən olunur. Başqa hüquq münasibətlərində olduğu kimi öhdəlik hüquq münasibətlərində də iki və ya çox tərəf iştirak edir. Maddi nemətlərin dövriyyəsi aktiv hərəkətlərdən ibarət olduğu üçün öhdəlik hüquq münasibətlərində bir tərəf öhdəliyin icrasını tələb etməyə səlahiyyətli olduğu halda, digər tərəf onu icra etməyə borclu olur. Deməli, burada hər iki tərəf aktiv hərəkətlər edir. Bir sözlə, öhdəlik dedikdə iqtisadi dövriyyənin iştirakçıları olan şəxslər arasında yaranan elə hüquq münasibətləri başa düşülür ki, bu zaman bir şəxs digər şəxsin tələbi ilə onun xeyrinə müəyyən hərəkətlər etməyə (əmlak və ya pul verməyə, iş yerinə yetirməyə, xidmətlər göstərməyə və s.) borclu olur.

Öhdəlik münasibətlərinin iştirakçıları hüquq və vəzifələrini həyata keçirərkən vicdanlılıq prinsiplərinin tələblərinə əməl etməli, müqavilənin şərtlərini pozmamalı

və məhkəmə mübahisələrinə səbəb ola biləcək hərəkətlərə yol verməməlidirlər.

Mülki hüququn istənilən subyekti, yəni hüquqi şəxslər, fiziki şəxslər, bələdiyyələr və Azərbaycan Respublikası (dövlət) öhdəlikdə həm kreditor, həm də borclu şəxs rolunda çıxış edə bilərlər. Öhdəlik hüquq münasibətlərində həm kommersiya təşkilatları, həm qeyri-kommersiya təşkilatları, həm istehlakçı vətəndaşlar, həm də sahibkar statuslu vətəndaşlar iştirak edə bilərlər.

Öhdəliyin məzmunu dedikdə, tərəflərin hüquq və vəzifələri başa düşülür. Kreditorun tələb hüququ və borclu şəxsin müəyyən hərəkətləri etmək vəzifəsi öhdəlik hüquq münasibətinin məzmununu təşkil edir. Öhdəlikdə tərəflərin hüquq və vəzifələri vahiddir. Bir tərəfin malik olduğu hüquqa digər tərəfin daşıdığı vəzifə uyğun gəlir. Öhdəlik əmlak hüquq münasibəti olduğuna görə borclu şəxsin etdiyi hərəkətlər əmlak xarakterinə malikdir. Belə ki, onun əmlakın verilməsinə, iş görülməsinə, xidmət göstərilməsinə, pul verilməsinə və s. yönələn hərə-kətləri mülki dövriyyə subyektlərinin əmlak mənafeyinin ödənilməsinə yönəlir. Bununla belə, borclu şəxsin etdiyi hərəkətlər qeyri-əmlak xarakterli də ola bilər. Məsələn, tapşırıq müqaviləsi əsasında tapşıran vəkalət alana hər hansı bir sənəd almaq üzrə hərəkət etmək tapşırığı verir. Bu halda borclunun hərəkəti qeyri-əmlak təbiətinə malikdir. Lakin borclu şəxsin qeyri-əmlak xarakterli vəzifə daşıması öhdəliyin təbiətinə təsir göstərmir. O, yenə də əmlak xarakterli hüquq münasibəti olmaqda qalır.

Öhdəliyin əmələ gəlmə əsasları dedikdə, öhdəlik hüquq münasibətlərinin əmələ gəlməsini şərtləndirən, onların yaranmasına dəlalət edən, qanunda nəzərdə tutulan və qanunun əlaqələndirdiyi hüquqi faktlar başa düşülür. Başqa sözlə desək, öhdəliklər hüquqi faktlar əsasında əmələ gəlir. Qanun öhdəliyin tərəfləri üçün hüquq və'vəzifələr'müəyyənləşdirilməsini bu faktlarla əlaqələndirir. Öhdəliyin əmələ gəlməsini şərtləndirən hüquqi faktların dairəsi kifayət qədər genişdir. Bu faktların təxmini dairəsi qanunda müəyyənləşdirilmişdir. MMin 386-cı maddəsi öhdəliyin əmələ gəlməsi əsaslarını tənzimləyir. Öhdəliyin əmələ gəlməsinin ən geniş yayılmış əsası müqavilədir. Bu cür müqavilələrin sayı kifayət qədər çox və müxtəlifdi. Bazar münasibətləri şəraitində müqavilə iqtisadi əlaqələri tənzimləyən ən universal hüquqi alət kimi çıxış edir. O, normal əmtəə-mal dövriyyəsinin və prosesinin əsası rolunu oynayır. Azad sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul olmaq üçün mülki hüququn subyektləri müxtəlif müqavilələr bağlayırlar. Özü də onlar müqavilə bağlamaqda müstəqildir. Müqavilə azadlığı mülki qanunvericiliyin əsas prinsiplərindən biridir (MM-in 6-cı maddəsi).

Öhdəliyin əmələ gəlmə əsaslarından biri birtərəfli əqdlərdir (hərəkətlərdir). Ata öz itmiş uşağını tapan şəxsə televiziya vasitəsilə xüsusi mükafatlandırma vədi barədə açıq elan verir. Uşaq tapılır. Onu tapan şəxsə nəzərdə tutulan mükafat verilir. Bu halda atanın birtərəfli hərəkətindən (əqddən) xüsusi mükafatlandırma

öhdəliyi yaranır (MM-in 1079-cu maddəsi).

Hakimiyyət aktları öhdəliyin əmələ gəlmə əsaslarından biridir. Bu akt həmin aktdan yaranan öhdəliyin məzmununu müəyyən edir.

Hakimiyyət aktlarından biri sayılan məhkəmə qərarları əsasında da öhdəlik yarana bilər. Belə halda məhkəmə qərarı öhdəliyin əmələ gəlməsini şərtləndirən hüquqi fakt kimi çıxış edir.

Öhdəliyin əmələ gəlməsini şərtləndirən əsaslardan biri mülki hüquq subyektlərinə vurulan ziyandan ibarətdir. Belə hallarda şəxsin hüquqazidd hərəkəti, yəni mülki hüquq pozuntusu öhdəliyin əmələ gəlməsinə səbəb olan hüquqi fakt rolunu oynayır. Bu cür mülki hüquq pozuntusu delikt adlanır. Qanun müəyyən edir ki, başqa şəxsə zərər vurmaq mülki hüquq və vəzifələrin əmələ gəlməsi əsaslarından biridir (MM-in 14.2 6).

Öhdəliyin əmələ gəlmə əsaslarından biri əsassız varlanmadır. Qanun əsassız varlanmanın mülki hüquq və vəzifələrin əmələ gəlmə əsaslarından biri kimi nəzərdə tutur.

Öhdəliyin əmələ gəlmə əsaslarından biri hadisələrdir. Hadisələr insan iradəsindən asılı olmayaraq baş verən hüquqi faktlardır. Hüquqi əməllər kimi hadisələr də öhdəliyin əmələ gəlməsinin geniş yayılmış əsası hesab edilmir. Lakin real həyatda hadisələrin öhdəliyin yaranmasına əsas olan hüquqi faktlar kimi çıxış etməsi halına rast gəlmək mümkündür. Məsələn, naviqasiya mövsümi hadisədir. Bu, yazın gəlməsi və havaların isinməsi ilə bağlı oiaraq, çay və dənizlərdə buzun əriməsi, bunun nəticəsində isə su yolu ilə yük daşınmasına imkan verən mövsümdür. Naviqasiya mövsümünün açılması ilə yük daşıma öhdəliyi yaranır və icra edilir, yəni çay və dəniz nəqliyyatı ilə yük təyinat məntəqəsinə daşınır.

43. Qarantın prinsipiala qarşı reqres tələbləri. (5bal)

Qarantiyanın formasına gəldikdə isə qeyd etmək lazımdır ki, qanun qarantla prinsipal arasında bağlanan qarantiya verilməsi haqqında müqavilədən fərqli olaraq, qarantiyanın forması haqqında konkret göstəriş ifadə edir. Belə ki, qarantiya yazılı formada verilir (MM-in 478-ci maddəsi). Bir qayda olaraq, qarantiya verilməsi «qarantiya məktubu» adlı sənədlə rəsmiləşdirilir. Qarantiya məktubu dedikdə, elə bir sənəd başa düşülür ki, bu sənədə görə, qarant həmin sənəddə göstərilən hal yarandıqda, benefisiarın xeyrinə nəzərdə tutulmuş məbləğdə və müddətdə pul öhdəliyini icra etməsini öz üzərinə götürür. Bu sənəd əsasında benefisiar pul verilməsini tələb etmək hüququ əldə edir. Qarantiya məktubu qarant rolunda çıxış edən hüquqi şəxsin rəhbəri (rəisi, müdiri, sədri, direktoru və s.) tərəfindən imzalanır. Bu sənədin baş mühasib tərəfindən imza edilməsi məcburi və

zəruridir4. Əgər qarantiya məktubu baş mühasibin imzası olmadan verilərsə, o, etibarsız hesab edilir

Qarantiya məktubu imzalandıqdan sonra benefisiara və ya prinsipala göndərilir. Onun qarantın öhdəliyi qəti və aydın formada formula edilməlidir. Qarantiyanın mətnində aksessor və subsidiar şərtlər olmamalıdır. Bu, benefisiar üçün çox vacibdir. Əgər qarantiyanın mətnində anlaşılmaz cəhətlər olarsa, onda, şübhəsiz ki, qarantiyanın gələcəkdə həyata keçirilməsi çətinləşər .

Qarantiya məktubu verilərkən xüsusən onun məzmununa diqqət yetirilməlidir. Qarantiya məktubunun məzmunu dedikdə, qarantiyanın şərtləri başa düşülür. Benefisiara ödənilməli olan pul məbləğinin miqdarı, qarantiyanın verilməsi müddəti əsas şərtlər hesab edilir. Bundan əlavə, qarantiya məktubun da qarantın, prinsipalın və benefisiarın adı, ödənişin həyata keçirilməsi qaydası və s. göstərilməlidir.

44. Öhdəliklərin icrasının təmin edilməsi üsullarının xüsusiyyətləri haqqında bəhs edin.(10bal)

Öhdəliklərin icrasının təmin edilməsi üsulları, hər şeydən əvvəl, qanunvericiliklə müəyyən edilir.

Beləliklə, öhdəliklərin icrasının təmin edilməsi üsulları dedikdə, qanunda və ya müqavilədə nəzərdə tutulan əmlak xarakterli elə xüsusi tədbirlər başa düşülür ki, bu tədbirlər öhdəliyin icrasını kifayət qədər təmin edir, borclunun lazımınca davranmasına (hərəkət etməsinə və ya hərəkətdən çəkinməsinə) təkan verir. Bu üsullardan istifadə olunmaqla borclu tərəfindən öhdəliklərin icra edilməməsi və ya lazımınca icra edilməməsi nəticəsində əmələ gələ bilən mümkün mənfi nəticələrin həcmi ya azaldılır, ya da bu cür nəticələrin yarana bilməsinin qarşısı alınır. Onlar öhdəliklərin icrasının əlavə təminat vasitələri adlanır.

Öhdəliklərin icrasının təmin edilməsi üsulları institutu müəyyən təyinata və məqsədə malikdir. O, müəyyən məqsəd güdür. Öhdəliklərin icrasının təmin edilməsi üsullarının əsas məqsədi bu üsulların yaranmasına dəlalət edən öhdəliyin (yəni əsas öhdəliyin) lazımınca icrasına köməklik göstərməkdən, bu icranı təmin etməkdən və ona zəmanət verməkdən ibarətdir. Lakin bu məqsədə nail olunmasının vasitələri müxtəlifdir. Təminat üsulları bir sıra xüsusiyyətlərə malikdir. Bu üsulların ən birinci xüsusiyyəti ondan ibarətdir ki, onlar əmlak xarakterlidir. Təminat üsullarının əmlak xarakteri daşıması dörd müxtəlif formada təzahür edir:

• birinci forma öhdəliyi icra etməyən və ya lazımınca icra etməyən borclunun müəyyən pul məbləği ödəməsində ifadə olunan əlavə əmlak itkisinə məruz qalmasını nəzərdə tutur (beh, dəbbə pulu);

• ikinci forma borclu tərəfindən öhdəlik icra edilmədiyi hallarda onun əmlakına tələb yönəldilməsini nəzərdə tutur (girov);

• üçüncü forma borclu öhdəliyi icra etmədiyi və ya lazımınca icra etmədiyihallarda üçüncü şəxsin əmlakına tələb yönəldilməsini nəzərdə tutur (qarantiya, zaminlik);

• dördüncü forma özünümüdafiə hüququnu həyata keçirmək üçün kreditorun borclunun əmlakını müvafiq öhdəlik icra edilənədək saxlamaq ixtiyarına malik olmasını nəzərdə tutur (saxlama).

Təminat üsullarının ikinci xüsusiyyəti ondan ibarətdir ki, bu üsulların hamısı öhdəlik hüquq xarakterinə malikdir. Həmin üsulların tətbiq edilməsi nəticəsində öhdəlik hüquq münasibəti (öhdəlik) yaranır. Bu öhdəliyin kreditoru qismində əsas öhdəliyin kreditoru çıxış edir. Təminat üsullarının yaranmasına dəlalət edən və səbəb olan öhdəlik əsas öhdəlik adlanır. Məhz əsas öhdəliyi icra etmək məqsədilə həmin təminat üsulları yaranır. Bu üsullarla bağlı yaranan öhdəlikdə borclu şəxs rolunda isə öhdəliyi təmin edən şəxs çıxış edir.

Təminat üsullarının tətbiq edilməsi ilə əlaqədar əmələ gələn münasibətlərin dairəsi kifayət qədər genişdir: dəbbə pulu alınması ilə bağlı yaranan hüquq münasibətləri (öhdəliklər); ipoteka hüquq münasibətləri; girov hüquq münasibətləri (girov öhdəlikləri); beh hüquq münasibətləri (beh öhdəlikləri); zaminlik hüquq münasibətləri (zaminlik öhdəlikləri); qarantiya hüquq münasibətləri (qarantiya öhdəlikləri); saxlama hüquq münasibətləri (saxlama öhdəlikləri).

Təminat üsullarının üçüncü xüsusiyyəti ondan ibarətdir ki, bu üsulların tətbiqi nəticəsində əmələ gələn öhdəliklər aksessor (əlavə) öhdəliklərdir; onlar müstəqil iqtisadi məqsəd güdmür. Məsələn, tərəflər alqı-satqı müqaviləsi bağlayırlar. Bu, əsas öhdəlikdir. Onlar alqı-satqı öhdəliyini, yəni əsas öhdəliyi lazımınca icra etmək üçün icranın gecikdirildiyi halda dəbbə pulu alınması barədə razılığa gəlirlər və bu barədə saziş bağlayırlar. Dəbbə pulu haqqında saziş əlavə öhdəlikdir. Əlavə öhdəliyin taleyi və müqəddəratı əsas öhdəlikdən asılıdır. Ona görə də əlavə öhdəlik əsas öhdəlikdən törəmədir, ondan asılıdır və müstəqil əhəmiyyətə malik deyildir. O, təmin edən öhdəlik adlanır.

Təminat üsullarının dördüncü xüsusiyyəti ondan ibarətdir ki, bu üsulların hamısı borclu üçün birbaşa və ya dolayı yolla əlavə yük yaradır. Məsələn, kreditor (məsələn, borcluya kredit vermiş bank) girov qoyulmuş əmlakın hesabına borcluya olan tələbini təmin edə bilər.

45. Beh müqaviləsinin funksiyalarını izah edin.(10bal)

Beh münasibətləri saziş (razılaşma) formasında rəsmiləşdirilir. Bu sazişin

formasını isə qanun xüsusi qaydada tənzimləyir. Belə ki, beh haqqında saziş (razılaşma) behin məbləğindən asılı olmayaraq yazılı formada olmalıdır Beh haqqında sazişin yazılı formada bağlanmasının mühüm əhəmiyyəti vardır. Bu, əgər belə olmazsa, ödənilən pul məbləğinin beh və ya avans (fransızca «avance» — gələcək ödənişin hesabına əvvəlcədən verilən pul məbləği) kimi verilməsini sübut etmək çətin olardı və müşkül məsələyə çevrilərdi.

Behin hüquqi mahiyyəti, mənası və rolu onun funksiyalarında təzahür edir. Behin funksiyaları dedikdə, onun hansı rol oynaması başa düşülür. Hüquq ədəbiyyatında behin üç əsas funksiyaya malik olması göstərilir:

• təminat (cərimə) funksiyasına;

• sübutetmə və ya təsdiqləmə funksiyasına;

• ödəniş funksiyasına.

Behin təminat funksiyası qanunun müəyyən etdiyi qayda ilə şərtlənir (MMin 492-ci maddəsinin 2-ci bəndi). Qanunun nəzərdə tutduğu bu qaydaya görə, müqavilənin icra edilməməsinə görə beh verən tərəf məsuldursa, beh digər tərəfdə (kontragentdə) qalır, əksinə, kontragent (digər tərəf) məsuldursa, o, behi qarşı tərəfə ikiqat məbləğdə qaytarmalıdır.

Müqaviləni icra etməkdən boyun qaçıran hər bir tərəf behin məbləğinə bərabər həcmdə məsuliyyət daşıyırlar. Beh münasibətinin iştirakçıları (beh verən və beh alan) şüurlu surətdə dərk edirlər ki, onlar müqaviləni icra etməsələr, qanunun müəyyən etdiyi qayda əsasında əmlak itkisinə məruz qala, yaxud müvafiq pul məbləğindən məhrum ola bilərlər. Müvafiq pul məbləğini itirməyin, arzuolunmaz mənfi nəticələrin yaranmasının mümkünlüyünün dərk olunması və nəzərə alınması beh iştirakçılarını əsas müqavilə öhdəliyini lazımınca icra etməyə təşviq edir və meyilləndirir. Müqavilə öhdəliyini icra etmədikləri təqdirdə beh miqdarı həcmində pul məbləğini itirmək qorxusu tərəfləri meyilləndirir ki, onlar müqavilə üzrə öz vəzifələrini lazımi qaydada yerinə yetirsinlər. Behin təminat (təkan vermək) funksiyasının mahiyyəti də məhz bundan ibarətfir.

Beləliklə, Azərbaycan Respublikasının mülki qanunvericiliyi behin təminat funksiyasının mahiyyətini şərtləndirən qayda (behin beh alanda qalması və ya behin ikiqat məbləğdə beh verənə qaytarılması qaydası) müəyyənləşdirmişdir.

Behin sübutetmə funksiyası şifahi formalı müqavilələr üçün mühüm əhəmiyyət kəsb edir və vacib rol oynayır. Müqavilə şifahi formada bağlananda yazılı sübut olmur. Belə' halda əgər beh verilərsə, onda o, şifahi formal müqavilənin bağlanmasını sübut edir və təsdiqləyir. Beh alınması və verilməsi həmin müqavilənin bağlanmış sayılmasına dəlalət edir.

Behin alınması və verilməsi yazılı formalı müqavilələrin bağlanmasında da

sübutetmə vasitəsi kimi çıxış edir.

Behin ödəmə funksiyası onda ifadə olunur ki, beh verməklə müvafiq tərəf (alıcı, kirayəçi, icarəçi və s.) müqavilə üzrə ona həvalə edilmiş digər tərəfə (satıcıya, kirayəyə verənə, icarəyə verənə) ödənişi həyata keçirmək vəzifəsinin bir hissəsini icra etmiş olur. Belə ki, müqavilə bağlayan tərəflərdən birinin ödədiyi beh məbləği onun digər tərəfə müqavilə üzrə verəcəyi ödənişin hesabına daxildir. Beh verən müqavilə iştirakçısı ödənişin bir hissəsini, bir qismini kontragentə vermiş olur. Behin ödəmə funksiyasının mahiyyəti də məhz bundan ibarətdir.

Qabaqcadan verilmək xüsusiyyəti behi avansa (fransızca — «avance») yaxınlaşdırır. Behlə avans arasında ümumi cəhətlər və xüsusiyyətlər çoxdur. Birinci ümumi cəhət ondan ibarətdir ki, beh kimi avans da sübutetmə funksiyasına malikdir. Belə ki, beh kimi avans da müqavilənin bağlanmasını təsdiq edir.

İkinci ümumi cəhət ondan ibarətdir ki, beh kimi avans da ödəmə funksiyasını həyata keçirir. Belə ki, o, əmlakın verilməsi, iş görülməsi, yaxud xidmət göstərilməsi üzrə müqavilələrə görə borclunun kreditora gələcəkdə verməli olduğu ödəmənin bir hissəsidir.

Üçüncü ümumi cəhət ondan ibarətdir ki, müqavilə öhdəlikləri lazımınca icra edildikdə, beh kim avans da son ödəmə hesabına daxil edilir (yəni hesablanır).

Bununla belə, behlə avans arasında fərqli cəhətlər və əlamətlər də vardır. Ən başlıca fərq ondan ibarətdir ki, behdən fərqli olaraq, avans təminat (cərimə) funksiyası yerinə yetirmir. Belə ki, əsas müqavilə öhdəliyi icra olunmadıqda, həm avansın, həm də behin ödəmə funksiyası itir. Beh və avans yalnız əsas öhdəlik lazımınca icra olunduqda ödəmə funksiyasına malik olur. Əsas öhdəlik icra olunmadıqda isə beh cərimə funksiyasını yerinə yetirməyə başlayır. Qeyd etdiyimiz kimi, bu funksiya onda ifadə olunur ki, əsas öhdəliyi icra etməməyə görə ya təqsirkar sayılan tərəf cərimə olunur, yəni beh məbləği ona qaytarılmır və ya ikiqat məbləğdə digər tərəfə qaytarılır. Bundan fərqli olaraq, əsas öhdəlik icra olunmadıqda, avans cərimə funksiyasını yerinə yetirmir. Bu, o deməkdir ki, avans geri qaytarılır.

46. Öhdəliklərin icrasının təmin edilməsi üsullarından biri kimi dəbbə pulunu izah edin.(10bal)

Azərbaycan Respublikası MM-in 462-ci maddəsi dəbbə puluna anlayış verir. Müqavilə ilə müəyyənləşdirilən, öhdəliyin icra edilmədiyi və ya lazımınca icra edilmədiyi, o cümlədən icranın gecikdirildiyi halda borclunun kreditora ödəməli olduğu pul məbləğinə dəbbə pulu deyilir. Dəbbə pulu öhdəliklərin icrasının təmin edilməsinin ən geniş yayılmış üsullarından biridir. Xüsusən sahibkarlıq fəaliyyəti

sferasında əmələ gələn öhdəliklərin icrasında dəbbə pulundan münasib təminat üsulu kimi geniş miqyasda istifadə edirlər. Mal göndərmə, daşıma, podrat və s. kimi müqavilələrin icrası dəbbə pulu ilə təmin olunur. Vətəndaşların iştirak etdiyi öhdəliklərdə də bu təminat üsulunun tətbiqi geniş xarakterə malikdir. Borc, icarə əmlak kirayəsi və digər müqavilələrin icrasının təmin edilməsində dəbbə pulunun köməyinə tez-tez bel bağlayırlar.


Dəbbə pulu müxtəlif əsas və meyarlara görə ayrı-ayrı növlərə bölünür. Əmələ gəlmə və müəyyənləşdirilmə əsasına görə dəbbə pulunun üç növü fərqləndirilir


- *qanuni dəbbə pulu;*
- *müqavilə dəbbə pulu;*
- *qarışıq dəbbə pulu.*

47. Zaminlik müqaviləsinə görə, zamin kreditor qarşısında, borclu tərəfindən öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda, öz üzərinə hansı məsuliyyəti götürür? (20bal)

Zaminlik müqaviləsi dedikdə, kreditorla zamin arasında bağlanan elə bir saziş başa düşülür ki, bu sazişə görə, zamin kreditor qarşısında, borclu tərəfindən öhdəlik icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda, həmin öhdəliyi tamamilə və ya hissə-hissə icra etməsi üçün öz üzərinə əmlak məsuliyyəti götürür.

48. Qarantiya üzrə yaranan münasibətdə çıxış edən subyektlərin dairəsini sxematik təsvir etməklə izah edin. (20bal)





Qarantiya ilə bağlı münasibət iki həlqədən ibarətdir: əsas (təmin olunan) öhdəlik

münasibətləri; qarantiya (təmin edən) münasibətləri. Əsas (ləmin olunan) öhdəlik

benefisiarla prinsipal arasında əmələ gəlir. Qarantiya isə qarantla benefisiar arasında yaranır.

Ümumən götürsək, qarantiya ilə bağlı (qarantiya üzrə) yaranan münasibətdə üç kateqoriya

subyekt çıxış edir: benefisiar; prinsipal; qarant. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan

Respublikasının MM-i həmin subyektləri adlandırarkən beynəlxalq praktikada rast gəlinən və

istifadə olunan terminləri tətbiq edir və işlədir.

Benefisiar (latınca «beneficium» — kömək, əl tutma) dedikdə, icrası qarantiya ilə təmin

olunan öhdəliyin elə bir kreditoru başa düşülür ki, onun tələbi ilə və onun xeyrinə olaraq

qarant müəyyən pul məbləğini ödəyir. O, prinsipalın kreditorudur. Mülki hüququn istənilən

subyekti benefisiar rolunda çıxış edə bilər. Nəzərdə tutulan münasibətdə çox vaxt benefisiar

qismində fiziki və ya hüquqi şəxslər iştirak edirlər.

Prinsipal (latınca «principalic» — əsas, başlıca) dedikdə, icrası qarantiya ilə təmin olunan

əsas öhdəliyin borclu şəxsi başa düşülür. Məhz onun xahişi ilə qarantiya verilir. Belə ki, o, qarantiya verilməsi barədə xahişlə qaranta müraciət edir. Prinsipal kredit, alqı-satqı, icarə,

podrat və s. Müqavilələrdən əmələ gələn öhdəlikdə borclu rolunda çıxış edən şəxsdir.

Qarantiya da onun xahişi ilə verilir. Əgər qarantiya bu cür xahiş olmadan verilərsə, onda o,

etibarsız hesab ediləcəkdir. Pozulur (MM-in 337) Hüququn istənilən subyekti prinsipial

rolunda çıxış edə bilər.

Qarant (fransızca «garant» — təmin edən) dedikdə, elə bir subyekt başa düşülür ki, o,

müəyyən pul məbləğinin ödənilməsi barədə benefisiar tərəfindən yazılı tələb təqdim

olunduğu halda həmin məbləği ödəyəcəyi barədə yazılı öhdəlik verir. O, prinsipalın xahişi ilə

əsas öhdəliyin icrasını təmin etmək üçün qarantiyarən şəxsdir. Məhz onunla prinsipal

arasında qarantiya öhdəliyi yaranır. Bu öhdəlik onunla xarakterizə olunur ki, o, spesifik

subyekt tərkibinə malikdir, yəni qarant rolunda spesifik hüquq subyektliyinə malik olan

şəxslər çıxış edirlər. Qanun qarant qismində qarantiya öhdəlik münasibətlərində çıxış edən

subyektlərin dairəsini dəqiq olaraq müəyyən edir (MM-in 478-ci maddəsi):

Bank;

Digər kredit idarəsi;

Sığorta təşkilatı.

Bank dedikdə, fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb

edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə

köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxs başa

düşülür. Digər kredit idarəsi dedikdə, bank olmayan kredit təşkilatı başa düşülür. Bank

olmayan kredit təşkilatı isə ayrı-ayrı bank əməliyyatlarını həyata keçirmək üçün Milli Bankdan

lisenziya almış hüquqi şəxsdir. Kredit təşkilatının qarantiya verməsi bank əməliyyatlarının bir

növüdürş Kredit təşkilatının qarantiya verməsi bank əməliyyatlarının bir növüdür. Bu,

birbaşa qanunda göstərilmişdir.

Qarant rolunda təkcə kredit təşkilatları (banklar, bank olmayan digər kredit idarələri) yox,

həm də sığorta təşkilatları çıxış edə bilər. Sığorta təşkilatı dedikdə, yalnız sığorta və təkrar

sığorta fəaliyyəti göstərmək məqsədilə yaradılmış, qanunvericiliklə müəyyənləşdirilmiş

qaydada xüsusi razılıq almış hüquqi şəxs başa düşülür. Sığorta təşkilatı sığortaçıdır. Sığortaçı

rolunda isə həm hüquqi şəxslər, həm də hüquqi şəxs yaratmadan sığorta fəaliyyəti ilə məşğul

olan fiziki şəxslər çıxış edə bilərlər.

49. İşçinin əmək faəliyyəti və əmək stajını təsdiq edən sənəd haqqında bəhs edin. (5bal)

Əmək müqaviləsi bağlanarkən işçinin təqdim etdiyi sənədlərin siyahısı AR ƏM-in 48-ci maddəsində təsbit olunmuşdur.Həmin maddənin birinci hissəsinə əsasən əmək müqaviləsi bağlanarkən işçi əmək kitabçası, habelə şəxsiyyətini təsdiq edən sənədi və dövlət sosial sığorta şəhadətnaməsini (ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla) təqdim edir.

Əgər işçi ilk dəfə əmək fəaliyyətinə başlayarsa bu zaman ondan əmək kitabçası tələb edilmir və həmin işçiyə əmək kitabçası işəgötürən tərəfindən 5 gündən artıq işlədikdən sonra onun əsas yerində açılır.

Vətəndaşların bəzi kateqoriyalarından əmək müqaviləsinin bağlanılması zamanı digər sənədlər də tələb oluna bilər.Belə ki, əmək müqaviləsi bağlanılarkən işçinin əmək funksiyasının xüsusiyyətlərinə uyğun olan peşə hazırlığının və ya təhsilinin olması zəruri sayılan hallarda işəgötürənə təhsili barədə müvafiq sənədlər təqdim etməlidir. Əmək müqaviləsinin bağlanması işçinin müvafiq yaşayış məntəqəsində qeydiyyatının olub-olmaması ilə şərtləndirilə bilməz.

AR ƏM-in 48-ci maddəsinin altıncı hissəsinə uyğun olaraq, əmək münasibətlərinə girən işçidən bu Məcəllədə nəzərdə tutulmamış, habelə işin (vəzifənin) xüsusiyyətlərinə uyğun gəlməyən əlavə sənədlərin tələb edilməsi qadağandır.

AR ƏM-in 48-ci maddəsinin beşinci hissəsinə görə, işçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli iş yerlərində, habelə əhalinin sağlamlığının mühafizəsi məqsədi ilə yeyinti sənayesi, ictimai iaşə, səhiyyə, ticarət və bu qəbildən olan digər iş yerlərində əmək müqaviləsi bağlanılarkən işçilər sağlamlığı haqqında tibbi arayış təqdim etməlidirlər. Belə əmək şəraitli peşələrin (vəzifələrin), iş yerlərinin siyahısı müvafiq icra hakimiyyəti orqanı (AR NK) tərəfindən təsdiq edilir.

AR ƏM-in 44-cü maddəsinin birinci hissəsinə əsasən əmək müqaviləsi yazılı formada bağlanır. Həmin maddənin ikinci hissəsinə görə tərəflərin razılığı ilə əmək müqaviləsi bu Məcəlləyə əlavə edilmiş nümunəvi formaya uyğun tərtib edilir. Əmək müqaviləsi iki nüsxədən az olmayaraq tərtib olunub tərəflərin imzası (möhürü) ilə təsdiq edilir və onun bir nüsxəsi işçidə, digər nüsxəsi isə işəgötürəndə saxlanılır (AR ƏM-in 44-cü maddəsi). Əmək müqaviləsi AR ƏM-in 54-cü maddəsində nəzərdə tutulmuş əmək şəraitinin şərtləri, habelə tərəflərin razılaşdıqları əlavə şərtlər, işçinin (işçilərin) əmək funksiyası və tərəflərin öhdəlikləri göstərilməklə fərdi və ya kollektiv qaydada bağlanılır.

50. Əmək müqaviləsinin anlayışı və əhəmiyyəti haqqında bəhs edin.(5bal)

AR ƏM-in I bölməsi "Ümumi müddəalar" adlanır. Bu bölmə 2 fəsildən ibarətdir. Orada AR-nın əmək qanunvericiliyi sisteminə daxil olan normativ hüquqi aktlar, AR ƏM-in vəzifələri və prinsipləri, fəaliyyət sferası, habelə əmək müqaviləsi tərəflərinin əsas hüquqları, vəzifələri və əmək münasibətlərinin tənzimlənməsi sahəsində ümumi hüquqi təminatlar təsbit olunmuşdur.

AR ƏM-in 3-cü maddəsinin beşinci bəndində əmək müqaviləsinin aşağıdakı leqal anlayışı təsbit edilmişdir: «Əmək müqaviləsi (kontraktı) işəgötürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilə»dir.

AR ƏM-in 42-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq əmək müqaviləsinin tərəflərindən biri işəgötürən, digər isə işçidir. İşçi və işəgötürən əmək müqaviləsinin tərəfləri olmaqla yanaşı, eyni zamanda əmək münasibətlərinin tərəflərdir.

AR ƏM-in 3-cü maddəsinə görə işəgötürən – tam fəaliyyət qabiliyyətli olub işçilərlə əmək müqaviləsi (kontraktı) bağlamaq, ona xitam vermək, yaxud onun şərtlərini dəyişdirmək hüququna malik mülkiyyətçi və ya onun təyin (müvəkkil) etdiyi müəssisənin rəhbəri, səlahiyyətli orqanı, habelə fiziki şəxsdir.

Deməli, həm hüquqişəxslər, həm də fiziki şəxslər işəgötürən qismində çıxış edərək əmək müqaviləsinin tərəfi ola bilərlər. Fiziki şəxs əmək müqaviləsinin tərəfi kimi işəgötürən qismində çıxış etdikdə o, tam fəaliyyət qabiliyyətinə malik olmalıdır. AR ƏM-in 42-ci maddəsinin dördüncü hissəsinə əsasən tam fəaliyyət qabiliyyəti olmayan şəxs işəgötürən ola bilməz.

Azərbaycan Respublikasının xarici dövlətlərlə, beynəlxalq təşkilatlarla bağladığı müqavilələrində başqa hal nəzərdə tutulmayıbsa, müvafiq xarici dövlətlər, onların fiziki və hüquqi şəxsləri, beynəlxalq təşkilatlar, eləcə də vətəndaşlığı olmayan şəxslər də işəgötürən qismində çıxış edərək əmək müqaviləsinin tərəfi ola bilərlər.

Əmək müqaviləsinin digər tərəfi isə işçidir. AR ƏM-in 3-cü maddəsinə görə, işçi dedikdə, işəgötürənlə fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlayaraq müvafiq iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxs anlaşılır. İşçi qismində həm Azərbaycan Respublikasının vətəndaşları, həm də əcnəbilər və vətəndaşlığı olmayan şəxslər çıxış edə bilər. 15 yaşına çatmış hər bir Azərbaycan Respublikasının vətəndaşı əmək müqaviləsinin tərəfi ola bilər.

Qanunvericiliklə müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan şəxs hesab edilmiş şəxs əmək müqaviləsində tərəf kimi çıxış edə bilməz. Əməkçi miqrantlar AR-nın ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmalarına onlar tam yetkinlik yaşına, yəni18 yaşına çatdıqda yol verilir və bu zaman əcnəbi işçi qüvvəsi ilə əmək müqaviləsi bağlamazdan öncə AR Dövlət Miqrasiya Xidmətindən iş üçün icazə alınmalıdır.

Əmək hüquq münasibətinin məzmununu işçinin və işəgötürənin subyektiv hüquqları və hüquqi vəzifələri təşkil edirsə, əmək müqaviləsinin məzmunu tərəflərin hüquq və vəzifələrinin həcmini müəyyənləşdirən şərtlərin məcmusundan ibarətdir. AR ƏM-in 43-cü maddəsində «Əmək müqaviləsinin məzmunu» öz təsbitini tapmışdır. Həmin maddənin birinci hissəsində deyilir ki, əmək müqaviləsinin məzmunu və quruluşu qanunvericiliyin tələblərinə əməl edilməklə tərəflərin razılığı ilə müəyyən edilir.

Əmək müqaviləsində mütləq aşağıdakı əsas şərtlər və məlumatlar göstərilməlidir:

a) işçinin soyadı, adı, atasının adı və ünvanı, şəxsiyyətini təsdiq edən sənədin adı, onun seriya və nömrəsi, pin kodu, verildiyi tarix, şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı;

b) işəgötürən hüquqi şəxs olduqda onun adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), hüquqi ünvanı, fiziki şəxs olduqda onun adı, soyadı, atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN), ünvanı, şəxsiyyətini təsdiq edən sənədin adı, seriyası, nömrəsi, pin kodu və ya fərdi identifikasiya nömrəsi (FİN), verildiyi tarix, şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı;

c) işçinin iş yeri, vəzifəsi (peşəsi);

ç) əmək müqaviləsinin bağlandığı və işçinin işə başlamalı olduğu gün;

d) əmək müqaviləsinin müddəti;

e) işçinin əmək funksiyası;

ə) işçinin əmək şəraitinin şərtləri – iş və istirahət vaxtı, əmək haqqı və ona əlavələr, əmək məzuniyyətinin müddəti, əməyin mühafizəsi, sosial və digər sığorta olunması;

f) tərəflərin əmək müqaviləsi üzrə qarşılıqlı öhdəlikləri;

g) işçiyə bədən tərbiyəsi və idmanla, o cümlədən iş rejimi şəraitində və işdən sonrakı reabilitasiya və peşəkar-tətbiqi məşqlərlə, idman-sağlamlıq turizmi ilə məşğul ola bilməsi üçün şəraitin yaradılması;

ğ) ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, işçinin dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN);

h) işçinin iş yerinin əsas və ya əlavə iş yeri olması barədə qeyd;

x) tərəflərin müəyyən etdiyi əlavə şərtlər barədə məlumatlar.

51.Əmək müqaviləsinin məzmunu haqqında bəhs edin.(10bal)

Əmək hüquq münasibətinin məzmununu işçinin və işəgötürənin subyektiv hüquqları və hüquqi vəzifələri təşkil edirsə, əmək müqaviləsinin məzmunu tərəflərin hüquq və vəzifələrinin həcmini müəyyənləşdirən şərtlərin məcmusundan ibarətdir. AR ƏM-in 43-cü maddəsində «Əmək müqaviləsinin məzmunu» öz təsbitini tapmışdır. Həmin maddənin birinci hissəsində deyilir ki, əmək müqaviləsinin məzmunu və quruluşu qanunvericiliyin tələblərinə əməl edilməklə tərəflərin razılığı ilə müəyyən edilir. Əmək müqaviləsində mütləq aşağıdakı əsas şərtlər və məlumatlar göstərilməlidir:

a) işçinin soyadı, adı, atasının adı və ünvanı, şəxsiyyətini təsdiq edən sənədin adı, onun seriya və nömrəsi, pin kodu, verildiyi tarix, şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı;

b) işəgötürən hüquqi şəxs olduqda onun adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), hüquqi ünvanı, fiziki şəxs olduqda onun adı, soyadı, atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN), ünvanı, şəxsiyyətini təsdiq edən sənədin adı, seriyası, nömrəsi, pin kodu və ya fərdi identifikasiya nömrəsi (FİN), verildiyi tarix, şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı;

c) işçinin iş yeri, vəzifəsi (peşəsi);

ç) əmək müqaviləsinin bağlandığı və işçinin işə başlamalı olduğu gün;

d) əmək müqaviləsinin müddəti;

e) işçinin əmək funksiyası;

ə) işçinin əmək şəraitinin şərtləri – iş və istirahət vaxtı, əmək haqqı və ona əlavələr, əmək məzuniyyətinin müddəti, əməyin mühafizəsi, sosial və digər sığorta olunması;

f) tərəflərin əmək müqaviləsi üzrə qarşılıqlı öhdəlikləri;

g) işçiyə bədən tərbiyəsi və idmanla, o cümlədən iş rejimi şəraitində və işdən sonrakı reabilitasiya və peşəkar-tətbiqi məşqlərlə, idman-sağlamlıq turizmi ilə məşğul ola bilməsi üçün şəraitin yaradılması;

ğ) ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, işçinin dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN);

h) işçinin iş yerinin əsas və ya əlavə iş yeri olması barədə qeyd;

x) tərəflərin müəyyən etdiyi əlavə şərtlər barədə məlumatlar.

Əgər AR ƏM-in 43-cü maddəsinin ikinci hissəsinin məzmunundan çıxış etsək deyə bilərik ki, əmək müqaviləsinin məzmunu əsas şərtlərdən və məlumatlardan ibarətdir. Məlumatlara aşağıdakılar aiddir:

- *işçinin soyadı, adı, atasının adı və ünvanı, şəxsiyyətini təsdiq edən sənədin adı, onun seriya və nömrəsi, pin kodu, verildiyi tarix, şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı;*
- *işəgötürən hüququi şəxs olduqda onun adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), hüquqi ünvanı, fiziki şəxs olduqda onun adı, soyadı, atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN), ünvanı, şəxsiyyətini təsdiq edən sənədin adı, seriyası, nömrəsi, pin kodu və ya fərdi identifikasiya nömrəsi (FİN), verildiyi tarix, şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı;*
- *ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, işçinin dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN);*
- *işçinin iş yerinin əsas və ya əlavə iş yeri olması barədə qeyd;*
- *tərəflərin müəyyən etdiyi əlavə şərtlər barədə məlumatlar*

52.16 yaşlı İsmayıl qardaşının bahalı əməliyyatına yardım etmək məqsədi ilə yaxınlıqdaki tütün məhsulları satılan köşkə işə düzəlməyi qərara alır. Iş rejimi və əmək haqqı onu qane edirdi. Lakin işəgötürən onu işə götürməkdən imtina etdi . Bu halda işəgötürənin əməli qanunauygundurmu ?Cavabınızı izah edin və18 yaşı tamam olmamış işçilərin əməyindən istifadə olunmasının xüsusiyyətləri haqqında bəhs edin.(10bal)

Əmək müqaviləsinin digər tərəfi isə işçidir. AR ƏM-in 3-cü maddəsinə görə, işçi dedikdə, işəgötürənlə fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlayaraq müvafiq iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxs anlaşılır. İşçi qismində həm Azərbaycan Respublikasının vətəndaşları, həm də əcnəbilər və vətəndaşlığı olmayan şəxslər çıxış edə bilər. 15 yaşına çatmış hər bir Azərbaycan Respublikasının vətəndaşı əmək müqaviləsinin tərəfi ola bilər.

Qanunvericiliklə müəyyən edilmiş qaydada fəaliyyət qabiliyyəti olmayan şəxs hesab edilmiş şəxs əmək müqaviləsində tərəf kimi çıxış edə bilməz. Əməkçi

miqrantlar AR-nın ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmalarına onlar tam yetkinlik yaşına, yəni18 yaşına çatdıqda yol verilir və bu zaman əcnəbi işçi qüvvəsi ilə əmək müqaviləsi bağlamazdan öncə AR Dövlət Miqrasiya Xidmətindən iş üçün icazə alınmalıdır.

Əmək hüquq münasibətinin məzmununu işçinin və işəgötürənin subyektiv hüquqları və hüquqi vəzifələri təşkil edirsə, əmək müqaviləsinin məzmunu tərəflərin hüquq və vəzifələrinin həcmini müəyyənləşdirən şərtlərin məcmusundan ibarətdir. AR ƏM-in 43-cü maddəsində «Əmək müqaviləsinin məzmunu» öz təsbitini tapmışdır. Həmin maddənin birinci hissəsində deyilir ki, əmək müqaviləsinin məzmunu və quruluşu qanunvericiliyin tələblərinə əməl edilməklə tərəflərin razılığı ilə müəyyən edilir.

53.Əmək müqaviləsi ilə xidmət müqaviləsi arasındakı əsas fərqlərini izah edin .(20 bal)

Bəzi hallarda işəgötürənlər tərəfindən işçilərlə əmək müqaviləsi əvəzinə xidmət müqaviləsi bağlanılır. Xidmət müqaviləsi hər hansı xidmətin, işin göstərilməsi məqsədilə sifarişçi və icracı arasında bağlanılan mülki-hüquqi müqavilədir . Əmək müqaviləsi ilə xidmət müqaviləsi arasındakı əsas fərqlər bunlardır:

• Əmək müqaviləsinin tərəfləri işçi və işəgötürən olduğu halda, mülki-hüquqi müqavilələrin, başqa sözlə xidmət müqavilələrinin tərəfləri sifarişçi və icraçıdır.

• Əmək müqaviləsində işçi ilə işəgötürən arasında olan münasibətlər digər prinsiplərlə yanaşı tabeçilik prinsipinə əsaslandığı halda, xidmət müqaviləsi üzrə yaranan münasibətlər tərəflərin müqavilə ilə müəyyən edilmiş öhdəliklərinə uyğun olaraq bərabərlik prinsipinə uyğun qurulur.

• Əmək müqaviləsinin əsasını işçinin əmək fəaliyyəti təşkil edirsə, xidmət müqavilələrində isə yerinə yetirilən işin və xidmətin nəticəsi əsasdır.

• Əmək müqaviləsinin bağlanması üçün işçi əmək kitabçasını habelə şəxsiyyəti təsdiq edən sənədi və dövlət sosial sığorta şəhadətnaməsini işəgötürənə təqdim etməli olduğu halda, mülki-hüquqi müqavilələrin bağlanması üçün əmək kitabçasının təqdim edilməsi tələb olunmur. Həmin müqavilənin tərəfi şəxsiyyətini təsdiq edən sənədi və VÖEN-i (əgər varsa) qarşı tərəfə təqdim edir. Xidməti müqavilə imzalayan işçi də mütləq fiziki şəxs kimi vergi orqanlarında qeydiyyatdan keçməli və onun VÖEN-i olmalıdır.

• Əmək müqaviləsindən fərqli olaraq xidmət müqaviləsi bağlanıldığı halda həmin müqavilədə nəzərdə tutulmayıbsa, işçiyə əmək kitabçası açılmır və iş stajı hesablanmır.

• Əmək müqaviləsi bağlamış işçinin əmək qanunvericiliyi ilə müəyyən olunmuş əmək (iş yerinin saxlanılması, məzuniyyətlərin və məzuniyyət haqqının verilməsi, ezamiyyə xərclərinin ödənilməsi, təhsilinin davam etdirilməsi və s.) və sosial təminat (işdənçıxarma, əmək qabiliyyətinin müvəqqəti itirilməsi və digər hallarda sosial müavinətlərin verilməsi, sosial sığortanın həyata keçirilməsi və s.) hüquqları olduğu halda, xidmət müqavilələrində isə icraçı yuxarıda göstərilən təminatlardan yalnız müqavilədə göstərildiyi halda və qanunvericiliklə bu hal üçün müəyyən edilən təminatlardan istifadə etmək hüququ var.

• Əmək müqaviləsi bağlandığı hallarda işçi üçün sosial sığorta haqqları işəgötürən tərəfindən əmək haqqı fondundan (15-22 %), işçiyə hesablanmış əmək haqqından (3-10 %) ödənildiyi halda, xidməti müqavilə üzrə işləyənlər üçün bu ödənişlər fərqlidir və yalnız sığortaedən qismində çıxış edən tərəfdən tutulur.

• Əmək müqaviləsi müddətsiz və qanunvericiliklə müəyyən edilmiş hallarda müddətli bağlandığı halda, mülki-hüquqi müqavilələr müddətli və və ya nəzərdə tutulan işin və xidmətin nəticəsi gözlənilən tarixədək bağlanılır.

• İşçi əsas iş yeri üzrə müəyyən olunmuş iş vaxtından sonra həm əsas iş yerində, həm də əvəzçilik qaydasında əmək müqaviləsi bağlayaraq başqa iş yerlərində əmək fəaliyyəti ilə məşğul ola bilər. Bu zaman işç əmək funksiyasını Əmək Məcəlləsi ilə müəyyən edilmiş iş vaxtı normasından artıq olmayan iş vaxtında yerinə yetirməlidir. Xidmət müqaviləsinin tərəfi olan şəxs isə eyni vaxtda imkanı çatdığı sayda sifarişçi ilə müqavilə bağlayaraq iş vaxtını özü tənzimləməklə müvafiq iş və xidmətləri həyata keçirə bilər.

• Əmək müqaviləsində işçi ücün fiziki şəxslərdən gəlir vergisi işəgötürən tərəfindən Vergi Məcəlləsində müəyyən edilmiş məbləğlərdə aylıq əmək haqqından asılı olaraq hesablanan gəlir vergisi kimi ödənildiyi halda, xidmət müqaviləsi üzrə verginin ödənilməsi fiziki şəxslərdən gəlir vergisi və ya sadələşdirilmiş vergi üzrə olan ödənişlər əsasında əsasən həyata keçirilir.

54.İşçi tərəfindən əmək müqaviləsinin ləğv edilməsinin əsasları haqqında bəhs edin.(5 bal)

İşçidən fərqli olaraq işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsi qanunvericilikdə nəzərdə tutulmuş müəyyən şərtlərlə məhdudlaşdırılmışdır. Belə şərtlərə aiddir:

1) əmək müqaviləsinin ləğv edilməsi qaydalarına əməl olunması;

2) əmək müqaviləsinin ləğv edilməsi üçün AR ƏM-in 70-ci maddəsində nəzərdə tutulmuş əsaslardan birinin mövcud olması.

Deməli, işəgötürən tərəfindən əmək müqaviləsi yalnız qanunvericilikdə göstərilən əsaslar mövcud olduqda və bu əsaslar üzrə əmək müqaviləsinin ləğv edilməsinin müəyyən olunmuş qaydalarına əməl olunmaqla ləğv oluna bilər.

AR ƏM-in 70-ci maddəsinə əsasən əmək müqaviləsi işəgötürən tərəfindən aşağıdakı əsaslarla ləğv edilə bilər:

a) müəssisə ləğv edildikdə;

b) işçilərin sayı və ya ştatları ixtisar edildikdə;

c) peşəkarlıq səviyyəsinin, ixtisasının (peşəsinin) kifayət dərəcədə olmadığına görə işçinin tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə səlahiyyətli orqan tərəfindən müvafiq qərar qəbul edildikdə;

ç) işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud bu Məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda;

d) sınaq müddəti ərzində işçi özünü doğrultmadıqda;

e) dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın yaş həddinə çatdıqda.

AR ƏM-in 70-ci maddəsinin «a»(müəssisə ləğv edildikdə) bəndi ilə əmək müqaviləsinə xitam verilməsinin əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, həmin əsasla müəssisədə işləyən bütün işçilərlə, o cümlədən hamilə qadınlarla, yaşı 18-dən aşağı olan işçilərlə, əmək qabiliyyətini itirmiş işçilərlə, həmçinin ezamiyyətdə və ya məzuniyyətdə olan işçilərlə əmək müqaviləsi xitam olunur. Bu o deməkdir ki, müəssisənin bütün işçiləri bir nəfər kimi işdən azad olunurlar.Göründüyü kimi, hüquqi nəticəsi bir növ sosial problem yaradan hadisədir və bu baxımdan müəssisənin ləğv edilməsi hallarının minimuma endirilməsi məqsədəuyğun olardı.

55.İşçi tərəfindən əmək müqaviləsinin ləğv edilməsi qaydasındakı xəbərdarlıq müddətinin əsas məqsədi nədir? Xəbərdarlıq müddəti müəyyən edilmədən əmək müqaviləsi ləğv edilə bilərmi?(5bal)

İşçi tərəfindən əmək müqaviləsinin ləğv edilməsi qaydası AR ƏM-in 69-cu maddəsi ilə tənzimlənir.Həmin maddənin birinci hissəsində deyilir ki, işçi bir təqvim ayı qabaqcadan işəgötürəni yazılı ərizəsi ilə xəbərdar etməklə əmək müqaviləsini ləğv edə bilər.Bu həm müddətli, həm də müddətsiz əmək müqavilələrinə aiddir.İşçi tərəfindən əmək müqaviləsinin ləğv edilməsi üçün işəgötürənin razılığı tələb olunmur.İşçi tərəfindən əmək müqaviləsinin ləğv edilməsinin yeganə hüquqi faktı əmək müqaviləsinin ləğv edilməsi barədə işçinin könüllü iradə ifadəsinin nəticəsi olan yazılı ərizəsidir.

İşçinin əmək müqaviləsini ləğv etmək barədə şifahi ərizəsi işəgötürən tərəfindən işdən çıxarmaq haqqında müvafiq əmrin verilməsi üçün əsas ola bilməz.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin Elmi-Praktik Kommentariyasının müəlliflərinin fikrincə, xəbərdarlıq müddətinin əsas məqsədi ondan ibarətdir ki, işəgötürən işdən çıxacaq işçinin yerinə yeni işçi tapmaq və onunla əmək müqaviləsi bağlamaq imkanına malik olsun. İşçi məhz qabaqcadan əmək müqaviləsini ləğv etmək barədə yazılı ərizə verməklə işəgötürənə belə bir imkan vermiş olur. İşəgötürən ərizənin verildiyi gündən yeni işçi axtarışına başlamağa tam haqlıdır.

Onu da qeyd etmək istərdik ki, nə nəzəriyyədə, nə də təcrübədə belə yazılı xəbərdarlığın hüquqi nəticələri haqqında vahid fikir yoxdur. Çox vaxt işçi həmin müddət bitənədək özünün işdən çıxmaq niyyətini dəyişir. AR ƏM-in 69-cu maddəsinin dördüncü hissəsinə görə əmək müqaviləsini ləğv etmək barədə ərizə vermiş işçi xəbərdarlıq müddəti bitənədək istədiyi vaxt ərizəsini geri götürə və ya onu etibarsız hesab etmək barədə işəgötürənə yeni ərizə verə bilər. Bu halda əmək müqaviləsi ləğv edilə bilməz. Bu şərtlə ki, işəgötürən həmin vəzifəyə (peşəyə) yeni işçinin götürülməsi barədə işçiyə rəsmi qaydada yazılı xəbərdarlıq etməmiş olsun. Əmək müqaviləsi bu maddə ilə müəyyən edilmiş qaydalara əməl olunmaqla ləğv edildikdən sonra işçinin əvvəlki ərizəsini geri götürmək və ya onu etibarsız hesab etmək barədə edilən müraciətin hüquqi qüvvəsi yoxdur.

İşçi əmək müqaviləsinin ləğv edilməsi barədə ərizəni həm iş vaxtı, həm də əmək qabiliyyətini müvəqqəti itirdiyi, məzuniyyətdə, ezamiyyətdə olduğu dövrdə də verə bilər.

Qüvvədə olan əmək qanunvericiliyində müəyyən hallar nəzərdə tutulmuşdur ki, bu hallar mövcud olduqda heç bir xəbərdarlıq müddəti müəyyən edilmədən işçi ərizəsində göstərdiyi gündən işəgötürən onunla əmək müqaviləsini ləğv etməlidir. Bu halların siyahısı AR ƏM-in 69-cu maddəsinin üçüncü hissəsində təsbit olunmuşdur:

işçi yaşa, əlilliyə görə əmək pensiyasına çıxdıqda;

təhsilini davam etdirmək üçün müvafiq təhsil müəssisəsinə daxil olduqda;

yeni yaşayış yerinə köçdükdə;

başqa işəgötürənlə əmək müqaviləsi bağlandıqda;

seksual qısnamaya məruz qaldıqda və qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda

Ərizə verildiyi gündən bir təqvim ayı bitdikdən sonra işçi işə çıxmamaq və son haqq-hesabının aparılmasını tələb etmək hüququna malikdir. Bu halda işəgötürən işçinin tələblərini yerinə yetirməyə borcludur. Xəbərdarlıq müddəti tamam olan kimi işəgötürən işçi ilə əmək müqaviləsinin ləğv edilməsini rəsmiləşdirməli (yəni müvafiq əmr, sərəncam, qərar verməli) və onunla son haqq-hesab aparmalıdır. Əmək kitabçası və son haqq-hesab işçiyə son iş günü verilməlidir.

İşçi ərizəsində əmək münasibətini dayandırmaq istədiyi günü göstərməyibsə, xəbərdarlıq müddəti bitənədək bu maddə ilə müəyyən edilmiş əsasla əmək müqaviləsinin ləğv edilməsinə yol verilmir (AR ƏM-in 69-cu maddəsinin beşinci hissəsi).

AR ƏM-in 69-cu maddəsinin altıncı hissəsinə əsasən işçi məzuniyyət hüququndan istifadə etməklə ona müvafiq iş ilinə görə məzuniyyətin verilməsi və məzuniyyət müddətinin qurtardığı gündən əmək müqaviləsinin ləğv edilməsi xahişi ilə işəgötürənə ərizə verə bilər. İşçi məzuniyyət müddəti bitənədək bu maddənin dördüncü hissəsi ilə müəyyən edilmiş qaydada əmək müqaviləsinin ləğv edilməsi barədə ərizəsini geri götürə və ya onu etibarsız hesab etmək barədə işəgötürənə yazılı müraciət edə bilər. Bu halda işçinin xahişi təmin edilməlidir.

Əgər işçi əmək müqaviləsini ləğv etmək barədə ərizəni işdə olduğu vaxt vermiş, lakin sonra xəstələnmişsə, bir aylıq xəbərdarlıq müddəti bitmişsə, o əmək qabiliyyətini müvəqqəti itirdiyi müddətdə əmək müqaviləsini ləğv etməyə haqlıdır. Xəstəlik dövrü xəbərdarlıq müddətini dayandırmır

56.Müəssisənin ləğv edilməsi və dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın yaş həddinə çatması halları əmək müqaviləsinin ləgvinin hansı əsaslarına aiddir? Bu əsaslara digər hansı hallar aiddir?(10bal)

AR ƏM-in 10-1.1-ci maddəsinə əsasən dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddi 65-cir.

AR ƏM-in 4-cü maddəsinin üçüncü hissəsinə əsasən, Azərbaycan Respublikasının qanunlarında müəyyən edilmiş dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddi elmi müəssisə və təşkilatlar, ali təhsil müəssisələrinə şamil edilmir.

AR ƏM-in 70-ci maddəsinin «e» bəndi ilə əmək müqaviləsinin ləğv edilməsi üçün iki əsas şərt tələb olunur. Birinci şərt ondan ibarətdir ki, işçi hökmən dövlət büdcəsindən maliyyələşən müəssisədə işləməlidir. İkinci şərt isə ondan ibarətdir ki, dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışan işçi çalışmanın yaş həddinə, yəni 65 yaşa çatmalıdır. Bu iki şərt eyni zamanda mövcud olduğu təqdirdə işçi ilə əmək müqaviləsinin AR ƏM-in 70-ci maddəsinin «e» bəndi ilə ləğv edilməsi qanunauyğun olacaqdır.

Müddətli əmək müqaviləsinə xitam verilməsi qaydası AR ƏM-in 73-cü maddəsində təsbit olunmuşdur. Bu əsas üzrə əmək müqaviləsinəxitam verilməsi üçün iki şərtin olması zəruridir:

1) əmək müqaviləsinin müddətinin qurtarması;

2) müddətli əmək müqaviləsinə xitam verilməsi barədə tərəflərdən birinin təşəbbüsü.

Göründüyü kimi müddətli əmək müqaviləsinin müddəti qurtardıqda ona xitam verilməsi üçün əmək müqaviləsi tərəflərindən birinin müvafiq iradə ifadəsi zəruridir. Müddətli əmək müqaviləsinin müddətinin qurtarması elə bir hüquqi faktı təşkil edir ki, o, yarandıqda tərəflərdən hər biri səbəbini izah etmədən əmək müqaviləsinə xitam vermək hüququna malikdir.AR ƏM-in 70-ci maddəsinin «e» bəndi əsasına görə («dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın yaş həddinə çatdıqda») əmək müqaviləsinə xitam vermək (çalışma müddətinin uzadılması istisna olmaqla) işəgötürənin digər bəndlərdə oldugu kimi hüququ deyil, vəzifəsidir. İşəgötürən istəsə də dövlət büdcəsindən maliyyələşən müəssisədə çalışan 65 yaş həddinə çatmış işçi ilə əmək münasibətini (çalışma

müddətinin uzadılması istisna olmaqla) davam etdirə bilməz, çünki qanun buna yol vermir.

AR ƏM-in 10-1.2-ci maddəsinə görə dövlət büdcəsindən maliyyələşən müəssisənin 65 yaşına çatmış işçisinin həmin müəssisədə çalışma müddəti müvafiq dövlət orqanının rəhbəri tərəfindən hər dəfə 1 ildən çox olmayaraq uzadıla bilər. Çalışma müddətinin 5 ildən çox uzadılmasına yol verilmir

AR ƏM-in 10-1.3-cü maddəsinə əsasən, elm, mədəniyyət, səhiyyə və təhsil sahələrinin inkişafında müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş xüsusi xidmətləri olmuş dövlət büdcəsindən maliyyələşən müəssisənin 65 yaşına çatmış işçisinin çalışma müddəti müvafiq dövlət orqanı tərəfindən bu Qanunun 10-1.2-ci maddəsində nəzərdə tutulmuş müddətdən artıq uzadıla bilər.

«Dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddinə çatmış işçinin çalışma müddətinin 5 ildən artıq uzadılmasına yol verən elm, mədəniyyət, səhiyyə və təhsil sahələrinin inkişafında xüsusi xidmətlərin meyarları»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 oktyabr 2011-ci il tarixli 180 nömrəli qərarına əsasən dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddinə çatmış işçinin çalışma müddətinin 5 ildən artıq uzadılmasına yol verən meyarlar aşağıdakılardır:

- Azərbaycan Respublikasının orden və medalları ilə təltif edilmə;

- Azərbaycan Respublikasının fəxri adlarına layiq görülmə;

- işlədiyi sahə üzrə elmi dərəcəsinin və ya elmi adının olması;

- Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və ya müxbir üzvü olması;

- Dövlət mükafatı laureatı olması;

- 1991-ci il oktyabrın 18-dək orden və medallarla təltif edilmə.

Dövlət büdcəsindən maliyyələşən müəssisələrin 65 yaşına çatmış işçisi ilə əmək müqaviləsini 1 il müddətinə uzatmaq işəgötürənin vəzifəsi deyil, hüququdur.

57.İşəgötürən, işçilərin sayının və ya ştatının ixtisarı haqqında müvafiq qərar qəbul etdikdə, ixtisasları (peşələri) və ya peşəkarlıq səviyyələri eyni olan şəxslərdən kimə işdə saxlanmasına üstünlük verir?(10bal)

1. İşçilərin sayının və ya ştatının həqiqətən ixtisar olunması.Bu fakt işəgötürənin müvafiq əmri (sərəncamı, qərarı), ştat cədvəlinin (işçi ilə əmək müqaviləsinin ləğv edilməsinə qədər və sonra) və əmək haqqı fondunun tutuşdurulması yolu ilə sübut olunur.

2. İşçinin işdə saxlanmaq üçün üstünlük hüququnun nəzərə alınması.AR ƏM-in 78-ci maddəsinin birinci hissəsinə əsasən müvafiq hallarda işçilərin sayı azaldılarkən və ya ştatların ixtisası həyata keçirilərkən müəyyən vəzifələr üzrə əmək funksiyasının icrası üçün tələb olunan ixtisasın (peşənin) və peşəkarlıq səviyyəsinin daha yüksəyinə malik olan işçilər işdə saxlanılır. Qanunvericiliyə görə işçinin peşəkarlıq səviyyəsini ancaq işəgötürən müəyyən edir.

İşçilərin ixtisasları (peşələri) və ya peşəkarlıq səviyyələri eyni olduqda AR ƏM-in 78-ci maddəsinin ikinci hissəsində sadalanmış işçilərə üstünlük verilməlidir.

AR ƏM-in 78-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq işəgötürən ixtisasları (peşələri) və ya peşəkarlıq səviyyələri eyni olduqda aşağıdakı şəxslərin işdə saxlanmasına üstünlük verir:

- şəhid ailəsinin üzvlərinə;

- müharibə iştirakçılarına;

- əsgər və zabitlərin arvadlarına (ərlərinə);

- öhdəsində iki və daha çox 16 yaşınadək uşağı olanlara;

- həmin müəssisədə istehsalat qəzası və ya peşə xəstəliyi nəticəsində əlilliyi olan şəxslərə;

- məcburi köçkün, onlara bərabər tutulan şəxs və qaçqın statusu olan şəxslərə;

- kollektiv müqavilələrdə və ya əmək müqavilələrində nəzərdə tutulan digər şəxslərə.

58.AR ƏM-in 70-ci maddəsinin «ç» bəndinə əsasən işəgötürən tərəfindən əmək müqaviləsinin ləğv edilməsi hallarını izah edin.(20bal)

AR ƏM-in 70-ci maddəsinin «ç» bəndinə əsasən işçi ilə üç halda əmək müqaviləsi işəgötürən tərəfindən ləğv edilə bilər:

1) işçi özünün əmək funksiyasını yerinə yetirmədikdə;

2) işçi əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə;

3) işçi AR ƏM-in 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda.

İşçinin əmək funksiyası dedikdə, əmək müqaviləsində nəzərdə tutulan bir və ya bir neçə vəzifə, ixtisas, yaxud peşə üzrə yerinə yetirməli olduğu müvafiq işin və ya göstərməli olduğu xidmətlərin dairəsi anlaşılır. Əmək funksiyasının həcmi müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi) tərəfindən təsdiq edilmiş Vahid Tarif – İxtisas Sorğu Kitabçasına əsasən və ya işəgötürən tərəfindən müəyyən edilərək əmək müqaviləsində təfsilatı ilə göstərilir. İşçi əmək funksiyasını yerinə yetirmədikdə onunla əmək müqaviləsi bu əsasla ləğv oluna bilər. Əmək müqaviləsi bağlanarkən orada işçinin öhdəlikləri nəzərdə tutula bilər. Bu öhdəliklərin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi bu əsasla əmək müqaviləsinin ləğv edilməsinə səbəb ola bilər.

AR ƏM-in 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrinin kobud şəkildə pozulması işəgötürən tərəfindən əmək müqaviləsinin AR ƏM-in 70-ci maddəsinin «ç» bəndi ilə ləğv edilməsi üçün əsasdır.

AR ƏM-in 72-ci maddəsinə uyğun olaraq aşağıdakı hallar işçi tərəfindən əmək vəzifələrinin kobud şəkildə pozulması hesab edilir:

a) özünün xəstəliyi, yaxın qohumunun xəstələnməsi və ya vəfat etməsi istisna olunmaqla heç bir üzürlü səbəb olmadan bütün iş günü işə gəlməməsi;

b) alkoqollu içkilər, narkotik vasitələr və psixotrop, toksik və digər zəhərli maddələr qəbul edərək sərxoş vəziyyətdə işə gəlməsi, habelə işə gəldikdən sonra iş yerində həmin içkiləri və ya maddələri qəbul edərək sərxoş vəziyyətdə olması;

c) təqsirli hərəkətləri (hərəkətsizliyi) nəticəsində mülkiyyətçiyə maddi ziyan vurması;

ç) təqsirli hərəkətləri (hərəkətsizliyi) nəticəsində əməyin mühafizəsi qaydalarını pozaraq iş yoldaşlarının səhhətinə xəsarət yetirməsi və ya onların bu səbəbdən həlak olması;

d) qəsdən istehsal, kommersiya və ya dövlət sirrini yayması və ya bu sirrin gizli saxlanılması üzrə öhdəliklərini yerinə yetirməməsi;

e) əmək fəaliyyəti zamanı yol verdiyi kobud səhvləri, hüquq pozuntuları nəticəsində işəgötürənin, müəssisənin və ya mülkiyyətçinin qanuni mənafeyinə ciddi xələl gətirməsi;

ə) əmək funksiyasını pozduğuna görə əvvəllər işəgötürən tərəfindən verilmiş intizam tənbehindən nəticə çıxarmayaraq altı ay ərzində təkrarən əmək funksiyasını pozması;

f) iş vaxtı ərzində bilavasitə iş yerində inzibati xətalara və ya cinayət tərkibi olan ictimai-təhlükəli əməllərə yol verməsi.

İşçi ilə əmək müqaviləsini ləğv etməzdən öncə işəgötürən ondan yazılı izahat almalıdır. İşçinin yazılı izahat verməkdən imtina etməsi onunla bağlanmış əmək müqaviləsinin ləğv edilməsini istisna etmir.

İşəgötürən AR ƏM-in 70-ci maddəsinin «ç» bəndi ilə əmək müqaviləsini ləğv edərkən onun zəruriliyini əsaslandırmalıdır. İşəgötürən əmrində (sərəncamında, qərarında) göstərilməlidir ki, işçi konkret olaraq əmək müqaviləsi ilə şərtləşdirilmiş əmək funksiyasına daxil olan hansı vəzifəni və ya hansı öhdəliklərini yerinə yetirməmişdir və bu lazımi sənədlərlə təsdiq olunmalıdır.

59.Attestasiyanın mahiyyəti və işçilərin attestasiyasının həyata keçirilməsi qaydaları haqqında bəhs edin. Attestasiya hansı kateqoriya işçilərə şamil edilmir?(10bal)

Attestasiya nədir? Təəssüflər olsun ki, hüquq ədəbiyyatında attestasiyanın anlayışı barədə yekdil fikir yoxdur, elmi və tədris ədəbiyyatlarında attestasiyaya müxtəlif anlayışlar verilir -attestasiya yoxlamanın müəyyən qaydasıdır, işçinin tutduğu vəzifəyə uyğunluğunun yoxlanılması məqsədi ilə onun ixtisasının müəyyən edilməsidir, işçinin işgüzar keyfiyyətlərinin yoxlanılmasının prosessual formasıdır, işçilərin əmək qabiliyyətlərinin, işə yararlığının yoxlanılması məqsədilə dövlət tərəfindən mütəmadi aparılan yoxlamadır və s.

İşəgötürənin əmri (sərəncamı) ilə təcrübəli, yüksək peşəkarlıq qabiliyyətinə malik, obyektivliyi və qərəzsizliyi ilə seçilən nüfuzlu şəxslərdən, habelə həmkarlar ittifaqı təşkilatının nümayəndəsindən ibarət attestasiya komissiyası yaradılır. İşəgötürən, işçinin müvafiq iş yeri üzrə rəhbəri attestasiya komissiyasının üzvü ola bilməz.

Attestasiya komissiyası işçinin tutduğu vəzifəyə (peşəyə) uyğun olduğu və ya uyğun olmadığı haqqında iki qərardan yalnız birini qəbul edə bilər. Bununla yanaşı

attestasiya komissiyası bu qərarlarında işçinin başqa vəzifədə (peşədə) istifadə edilməsinin məqsədəmüvafiqliyi barədə işəgötürənə tövsiyə edə bilər.

Attestasiya komissiyasının qərarı 30 təqvim günü ərzində etibarlıdır. İşçinin xəstəlik müddəti, məzuniyyətdə və ezamiyyətdə olduğu dövr 30 günlük müddətə daxil edilmir. İşəgötürən üçün attestasiya komissiyasının qərarı tövsiyə xarakter daşıyır.

İşəgötürən heç də bütün işçilərin attestasiyasını keçirə bilməz. Belə ki, AR ƏM-in 66-cı maddəsinə əsasən aşağıdakı işçilərin attestasiyası keçirilmir:

- *vətənin müdafiəsi, azadlığı və ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda xəsarət (yaralanma, travma, kontuziya) almış və əlilliyi müəyyən edilmiş işçilər;*
- *Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi zamanı göstərdiyi şücaətlərə görə dövlət təltiflərinə və fəxri adlarına layiq görülmüş işçilər;*
- *bir vəzifədə (peşədə) beş ildən az müddətdə çalışan məcburi köçkün və qaçqın statusu olan işçilər;*
- *hamilə qadınlar;*
- *uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifədə (peşədə) çalışan qadınlar (uşağını təkbaşına böyüdən kişilər);*
- *yaşı 18-dən az olan işçilər;*
- *bir vəzifədə (peşədə) faktik olaraq bir ildən az müddətdə çalışan işçilər;*
- *eyni vəzifədə (peşədə) azı üç dəfə attestasiya olunaraq tutduğu vəzifəyə uyğun olduğu müəyyən edilmiş işçilər;*
- *kollektiv müqavilələrdə (sazişlərdə) nəzərdə tutulan hallarda attestasiya olunmayan işçilər;*
- *Azərbaycan Respublikasında praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan işçilər;*
- *Azərbaycan Respublikasında dövlət ümumi təhsil və peşə təhsili (tam orta təhsil üzrə təhsilverənlərə münasibətdə) müəssisələrində işləyən təhsilverənlər.*

AR ƏM-in 65-ci maddəsinin ikinci hissəsinə görə yalnız müvafiq iş yerində azı bir il çalışan işçilər attestasiyadan keçirilə bilər. Hər bir işçi üç ildə, elmi işçilər isə beş ildə bir dəfədən çox olmayaraq attestasiyadan keçirilə bilər.

AR ƏM-in 65-ci maddəsinin beşinci hissəsinə görə attestasiya komissiyasının üzvləri tərəfindən işçiyə yalnız tutduğu vəzifəyə (peşəyə), əmək funksiyasına, ixtisasına (peşəsinə) dair, yerinə yetirdiyi işlər və onların nəticələri barədə, habelə tutduğu vəzifəyə (peşəyə) uyğunluğunu müəyyən etmək üçün zəruri olan əmək müqaviləsi ilə müəyyən edilmiş hüquqları, vəzifələri dairəsinə aid olan məsələlərlə əlaqədar suallar verilə bilər. Attestasiya olunan işçinin siyasi baxışlarına, mənəvi, əxlaqi kamilliyinə, şəxsiyyətinə, etiqadına və digər sırf şəxsi dəyərlərinə görə, o cümlədən onun intizamlılıq dərəcəsinə görə peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi yolverilməzdir.

Təcrübə göstərir ki, işçilər attestasiyadan keçərkən bəzən onlara tutduğu vəzifəyə və əmək funksiyasına aid olmayan suallar verilir. Adətən belə bir hal komissiya üzvünün qeyri-peşəkar olmasından irəli gəlirsə, digər halda işçiyə qərəzli münasibətin göstəricisi sayılmalıdır.

AR ƏM-in 65-ci maddəsinin altıncı hissəsinə əsasən attestasiya komissiyasının işi aşkarlıq şəraitində, obyektiv, qərəzsiz və qanunvericiliyin tələblərinə əməl edilməklə aparılmalıdır. Attestasiya komissiyası qərarını gizli və ya açıq səsvermə yolu ilə səs çoxluğu ilə qəbul edilir. Müvafiq iş yeri üzrə əmək kollektivi nümayəndələrinin attestasiya komissiyasının iclasında müşahidəçi kimi iştirak etmək istəyi təmin olunmalıdır.

AR ƏM-in 288-ci maddəsinə əsasən işçilərin attetasiyası komissiyasının qərarının qanuna uyğunluğu və ya əsaslığının müəyyən edilməsi fərdi əmək mübahisələrinin predmetinə daxildir.

60. Korporativ sosial məsuliyətin mahiyyəti haqqında bəhs edin.(5 bal)

Korporativ Sosial Məsuliyyət (KSM) cəmiyyətin və ətraf mühitin qorunmasına və inkişaf etməsinə yönələn könüllü davranış mədəniyyətidir. KSM dedikdə, biznesin fəaliyyət göstərdiyi cəmiyyət qarşısındakı öhdəliklərinin məcmusu başa düşülür.Korporativ sosial məsuliyyət – təşkilatlar vasitəsi ilə cəmiyyət maraqlarını nəzərə alan sifarişçilərin, işçilərin, səhmdarların, yerli icmaların və s. Fəaliyyəti üzərində məsuliyyəti öz üzərinə götürən konsepsiyadır. Bu öhdəlik qanunla müəyyən edilmiş öhdəliklər çərçivəsindən kənara çıxır və təşkilat sərbəst surətdə

işçilərin və onların ailəsinin, eləcə də yerli icmaların və bütövlükdə cəmiyyətin həyat səviyyəsinin yüksəldilməsi məqsədi ilə əlavə tədbirlər həyata keçirirlər.

61. Biznes etikası və hüquq. Oxşar və fərqli cəhətləri haqqında bəhs edin.(5bal)

Huquq-Qanunun aliliyinə əlavə olaraq, hüquqi etika daima bütün insanlara qarşı insani münasibət bəsləyir.

İnsana hörmət etməklə nə başa düşülməlidir? İnsanpərvər münasibət, praktiki cəhətdən (müəyyən motivlər və hərəkətlərlə əlaqəli) bu və ya digər şəkildə şəxsiyyətin ləyaqətinin tanıdığı münasibətdən başqa bir şey deyildir. İctimai şüurda inkişaf etmiş hörmət konsepsiyası aşağıdakı kateqoriyaları nəzərdə tutur: hüquq bərabərliyi, ədalət, insanlara inam, insan mənafelərinin maksimum dərəcədə təmin olunması, insanların inanclarına və problemlərinə diqqətli münasibət, nəzakət, həssaslıq, incəlik.

Hüquq etikası kimi bir kateqoriyanın növbəti xüsusiyyəti ədəb və etibardır.. Etibar bir insanın başqa bir insanın hərəkətlərinə və hərəkətlərinə, həm də özünə münasibəti kimi başa düşülməlidir. Etibar ilk növbədə bu insanın doğruluğuna, dürüstlüyə, vicdanlılığa, sədaqətə inam üzərində qurulur.

*Biznes etikasi-Biznes etikası özündə fəaliyyətdə olan insanın mənəvi normalarının və işgüzar təşkilatın məqsədlərinin öyrənilməsini əks etdir*ir.

Günümüzdə biznes etikası hər bir qurumun (hökumət və qeyri – hökumət, dövlət və özəl) idarə olunması mədəniyyətinin səviyyəsini səciyyələndirən mühüm amildir. Idarəetmə və icra qurumlarının müxtəlif səviyyələrində qəbul edilən nüfuzunun pisləşməsi, sistemin (dövlət orqanı, özəl və ya dövlət müəssisəsi) fəaliyyətinin səmərəsinin enməsi ilə müşayiət olunduğu hər yerdə daxili mədəniyyətin mühüm elementi olan işgüzar etika həmin risklərin azalmasına yardım edir.

Etik davranış normalarının gözlənilməsi əhəmiyyətinin artmasına əsas səbəblər bunlardır: bir tərəfdən düzgün olmayan qərarlar nəinki həmin qərarı qəbul edən qurumun özünə, həmçinin bir çox hallarda ümumən cəmiyyətə baha başa gəlir; digər tərəfdən isə hər işi və hər hadisəni qanunvericiliklə tənzimləmək mümkün deyildir. Hər hansı ayrıca qurumun, məsələn, şirkət və ya təşkilatın daxilində insanların davranışını qanunla tənzimləmək ümumiyyətlə çətindir.

62. Cinayət məsuliyyətinin əsasları haqqında bəhs edin.(10bal)

Cinayətməsuliyyətinin əsaslarının müəyyən edilməsinə qanunvericilik və cinayət hüquq nəzəriyyəsi iki aspektdən yanaşır: hüquqi və faktiki əsaslar. Cinayət Məcəlləsinin 3-cü maddəsinə əsasən, yalnız cinayət qanunu ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır. Buradan belə nəticə çıxır ki, cinayət məsuliyyətinin vacib və yeganə əsasları törədilmiş əməldə qanunda göstərilmiş cinayət tərkibinin mövcud olmasıdır. Belə ki, şəxsi əqidə, niyyət və baxışlarına (sonuncular əgər törədilmiş əməldə ifadə olunmursa) görə cinayət məsuliyyətinə cəlb etmək olmaz. Bununla belə, əməl ictimai-təhlükəli olmalı, yeni ictimai münasibətlərə ziyan vurmalıdır. Əgər subyektin davranışının müəyyən forması cinayət məsuliyyətinin faktiki əsasları hesab olunursa, onda törədilmiş əməldə qanunda nəzərdə tutulan konkret cinayət tərkibinin mövcud olması onun hüquqi əsaslarını təşkil edir.

63. «Çirkli pullar»ın yuyulmasına şərait yaradan hallar.

«Çirkli pullar»ın yuyulmasının beynəlxalq aləmdə bir cox növü movcuddur, lakin ən geniş yayılmış növlərini fərqləndirmək mümkündür. Misal üçün onlardan birincisi ayrı-ayrı şəxslər tərəfindən banklarda hesablar açılmaqla oraya nağd pul vəsaitləri yerləşdirilir, daha sonra həmin pullar başqa dövlətin bankında olan saxta firmanın hesabına, oradan isə başqa bir hesaba köçürülür. Digər bir metod saxta bank hesablarından istifadə edilməsi və qara mühasibatlığın aparılması ilə həyata keçirilir. Belə ki, maliyyə əməliyyatının keçirilməsi üçün xaricdə olan saxta bir firmanın hesabına pullar köçürülür, malların alınmasına dair saxta müqavilə bağlanır və həmin müqavilə sübut kimi banka təqdim edilir, bank da sənədlərə əsaslanaraq həmin pulların köçürülməsini təmin edir. Başqa bir metod isə cinayətkar tərəfindən cinayət yolu ilə əldə etmiş pulları leqallaşdırmaq üçün həmin pullara daşınmaz əmlaklar alınır, restoran və otellərin tikintisinə sərf olunur. Eyni zamanda cianyətkar bir dövlətdə əldə etdiyi gəlir hesabına başqa xarici dövlətlərdə öz yaxınlarının adına əmlakların alınması yolu ilə "çirkli pulları" leqallaşdıra bilər. Maliyyə əqdləri üzrə «çirkli pullar»ın yuyulması sahəsində dünya təcrübəsinin ümumiləşdirilməsi onu göstərir ki, bu məsələnin həlli cinayətkar birliklər tərəfindən müxtəlif üsullarla həyata keçirilir. Məsələn əməliyyatlar zamanı bir neçə firmadan istifadə etmə yolu ilə mümkündür. Belə ki, göstərilməmiş xidmətlərə görə əldə olunmuş gəlirlər barədə firmanın mühasibat kitablarına qeydlər yazılır, əslində isə firma heç bir xidmət göstərməmişdir. Adətən qanorarların, xidmətlərə görə gəlirlərin qeydiyyatı firmaların yeganə mühasibat kitabında aparılır. Bu növ əqdlərin izlənilməsi təcrübədə çox çətinliklər yaradır, belə ki, firmanın

hesabatlarında bu əməliyyatlar maskalanmış şəkildə göstərilir və əqdin əsl xarakteri gizlədilir. Digər bir üsul isə pul köçürmələri yolu ilə həyata keçirilir. «Çirkli pullar» bank hesabında açılmış müxtəlif hesablara, oradan isə xarici banklarda açılmış hesablara köçürülür. Bu hesablara da çek yazılıb verilir, bununla həmin pullar yenə də cinayətkarın sərəncamına qayıdır. Bunun başqa növü də mövcuddur. Pulları müxbir bank vasitəsilə bir bank müəssisəsindən xaricdə yerləşən digər bankda açılmış bank hesabına köçürülür və cinayətkar rahatlıqla oradan pul vəsaitini çıxarır.

64. İşgüzar nüfuzun anlayışı və əhəmiyyətindən bəhs. (5bal)

İşgüzar nüfuz hər bir fiziki şəxsə və hüquqi şəxsə (təşkilata) məxsus olan vacib qeyri-maddi nemətdir (mənəvi nemətdir) . İşgüzar işgüzar nüfuza fiziki və hüquqi şəxslərin yalnız professional, istehsal , ticarət, kommersiya, təsərrüfat, sahibkarlıq, qulluq, vasitəçilik və digər növ fəaliyyəti barədə yaranan ictimai rəy deməkdir. Sahibkarın səmərəli fəaliyyəti üçün onun əmlak statusundan və bazarda yüksək hörmət, etibar qazanmasından başqa, fərdiləşdirmə vasitələri də böyük əhəmiyyət kəsb edir. İşgüzar nüfuz bu vasitələrdən biridir. O, sahibkarın qeyri-maddi aktivləri sırasına daxil olan elementlərdən sayılır. Deməli, işgüzarlıq və professionallıq baxımından şəxsin yaxşı (müsbət) və qüsurlu (mənfi) keyfiyyətləri barədə yaranmış ictimai rəyə işgüzar nüfuz deyilir.

Hər bir sahibkar, kommersiya və ya qeyri-kommersiya, dövlət və ya bələdiyyə təşkilatı öz işgüzar nüfuzunu qorumağa çalışır. Çünki bu, onun cəmiyyətdə müsbət imic formalaşdırmasına, tərəfdaşların etibarını qazanmasına və ya gəlirlərinin artmasına xidmət edir. İşgüzar nüfuz təşkilatın əmtəə nişanı, patent kimi qeyri-maddi aktividir və onu qorumaq istənilən təşkilatın əsas qayğılarından biridir.

Təşkilatın işgüzar nüfuzuna həm bazar rəqibləri, həm də digər şəxslər (KİV nümayəndələri, ayrı-ayrı vətəndaşlar və s.) tərəfindən xələl gətirilə bilər.

Belə ki, bəzən bazar subyektləri rəqibinin bazarda pozitiv mövqeyinə qısqanclıqla yanaşır və qanunsuz olaraq işgüzar nüfuzuna xələl gətirməklə, ona qara yaxmaqla öz iqtisadi məqsədlərinə çatmağa çalışırlar.

Qanunvericilikdə bir sıra müddəalar bazar rəqibinin işgüzar nüfuzunu aşağılamağı, ona xələl gətirməyi qadağan edir. Məsələn, "Haqsız rəqabət haqqında" Qanun sahibkarlıq fəaliyyətində mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəlmiş, bazar subyektlərinin (rəqiblərinin) ... işgüzarlıq nüfuzuna xələl yetirə bilən hərəkətləri haqsız rəqabət hesab edir. Həmin qanuna əsasən rəqibin təsərrüfat fəaliyyətini nüfuzdan salmağa gətirib çıxaran aşağıdakı hərəkətlərə yol verilmir:

- digər bazar subyektlərinin işgüzar nüfuzu və maliyyə vəziyyəti haqqında yalan və təhrif olunmuş məlumatların yayılması;

- rəqibin elmi-texniki və istehsal imkanları haqqında məlumatların təhrif olunmuş şəkildə açıqlanması.

65.Müəlliflik hüququnun pozulmasına görə məsuliyyət növlərini izah edin. (5bal)

Müəlliflik hüququnun müdafiəsi kompleks xarakterli sahədir. Müəlliflik hüququnun müdafiə edilməsində hüququn ayrı-ayrı sahələri böyük rol oynayır.

İlk növbədə, konstitusiya hüququ, cinayət hüququ və inzibati hüquq və əsas və başlıca yeri tuttan mülki hüquq.

Mülki hüquq müəlliflik hüququnun pozulmasına görə mülki hüquq məsuliyyəti nəzərdə tutur və mülki- hüquqi tədbirlərdən istifadə olunur. Müəlliflik hüququnun pozulması dedikdə, müəlliflik hüququ ilə qorunan əsərdən icazəsiz istifadə başa düşülür.

Müəlliflik hüququnun mülki-hüquqi müdafiəsi dedikdə, müəlliflik hüququ pozulduğu (və ya müəlliflik hüququ barədə mübahisə yarandığı) hallarda onun bərpasına (və ya tanınmasına) yönələn mülki-hüquqi tədbirlərin məcmusu başa düşülür.

Mülki qanunvericilikdə mülki hüquqların iki əsas müdafiə forması göstərilir.

Həmin formalara aiddir:

- *yurisdiksiya müdafiə forması;*
- *qeyri-yurisdiksiya müdafiə forması.*

Səlahiyyətli dövlət orqanlarının vasitə və köməyi ilə həyata keçirilən müdafiə formasına yurisdiksiya forması deyilir. Bu formanın özünün ümumi (məhkəmə) və xüsusi (inzibati) müdafiə adlı iki növü fərqləndirilir. Müəlliflik hüququnun müdafiə edilməsində əsas və başlıca rol məhkəmə (ümumi) müdafiə formasına məxsusdur. Müəlliflik hüququ sahəsində yaranan mübahisəli məsələlərin demək olar ki, müqayisəedilməz dərəcədə əksəriyyəti məhz məhkəmələrin vasitəsilə həll olunur. Məhkəmə müdafiəsinin əsas vasitəsi iddia hesab edilir.

Xüsusi (inzibati) müdafiə forması yalnız qanunvericilikdə nəzərdə tutulan hallarda həyata keçirilir. Nə mülki qanunvericilik, nə də onun tərkib hissəsi olan müəlliflik qanunvericiliyi bu məsələ ilə bağlı olan hər hansı bir hal müəyyən etmir. Başqa sözlə desək, müəlliflik hüququnun inzibati (xüsusi) qaydada müdafiə

olunması üçün qanunvericilik indiyə kimi hər hansı hal nəzərdə tutmur. Lakin buna baxmayaraq müəlliflik hüququ pozulmuş olan şəxslər hüquq pozuntusu törədənin işlədiyi orqanın yuxarı instansiya orqanına, yazıçılar birliyinə və digər yaradıcılıq ittifaqına müraciə t edə bilərlər. Müəlliflik hüququnun xüsusi (inzibati) qaydada müdafiə olunmasının əsas vasitəsi şikayətdir.

Qeyri-yurisdiksiya müdafiə forması dedikdə, elə bir tədbir başa düşülür ki, bu zaman şəxs müəlliflik hüququnu və qanunla qorunan mənafeyi dövlət orqanlarının və digər səlahiyyətli orqanların köməyindən istifadə etmədən müstəqil surətdə, öz hərəkətlərinin vasitəsi ilə müdafiə edir. Müəlliflik hüququ sahəsində qeyri-yurisdiksiya müdafiə formasından istifadə edilməsi mümkün olan məsələdir.

Mülki qanunvericilikdə qeyri-yurisdiksiya müdafiə formasının iki əsas növü (halı) fərqləndirilir: özünümüdafiə; operativ təsir tədbirləri.

Müəlliflik hüquqlarının özünümüdafiəsi dedikdə, müəllifin qanunla yol verilən faktiki xarakterli elə hərəkətlər etməsi başa düşülür ki, bu hərəkətlər müəllifin şəxsi (qeyri- əmlak) və ya əmlak hüquqlarının müdafiəsinə yönəlir.

66. Patent hüququnun mənbələri və müdafiə üsulları haqqında bəhs edin. (5bal)

Patent hüququnun mənbələri içərisində 25 iyul 1997-ci ildə qəbul olunan «Patent haqqında» qanunun xüsusilə rola və əhəmiyyətə malikdir və kompleks xarakterli normativ aktdır. Ona görə ki, bu qanunla tənzimlənən patent münasibətləri həm mülki, həm inzibati, həm də prosessual münasibətlərdir. Daha doğrusu, patent münasibətləri üç növə bölünür: mülki münasibətlərə; inzibati münasibətlərə; prosessual münasibətlərə. Qanun Azərbaycan Respublikasında patent sisteminin yaranması üçün hüquqi baza rolunu oynayır.

Patent münasibətlərinin tənzimlənməsində Azərbaycan Respublikasının Mülki Məcəlləsi mühüm rol oynayır. Belə ki, ixtira, sənaye nümunəsi və faydalı modellərin yaranması və istifadəsi ilə bağlı yaranan əmlak münasibətlərinə və bu münasibətlərlə bağlı olan şəxsi qeyri-əmlak münasibətlərinə Mülki Məcəllənin normaları tətbiq edilir.

Bunlardan başqa, patent hüququnun mənbəyinə qanunqüvvəli aktlar,

Nazirlər Kabinetinin normativ aktları da aiddir. Patent rüsumlarının və ödənişlərinin məbləği və ödənilməsi qaydası Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Patent idarəsinin normativ aktları qanun qüvvəli akt kimi patent hüququnun mənbəyi sayılır. Həmin aktlar əsasən patentə dair qaydalar müəyyən edir, patent barədə qanunun tətbiqi məsələsi haqqında izahatlar verir.

Həmçinin, beynəlxalq müqavilə və sazlşlər də patent huququnun mənbəyini təçkil edir.

Patent hüquqlarının pozulması dedikdə, patentləşdirilmiş sənaye mülkiyyəti obyektindən hər hansı bir şəxsin patent sahibinin icazəsi (razılığı) olmadan istifadə etməsi (sənaye mülkiyyəti obyektini icazəsiz təsərrüfatı dövriyyəsinə daxil etməsi), habelə lisenziatın öz müqavilə öhdəliyini pozması başa düşülür.

Patent hüquqları qanunla mümkün pozuntulardan müdafiə olunur. Belə pozuntular iki əsas növə bölünür: mülki hüquq pozuntuları, cinayət. Buna görə də patent hüquqlarının müdafiə üsullarını iki yerə bölmək olar:

- *mülki-hüquqi müdafiə üsulları*
- *cinayət-hüquqi müdafiə üsulları.*

Mülki-hüquqi müdafiə üsulları o halda tətbiq edilə bilər ki, patent sahibinin hüquqları (patent hüquqları) pozulsun. Patent hüquqlarının pozulmasına səbəb ola bilən halların dairəsi kifayət qədər genişdir. Belə hallar həm müqavilədənkənar, həm də lisenziya müqaviləsi çərçivəsində yarana bilər. Bu hallara aiddir: tərkibində patent- ləşdirilmiş sənaye mülkiyyəti obyekti olan məhsulun (məmulatın) icazəsiz hazırlanması; belə məhsulun (məmulatın) icazəsiz tətbiqi; belə məhsulun (məmulatın) icazəsiz idxalı; belə məhsulun (məmulatın) icazəsiz satışı; belə məhsulun (məmulatın) icazəsiz satış üçün təklif olunması; belə məhsulu (məmulatı) təsərrüfat dövriyyəsinə daxil etmək məqsədilə icazəsiz saxlanılması , lisenziatın lisenziya müqaviləsi əsasında ona verilən istifadə hüququndan kənara çıxması (məsələn, lisenziatın məmulatı hazırlamaq hüququ olduğu halda, həm də onu satır və s.); lisenziatın müqavilə öhdəliyini yerinə yetirməməsi; lisenziatın müqavilə öhdəliyini lazımi qaydada yerinə yetirməməsi. və s.

Pozulmuş patent hüquqlarının müdafiəsində istifadə olunan mülki-hüquqi üsullara aiddir:

Zərərin əvəzini ödəmə

Dəbbə pulu (cərimə, penya)

Hüququ pozan hərəkətlərin (kontrafakt hərəkətlərin) dayandırılması (qarşısının alınması)

Mənəvi zərərin kompensasiyası

Cinayət-hüquqi müdafiə üsullarından o halda istifadə oluna bilər ki, patent hüququ sahəsində cinayət törədilsin. Azərbaycan Respublikasının CM-nin 166-cı maddəsi ixtiraçılıq və patent hüquqlarını pozmağa görə cinayət məsuliyyəti nəzərdə tutur. Həmin maddə aşağıdakı hərəkətləri cinayət hesab edir:

• ixtiradan və ya səmərələşdirici təklifdən qanunsuz istifadə etmə;

• ixtira, yaxud səmərələşdirici təkliflərin mahiyyəti barədə məlumatları müəllifin razılığı olmadan və rəsmi dərc edilənədək yayma;

• müəllifliyi mənimsəmə;

• şərikli müəllifliyə məcbur etmə.

67. Əmtəə nişanı hüququnun pozulmasının tipik hallarını izah edin. (20bal)

Əmtəə nişanı hüququ mütləq hüquqdur. Mütləq hüquqlar isə hamıdan və hər kəsdən müdafiə edilir. Əmtəə nişanları və coğrafi göstəricilər haqqında qanunun V fəslinə daxil olan normalar (32-34-cü maddələr) məhz əmtəə nişanı hüququnun müdafiəsi məsələsinə həsr edilmişdir.

Qeyd etmək lazımdır ki, əmtəə nişanı hüququnun müdafiəsi məsələsi bu hüquq pozulduğu hallarda ortaya çıxır.

Əmtəə nişanı hüququnun pozulması dedikdə, əmtəə nişanı sahibinin razılığı (icazəsi) olmadan ondan istifadə olunması başa düşülür. Hər hansı şəxsin əmtəə nişanından qanunsuz (hüquqi əsası olmayan) istifadə etməsi əmtəə nişanı hüququnun pozulması deməkdir. Qanunda belə pozuntu hallarının təxmini siyahısı verilir. Bu siyahıya əmtəə nişanı hüququnun pozulmasının tipik halları daxildir. Buna görə də qanunda göstərilməyən hallarda da əmtəə nişanı hüququnun pozulması mümkündür.

Qanun əmtəə nişanı hüququnun pozulmasının aşağıdakı tipik hallarını müəyyənləşdirir:

• icazə (razılıq) olmadan sahibkarın əmtəə nişanı ilə eyni və ya oxşar olan əmtəə nişanından eyni və ya oxşar olan mallarda (xidmətlərdə) istifadə olunması;

• eyni və ya oxşar olan əmtəə nişanlarının istehlakçılarda yanlış təsəvvür yaratması;

• geniş tanınmış əmtəə nişanına aid olan mallar (xidmətlər) barəsində yanlış təsəvvür yarada bilən eyni və ya oxşar əmtəə nişanının istifadəsi;

• əmtəə nişanının onun aid edildiyi mallarda və malın qablarında, habelə xidmətlərdə icazəsiz tətbiqi;

• əmtəə nişanın reklamlarda, mətbu nəşrlərdə, lövhələrdə, Azərbaycan Respublikasında keçirilən sərgi və yarmarkaların eksponatlarında, habelə malların təsərrüfat dövriyyəsinə buraxılması (bazara çıxarılması) ilə bağlı olan digər sənədlərdə icazəsiz tətbiqi;

• təsərrüfat dövriyyəsinə buraxmaq (bazara çıxarmaq) üçün icazəsiz özgəsinin əmtəə nişanı vurulmuş malların anbara yığılması, idxal olunması, ixrac olunması, istehsal olunması, satılması və satış üçün təklif olunması və s.

Saxtakarlıq (saxtakarlıq etmə) əmtəə nişanı hüququnun pozulmasının ən geniş yayılan və nisbətən kobud olan halıdır. Saxtakarlıq (saxtakarlıq etmə) dedikdə, müəyyən bir sahibkarın özgəsinin qeydə alınmış əmtəə nişanı ilə eyni və ya ona oxşar olan əmtəə nişanını icazə almadan öz istehsal etdiyi məhsula vurması başa düşülür. Başqa sözlə desək, analoji (eyni) və ya oxşar malda özgəsinin əmtəə nişanından icazəsiz (qanunsuz) istifadə olunması saxtakarlıq deməkdir. Buna çox vaxt «saxta əmtəə nişanı düzəltmək» və ya «əmtəə nişanını saxtalaşdırmaq» deyilir.

68. Kommersiya sirri sahibinin hüquqlarının müdafiəsi üsulları haqqında bəhs edin. (10 bal)

Mülki qanunvericilik kommersiya sirrinin mühafizəsinə yönələn elə tələblər nəzərdə tutur ki, həmin tələblərə kommersiya sirrinin qorunma şərtləri (meyarları) deyilir. Bu şərtlərə cavab verdikdə, kommersiya sirri qorunur, hüquqi mühafizənin obyekti olur. Belə şərtlərə cavab verməyən kommersiya sirri isə qorunmur, hüquqi mühafizədən istifadə etmir.Kommersiya sirrinin əlamətləri - kommersiya sirrinin qorunma şərtləri bunlardan ibarətdir:

• məxfilik (gizlilik). Məxfililik (gizlilik) kommersiya sirrinin qorunma şərtlərindən biridir. Bu şərtə görə, kommersiya sirrini təşkil edən məlumat gizli olmalıdır. Gizli olmazsa, müvafiq məlumat kommersiya sirri kimi tanınmır və buna görə də hüquqi mühafizə ilə təmin edilmir. Məlumatın gizli olması o deməkdir ki, belə məlumatın qanuni əsaslarla kimsə tərəfindən əldə edilməsi mümkün olmamalıdır. Başqa sözlə desək, kommersiya sirrini təşkil edən məlumata qanuni yollarla yiyələnmək qeyri- mümkün olmalıdır. Məlumata qanuni yollarla (əsaslarla) yiyələnmək dedikdə. icazə verilən vasitələrlə (kütləvi informasiya vasitəsilə, müqavilə vasitəsilə və s.) onun əldə olunması başa düşülür. Məsələn, müəyyən

informasiya barəsində mətbuatda dərc edilmiş yazı nəticəsində istənilən şəxs onu əldə edə bilər. Sözsüz, belə informasiya kommersiya sirri kimi tanınmayacaqdır.

• kommersiya dəyərinə malik olmaq. Kommersiya sirrini təşkil edən informasiyadan istifadə mənfəət alınmasına imkan verməlidir. Kommersiya dəyərinə malik olmaq ifadə olunur: müəyyən fəaliyyət sahəsində üstünlük qazanılmasında; mənfəət əldə edilməsində; daha keyfiyyətli mal hazırlanmasında; işin daha sürətlə və tez görülməsində; göstərilən xidmətin səviyyəsinin yüksəldilməsində; xərclərin azalmasında və s. Bunlara məhz kommersiya sirrini təşkil edən informasiya sayəsində nail olunur.

Göstərdiyimiz şərt (meyar) kommersiya sirrini digər sirr növlərindən (dövlət sirrindən, tibbi sirrdən, hərbi sirrdən, vəkil sirrindən, notarial sirrdən, bank sirrindən, ailə-şəxsi sirrdən və s.) fərqləndirməyə imkan verir. Göstərilən sirr növləri kommersiya sirrindən fərqli olaraq kommersiya dəyərindən məhrum olub, sahibkarlıq (kommersiya) fəaliyyəti ilə bağlı deyildir.

• məxfiliyin (gizliliyin) saxlanması üçün tədbirlər görmək. Kommersiya sirrinin sahibi məlumatın məxfi (gizli) saxlanmasını təmin etmək üçün bütün zəruri tədbirlər görməlidir. Tədbirlər kompleks xarakterə malik olub, özündə hüquqi, təşkilati, texniki və digər tədbirləri birləşdirir. Bu tədbirlər üçüncü şəxslərin kommersiya sirrini təşkil edən məlumatın qanunsuz (icazəsiz) əldə etmələrinin qarşısını almağa yönəlir, həmin məlumatın ətrafdakılardan gizlində saxlanmasını təmin edir. ***Hüquqi tədbirlər*** *dedikdə, müxtəlif hüquqi aktların (məsələn, kommersiya sirrinin qorunması barədə əsasnamə, sənədlərlə işləmək aarədə təlimat və s.) qəbul edilməsi başa düşülür.* ***Təşkilati tədbirlərə*** *buraxılış rejimi müəyyən etmək, sənədlərin dövriyyəsini təşkil etmək, işçiləri seçmək və aiddir.* ***Texniki tədbirlər*** *dedikdə isə binanın (otaqların) mühafizə edilməsi, telefon danışıqlarının müdafiə olunması, siqnallaşdırma və s. başa düşülür.*

Məlumatın məxfi saxlanması dedikdə, onun əldə olunmasının, verilməsinin və ya istifadəsinin məhdudlaşdırılması başa düşülür. Bundan ötrü müxtəlif ısullardan istifadə olunur; məxfi məlumatın yayılmasının qadağan edən aktın, əmrin, sərəncamın, qərarın və s.) qəbul olunması; məxfi məlumat ifadə olun an sənədlərlə işləmək üçün xüsusi rejimin müəyyən edilməsi; məxfi məlumat ifadə edildiyi sənədin mətnini şifrələmə; kompüter proqramlarını müdafiə mək, qorumaq və s.

69. İnhisarçılıq fəaliyyətinin təzahür formaları haqqında bəhs edin. (10 bal)

Inhisarçılıq fəaliyyəti xüsusi mülkiyyətdə olan təsərrüfat subyektlərinin yelverilməz fənd və üsullardan istifadə etməklə yüksək mənfəət əldə etmək məqsədi

ilə azad rəqabətə yol verilməməsinə, onun qismən məhdudlaşdırılmasına və tamamilə aradan qaldırılmasına yönəldilən fəaliyyətdir.

Istehsalda inhisarlar müxtəlif formalarda fəaliyyət göstərirlər. Bu formalar aşağıdakılardır:

***Kartel** – eyni bir istehsal sahəsinin bir sıra müəssisənin elə birləşməsidir ki, onun iştirakçıları istehsal vasitələri və istehsal olunmuş məhsul üzərində öz mülkiyyətni saxlayır. Kartelin iştirakçıları öz məhsullarını bazarda özləri reallaşdırırlar. Istehsal edilmiş ümumi məhsulda kartel üzvünün payı, satış qiymətləri, bazarın bölgüsü, mənfəətin bölüşdürülməsi və başqa belə göstəriçilər kartel sazişi ola bilər. Kartel müqaviləsi kartel iştirakçılarının satış şərtlərini pozduqları hallarda böyük məbləğdə çərimə verməklə çəzalanldırılmasını nəzərdə tutur.*

